# 12 Dekabr Ulu Öndər Heydər Əliyevin Anım Günüdür


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 274 (30678) 12 dekabr 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## HEYDƏR ƏLİYEV UCALIĞI



Səhifə ⇨ 4

# Ümumxalq sevgisinin əbədi ünvanı



**Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan bir sıra tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları olmuşdur. Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin həyat və fəaliyyəti müstəsna bir zirvə təşkil edir.**

Tarixi şəxsiyyətlərimiz zaman-zaman gördükləri böyük işlər və əməllərlə xalqımızın yaddaşında silinməz izlərlə qalmış və unudulmamışlar. Milli tariximizi şərəfləndirmiş ictimai və dövlət xadimlərindən yalnız Heydər Əliyev şəxsiyyəti ümummilli lider səviyyəsinə yüksəlmişdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan öndər kimi yaşayır. Vətənimizin tarixi taleyində, ölkəmizin mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz Böyük azərbaycanlıdır.

Bu qüdrətli şəxsiyyət 30 ildən artıq Azərbaycana yüksək səviyyədə rəhbərlik etmiş, uzun müddət SSRİ kimi nəhəng super imperiyanın rəhbərlərindən biri olmuşdur. Təbii ki, məhz belə nadir keyfiyyətlərinə, yüksək idarəetmə bacarıq və qabiliyyətinə görə, onu Azərbaycandan kənarda çox gözəl tanıyır və qiymətləndirirdilər. Heydər Əliyevin qeyri-adi, fenomenal təşkilatçılıq qabiliyyəti onu artıq nəinki SSRİ miqyasında, eləcə də beynəlxalq miqyasda tanınmış şəxsiyyətə və dövlət xadiminə çevirmişdir.

Ulu öndər Heydər Əliyev dünyanın iri planda seçilən siyasət adamı idi. O, dünya siyasətinə təsir etmək gücündə olan lider idi. Liderlər var ki, siyasi fəaliyyət, dövlət idarəetməsi sahəsində uzun illər çalışıb püxtələşdikdən sonra tanınırlar. Elə adamlar da var ki, bu, onlarda fitrən mövcuddur, genlərində kodlaşdırılıb, bir sözlə, ilahi vergidir. Buna Allahdan lider deyirlər. Heydər Əliyev məhz ikincilərdəndir. Digər vacib məqam səlahiyyət məsələsidir.

**(ardı 7-ci səhifədə)**

## Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevlə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev ulu öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.**




# Tarixi görüş



Səhifə ⇨ 3

## Avropa İttifaqına üzvlük illüziyası

### *Ermənistan iqtidarı hərəkətə keçib, amma…*

**Qız evində toydur, oğlan evinin xəbəri yoxdur. Əlbəttə, demək olmaz ki, Avropa İttifaqında Ermənistanda keçirilməsinə hazırlaşılan referendum və onun tərkib hissəsi sayılan hakim "Vətəndaş sazişi" partiyasının "EuroVote" təşəbbüsü barədə məlumata malik deyillər. Başlıca məqam referendumun, ümumiyyətlə, vacib olub-olmamasındadır. Yazıda bununla bağlı söz açacaq, mövzuya dair ayrı-ayrı cəhətlərə diqqət yetirəcəyik.**



Bəli, Ermənistanın Mərkəzi Seçki Komissiyası dekabrın 10-da Qərbyönümlü qüvvələrin qaldırdıqları və özündə ölkənin Aİ-yə qoşulması prosesinin başlanmasını ehtiva edən qanunun parlamentə təqdim olunması üçün toplanmış imzaların həqiqiliyini təsdiqləyib. Qurum bu zaman texniki və proqram təminatı vasitələrindən yararlanıb, imzaların həqiqiliyini yoxlayıb, o cümlədən, imzalanmış blanklardakı məlumatların dövlət və yerli özünüidarəetmə orqanlarının sərəncamındakı məlumatlarla müqayisəsini aparıb. Nəticədə etibarlı imzaların sayı 52351 olub ki, 50 min etibarlı imza da kifayət edirdi.

**(ardı 12-ci səhifədə)**

## Suriya məsələsi – Türkiyə amili və Azərbaycan



**Bəşər Əsəd rejiminin devrilməsi fonunda Qərbin illərdir gözlədiyinin baş verdiyi düşünülə bilər. Ancaq Türkiyənin təşəbbüsü ələ alıb uğur qazanması onun planlarına daxil deyildi. Fikrimizin təsdiqi üçün bir vacib sualın üzərinə gələk: Necə olur ki, Əsəd rejiminin mövcudluğuna həyati əhəmiyyət verən Rusiyada və İranda aktiv anti-Türkiyə ritorikası yoxdur?**

Əlbəttə, türk ordusu, Türkiyə güclüdür, bu, öz yerində. Amma qlobal maraqlar amilini nəzərdən qaçırmaq olmaz. Əsəd, bilavasitə, Qərbin onu devirmək üçün ciddi şəkildə hərəkətə keçməsindən əvvəl getməli idi və getdi də. Birinci ssenari gerçəkləşsəydi, çox güman ki, o da İraq lideri Səddam Hüseyn kimi dar ağacı, yaxud Liviya lideri Müəmmar Qəddafi kimi küçədə linç olunmaq aqibəti ilə üzləşəcəkdi...

Bəli, o nəticəyə gəlirik ki, Türkiyənin uğuru Moskva və Tehran tərəfindən həzm olunur. Həzm edə bilməyən isə Qərbdir. Doğrudur, Qərb cəbhəsi hazırda Bəşər Əsəd rejiminin tarixin arxivinə gömülməsi məsələsində populizmə güc verib, elə fon yaradır ki, sanki demokratiya diktatura üzərində qələbə qazanıb. Heç şübhəsiz, Ankaranın böyüklüyünü qəbul edə bilməyən Qərb adekvat addımlara əl ata bilər. Hələlik isə Bəşər Əsəd rejiminin hakimiyyətdən uzaqlaşması fonunda yaranmış eyforik durum onu fərqli davranmaqdan çəkindirir. Obrazlı desək, Türkiyənin uğuru Qərbin boğazında ilişib qalıb, səsini çıxara bilmir. Amma ehtimal var ki, Qərb Suriyada yeni hakimiyyətə gələnlərlə dil tapmağa, ölkəni anti-İran cəbhəsinə çevirməyə cəhd göstərəcək.

**(ardı 12-ci səhifədə)**

## Həm sülhdən dəm vururlar

*həm də xaricdə məhkəmə qapılarında sülənirlər*



Səhifə ⇨ 13

## BP-nin xalqımızın mədəni irsinə önəmli töhfəsi



Səhifə ⇨ 14

# Prezident İlham Əliyev Amerika İsrail İctimai Əlaqələr Komitəsinin prezidentini və yeni seçilmiş prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul edib.**

Qəbula görə minnətdarlıqlarını bildirən Maykl Tuçin və Bernard Kaminetski dövlətimizin başçısı ilə əvvəlki görüşlərini məmnunluqla xatırladılar. Onlar Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür etdilər.

Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını dedilər və qeyd etdilər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.

Maykl Tuçin və Bernard Kaminetski, həmçinin Azərbaycanda yəhudi icmasının fəaliyyəti və dini ayinlərini həyata keçirməsi üçün yaradılan şəraitə, yəhudi ibadət ocaqlarına dövlət səviyyəsində göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə etdilər.

Dövlətimizin başçısı da öz növbəsində qeyd etdi ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlər boyu ölkəmizdə bu cür harmonik ab-hava mövcud olub. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar, eyni zamanda, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.

Dövlətimizin başçısı Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə beynəlxalq səviyyədə ciddi töhfə verdiyini və Bakının bu xüsusda aparılan müzakirələrin ev sahibi olduğunu qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Baş nazir Əli Əsədovun Moskvaya işgüzar səfəri



Dekabrın 11-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinin dəvəti ilə MDB-nin Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün işgüzar səfərlə Moskva şəhərinə gəlib.

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

**XQ**

# Azərbaycan və Türkiyə XİN rəhbərlərinin telefon danışığı

**Dekabrın 11-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ilə Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub.**



Telefon danışığı zamanı Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn məsələlər, postmünaqişə dövründə bölgədə, Yaxın Şərqdə, xüsusilə Suriyada mövcud vəziyyət, habelə digər regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib. Tərəflər ATƏT-in Nazirlər Şurasının Maltada keçirilən 31-ci iclası çərçivəsində aparılan danışıqlar və müzakirələr ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov təcrübəli türk diplomatı olan Feridun Sinirlioğlunun ATƏT Nazirlər Şurasının 31-ci iclası çərçivəsində Təşkilatın Baş katibi kimi yüksək vəzifəyə təyinatı münasibətilə Türkiyə tərəfini təbrik edib, bu nailiyyətin tərəfimizdən böyük sevinclə qarşılandığını diqqətə çatdırıb. ATƏT-in Baş katibi F.Sinirlioğluna məsuliyyətli fəaliyyətində uğurlar arzulanıb.

Eyni zamanda, Azərbaycanın Suriyanın ərazi bütövlüyünə və suverenliyinə dəstəyi, habelə yaranmış böhranlı vəziyyətin tezliklə Suriya xalqının maraq və iradəsinə əsaslanan həllini tapmasına dair ümidvarlıq ifadə olunub.

# Ümummilli lider Baş Prokurorluqda anıldı



**Dekabrın 11-də Baş Prokurorluqda müstəqil və müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.**

Əvvəlcə Baş Prokurorluğun rəhbərliyi Ümummilli liderin büstü önünə gül dəstələri qoyub.

Baş prokuror Kamran Əliyev bildirib ki, Azərbaycanın qurucusu, dövlətçilik salnaməsinin banisi, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının, dövlətinin tarixində və taleyində silinməz izlər buraxıb, ölkəmizin müstəqilliyini təmin edərək, xalqımıza böyük gələcək perspektivləri açıb:

"Ulu öndər Heydər Əliyevin qətiyyəti və ağır əməyi sayəsində sovetlər birliyi dönəmində sosial-iqtisadi böhran keçirən Azərbaycan 1970–1980-ci illərdə İttifaqın ən qabaqcıl respublikalarından biri olub. Ümumilikdə 1969–1982-ci illərdə Ümummilli liderin təşəbbüsü və ciddi səyləri nəticəsində ölkəmizdə yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılıb, 250-dən çox İttifaq miqyaslı sənaye müəssisələri fəaliyyətə başlayıb".

Baş prokuror vurğulayıb ki, həmin illərdə Ulu öndərin fəaliyyəti nəticəsində xalqın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən silsilə tədbirlərin icrası sayəsində milli oyanışın, eləcə də Azərbaycanın gələcək müstəqilliyinin təmininə yönələn milli mübarizə ruhunun əsası qoyulub.

Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova "Heydər Əliyev: qanunvericiliyin inkişafında tarixi missiya" mövzusunda çıxış edib, "Müstəqil Azərbaycanın böyük uğurlarında Heydər Əliyevin rolu" sənədli filmi nümayiş olunub.

**XQ**



# Ulu öndərə həsr olunan konfrans

**Fövqəladə Hallar Nazirliyinin və İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının birgə təşkilatçılığı ilə FHN-in Akademiyasında "Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasında insan hüquqlarına əsaslanan islahatlar" mövzusunda konfrans təşkil olunub.**

Əvvəlcə konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Fövqəladə hallar nazirinin müavini Tapdıq Əmiraslanov çıxışında ulu öndər Heydər Əliyevin şərəfli ömür yolundan, Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışıb. Ombudsman Səbinə Əliyeva çıxışında Ulu öndərin fövqəladə hallar orqanlarının yaradılması üçün institusional bazanın formalaşdırılmasında xüsusi xidmətlərinin olduğunu, Ümummilli Liderin rəhbərliyi ilə fövqəladə halların idarə olunması sahəsində də strateji yanaşmanın formalaşdırıldığını qeyd edib.

Daha sonra Milli Məclisin deputatları Aydın Mirzəzadə və Aydın Hüseynov, FHN Akademiyasının rəisi Baba Salayev, AMEA Tarix İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov və Əməkdar jurnalist Mübariz Əsgərov çıxış edərək, ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açıblar

Sonda sənədli film nümayiş olunub.

**XQ**

# Bakı Təşəbbüs Qrupunun Papa Fransiskə müraciəti

**Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov Roma Papası Fransiskə Korsikanın dekolonizasiyası prosesinə dəstək müraciəti ünvanlayıb.**




**Müraciətdə deyilir:**

"Mən 2023-cü ilin iyul ayında Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Koordinasiya Bürosunun nazirlər toplantısı çərçivəsində təsis edilmiş beynəlxalq qeyri-hökumət təşkilatı olan Bakı Təşəbbüs Qrupunun icraçı direktoru kimi sizə bu məktubu yazmaq şərəfinə nail olmuşam...

Sizin dekolonizasiya prosesinə göstərdiyiniz diqqət beynəlxalq ictimaiyyətə məlumdur. Martın 30-31-də Vatikan şəhərində keçirilmiş "Müstəmləkəçilik, dekolonizasiya və yeni müstəmləkəçilik: Sosial ədalət və ümumi rifah perspektivi" adlı forumda söylədiyiniz sözlər çox təsirli idi: "Xalqların güc vasitəsilə və ya mədəni və siyasi nüfuzla əsarət altına alınması və istismarı cinayətdir".

Zati-müqəddəsləri, Dekabrın 15-də Korsikaya planlaşdırdığınız səfəriniz barədə bu yaxınlarda xəbər tutdum. Kardinal Fransua-Xavier Bustillonun dediyi kimi, "Korsika katolik dini ənənəsini qoruyub saxlamış bir torpaqdır", bu xalq müasir idarəetmə dinamikaları qarşısında öz unikal kimliyini, mədəniyyətini və dəyərlərini qorumaq üçün uzun müddətdir mübarizə aparmaqda davam edir.

Korsikanın tarixi onun dilində, adət-ənənələrində və fərqli irsində təcəssüm olunan mədəni zənginliklərlə doludur. Lakin xarici hökmranlıq çox vaxt xalqın öz milli kimliyini və suverenliyini qoruyub saxlamaq səylərinə maneə törədir. Bu yaxınlarda Korsika xalqı hətta Korsika Assambleyasına adanın müstəmləkəsizləşdiriləcək ölkələr siyahısına daxil olunmasını tələb edən müraciət də təqdim etmişdir.

Adaya səfəriniz zamanı Korsikadakı vəziyyəti nəzərə almanızı xahiş edirəm. İnanıram ki, Sizin varlığınız təkcə Korsika xalqına deyil, həm də müstəmləkəçilikdən əziyyət çəkən bütün xalqlara ümid işığı olacaqdır".

**XQ**

# XİN Blinkenin qərəzli bəyanatını qətiyyətlə pisləyib, rədd edib

**ABŞ Dövlət katibi Antoni Blinkenin ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin ABŞ Dövlət katibi Antoni Blinkenin Azərbaycan əleyhinə bəyanatına dair bu şərhində bildirilib: "Təəssüf ki, son 4 il ərzində Dövlət katibi Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən, sözügedən dövr bir çox dönəmlərdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan–ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir. Antoni Blinken tərəfindən ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlar mövqeyindən çıxış edilməsinin ABŞ-ın bütövlükdə Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə gətirməsi hər kəsə yaxşı məlumdur. Ümidvarıq ki, yeni ABŞ administrasiyası dövründə Azərbaycan və ABŞ arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətləri yenidən bərpa olunacaq".

**XQ**



**Dünya miqyasında elmin inkişafında zaman və şəxsiyyət faktoru həmişə mühüm amillərdən biri olmuşdur. Ona görə də uzaqgörən dövlət xadimləri, böyük mütəfəkkirlər və maarifçilər öz fəaliyyətlərində elmin inkişafına diqqət və qayğı göstərmiş, cəmiyyətin inkişafı prosesində elm faktorundan bacarıqla istifadə etmişlər. Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyev özünün çoxillik dövlətçilik fəaliyyətində elmə böyük önəm vermiş, onun inkişaf etdirilməsinə və alimlərə daim qayğı göstərmiş, rəhbərlik etdiyi ölkəni və xalqı irəliyə aparmaq üçün elmi ideyalardan istifadə olunmasına xüsusi diqqət yetirmişdir. Azərbaycan Elmlər Akademiyasının inkişafında və müstəqil dövlətçilik ideallarına doğru istiqamətləndirilməsində Heydər Əliyevin mühüm rolu vardır.**

# Tarixi görüş

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti, akademik**

Prezident Heydər Əliyevin Azərbaycan Elmlər Akademiyasının rəhbər heyəti, EA-nın həqiqi və müxbir üzvləri, respublikamızın tanınmış alimləri ilə 31 yanvar 1997-ci il tarixdə Prezident İqamətgahında keçirdiyi tarixi görüş geniş mənada ölkə elminin, xüsusən də ali dövlət elmi təşkilatının inkişafında əsaslı dönüş hadisəsidir. Görüşdə Elmlər Akademiyasının statusunun müəyyən edilməsi, ölkə elminin müstəqil dövlət quruculuğuna xidmət göstərməsi, alimlərin cəmiyyət qarşısındakı mövqeyi, onların sosial vəziyyətinin yaxşılaşdırılması, gənclərin elmə gəlişi, kadr islahatları kimi zəruri və aktual məsələlər ətrafında açıq söhbət aparılmışdır. Özünün mahiyyəti və əhəmiyyətinə görə dövlət başçısının ölkə alimləri ilə 31 yanvar 1997-ci il tarixli görüşü Azərbaycan elm tarixinin nadir və əhəmiyyətli hadisəsidir. Bu görüş müstəqil Azərbaycan dövlətinin elm siyasətinin prioritetlərinin formalaşdırılmasına, Elmlər Akademiyasının mövcud problemlərinin həllinə, inkişaf perspektivlərinə dövlət səviyyəsində həsr olunmuş ilk müzakirə kimi tarixi əhəmiyyət kəsb edir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə 31 yanvar 1997-ci ildə Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə Prezident İqamətgahında görüşün keçirildiyi vaxta qədər ölkəmizdə belə bir müzakirə təşkil olunmamışdı. Müstəqilliyin başlanğıc illərində, 1992-ci ildə Azərbaycan Respublikasının Ali Sovetində "Elm haqqında qanun" layihəsi adlandırılan bir sənəd müzakirə edilsə də, elm sahəsində mövcud reallığı və perspektiv inkişafı, habelə dünya təcrübəsini müasir tələblər səviyyəsində əks etdirmədiyi üçün təqdir olunmamışdı. Azərbaycan Elmlər Akademiyasının hazırladığı Akademiya haqqında qanun layihəsi isə bütövlükdə, respublika üzrə elmi fəaliyyəti deyil, birtərəfli qaydada yalnız ayrılıqda götürülmüş bir elmi təşkilatın hüquqları və vəzifələrinə həsr olunduğu üçün digər elmi qurumların marağına səbəb olmamışdı.

Beləliklə, Elmlər Akademiyası hələ də keçmiş SSRİ Elmlər Akademiyasının iş üslubundan tam uzaqlaşa bilməmişdi. Bütün bunları yaxından müşahidə edən Prezident Heydər Əliyev EA heyəti ilə 31 yanvar 1997-ci il tarixli görüşdən istifadə edərək elmi ictimaiyyətə dövlət müstəqilliyi dövrünün elm siyasətinin əsas prinsipləri və müddəaları haqqındakı baxışlarını çatdırmaq, onlarda yeni tarixi mərhələnin elm siyasətinin mahiyyətinə dair müasir dünyagörüşü formalaşdırmaq məqsədini həyata keçirməyi əhəmiyyətli hesab etmişdir. Ona görə də müzakirələr zamanı, ilk növbədə, Elmlər Akademiyasının rəhbərliyini və üzvlərini keçmiş sovet cəmiyyətinin iş prinsiplərindən əl çəkib, öz fəaliyyətlərini müstəqillik dövrünün xüsusiyyətlərinin doğurduğu yeni tələblər əsasında qurmağa çağırmışdır. Prezident Heydər Əliyevin aşağıdakı fikirləri müstəqillik dövründə Azərbaycan EA-nın konseptual əsaslarını müəyyən edir:

"İndi Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın Elmlər Akademiyası dövlət elmi akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun. Akademiya gərək öz işini bu strategiya əsasında qursun. Bu strategiyanı da gərək siz respublikamızın həm elmi-tədqiqat sahəsindəki imkanlar əsasında qurasınız, həm də elmi-tədqiqat işlərinin nəticələrinə görə respublikamıza lazım olan sahələri əhatə etməyə çalışasınız.

Keçmişdə biz Sovetlər İttifaqının tərkibində olarkən yalnız bu ittifaq çərçivəsində hərəkət edə bilirdiksə, indi bütün dünya ilə əlaqə qururuq və qura bilərik... Ona görə də sizin indiki iş planınız, elmi strategiyanız gərçəkdən də o keçmiş işlərdən tamamilə fərqli olmalıdır.

İndi ümumiyyətlə, qüsurlarımızdan biri ondan ibarətdir ki, çalışırıq keçmişdə necə olub, onu təkrar edək… Bundan uzaqlaşmaq lazımdır. Şübhəsiz ki, keçmişdə olan, bu gün üçün dəyərli təcrübədən istifadə etmək lazımdır… Amma keçmiş üsul-idarəni, metodları, qanun-qaydaları əsas götürüb, onları təkrar etmək düzgün deyil. Ona görə də indi siz elmin inkişafı üçün akademiyanın strategiyasını müəyyən edərkən, gərək işə, bax, bu prinsiplər əsasında yanaşasınız".

Heydər Əliyev 15 may 1991-ci il tarixdə təsdiq olunmuş "Azərbaycan Elmlər Akademiyasının statusu haqqında" dövlət sənədində Elmlər Akademiyasının tam müstəqil olması haqqındakı müddəalara tənqidi münasibətini bildirmişdir. Dövlət rəhbəri haqlı olaraq özəl, yaxud qeyri-hökumət təşkilatı və ya klub statusunda olan akademiyalarla, dövlətin ali elmi təşkilatı olan Elmlər Akademiyasını eyniləşdirmək meyillərinə də qarşı çıxmışdır. Qeyd etmişdir ki, dünya təcrübəsində mövcud olan klub xarakterli akademiyalarla fundamental tədqiqatlar aparmaqla məşğul olan, doktorantura təhsilini həyata keçirən, ölkənin elm siyasətini müəyyən edən, tərkibində elmi-tədqiqat institutları fəaliyyət göstərən elmlər akademiyaları fərqli anlayışlardır.

Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin 1991-1992-ci illərdə Elmlər Akademiyasını ləğv etmək, akademiyanın mülkiyyətini özəlləşdirmək haqqındakı niyyətləri nə qədər səhv addım idisə, dövlət müstəqilliyinin ilk mərhələsində akademiya rəsmilərinin, ayrı-ayrı tanınmış elm adamlarının da bu ali dövlət elmi qurumunu dövlətdən, ölkədə gedən proseslərdən təcrid edilmiş şəkildə "müstəqil" elmi qurum kimi təsəvvür etmələri də kökündən yanlış idi. Əslində, bu meyil də son nəticədə Elmlər Akademiyasının bağlanmasına və ya əhəmiyyətsiz bir qüruma çevrilməsinə gətirib çıxara bilərdi. Çünki nəinki iqtisadi böhrandan hələ qurtara bilməmiş yeni qurulmuş Azərbaycan Respublikası, hətta inkişaf etməkdə olan və ya inkişaf etmiş ölkələrdə də EA-lar əsasən dövlət büdcəsi hesabına maliyyələşdirilir. İnnovasiya və sahibkarlıq fəaliyyəti ilə də məşğul olan EA-ların əldə etdikləri əlavə gəlirlər inkişaf prosesinə stimul yaratsa da, onların müstəqil şəkildə fəaliyyət göstərmələrinə tam təminat verə bilmir. Bu mənada Prezident Heydər Əliyevin 31 yanvar 1997-ci il tarixdə keçirilən görüşdə dönə-dönə Azərbaycan Elmlər Akademiyasının dövlət elmi müəssisəsi olmasını xatırlatması bu elmi təşkilatın fəaliyyətinə verilən qiymətdən çox, qurumun statusunu və vəzifələrini düzgün başa düşməyə çağırışın ifadəsidir: "Bunu deməyə məcburam ki, Azərbaycan Respublikasının müstəqil Azərbaycan Elmlər Akademiyası Azərbaycanın ən yüksək elmi müəssisəsi, elmi təşkilatıdır… Azərbaycan Elmlər Akademiyası dövlət akademiyasıdır, Prezidentin birbaşa himayəsi altındadır və Prezidentin qarşısında cavabdehdir.

…Bir tərəfdən deyirsiniz ki, Akademiyanı kimsə dağıtmaq istəyir, digər tərəfdən də qərar qəbul etmisiniz ki, Akademiya özünü idarə edən təşkilatdır, müstəqildir, filandır, heç kəsdən asılı deyil… Elə bu dağıntı işini özünüz etmisiniz. Nizamnamə pozulanda hər şey ola bilər…. Ona görə də öz səhvlərinizin bəlasını çəkirsiniz və mən buna yol verə bilmərəm".

Dünya təcrübəsi və müstəqil Azərbaycan dövlətinin reallığı Ulu öndərin nə qədər uzaqgörən və obyektiv mövqedə olduğunu təsdiq edir. Sonralar Milli Elmlər Akademiyasının Heydər Əliyev tərəfindən 2 yanvar 2003-cü ildə təsdiq edilmiş yeni Nizamnaməsində, Prezident İlham Əliyevin 2016-cı ildə təsdiq etdiyi Azərbaycan Respublikasının Elm haqqında Qanununda, AMEA-nın 2014-cü il və 2023-cü il tarixli nizamnamələrində Milli Elmlər Akademiyasının ali dövlət elmi təşkilatı olması prinsipi əsas maddə kimi öz əksini tapmış və digər müddəalar həmin prinsip əsasında formalaşdırılmışdır. Bu, Milli Elmlər Akademiyasının statusunun müəyyən edilməsinin və fəaliyyətini davam etdirməsinin ana xəttini müəyyən edən əsas müddəadır.

Görkəmli dövlət xadimi Heydər Əliyev 31 yanvar 1997-ci il görüşündə Azərbaycan Milli Elmlər Akademiyasının müstəqillik dövründəki statusu ilə yanaşı, əsas məqsəd və vəzifələri haqqında da konkret fikirlər irəli sürmüş, bu haqda akademiya rəhbərliyinə ən doğru yolu göstərmişdir: "Azərbaycan Elmlər Akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir və Azərbaycan elminin inkişaf etməsində aparıcı rolunu oynamalıdır. Azərbaycan Prezidenti, hökuməti bunun üçün bütün imkanları yaradacaqdır.

Bu vəzifələri yerinə yetirmək üçün siz elmin inkişafı haqqında müəyyən bir mərhələdə strategiyanızı və taktikanızı müəyyən etməlisiniz, onu təsdiq etməlisiniz və Azərbaycan Prezidentinə təqdim etməlisiniz".

Görkəmli dövlət xadimi Heydər Əliyevin tələb və təklif etdiyi müddəalar Milli Elmlər Akademiyasının dünya təcrübəsi və ölkə reallığı əsasında təsdiq olunmuş qızıl qaydasıdır. Həmçinin Azərbaycan Elmlər Akademiyasının strategiyasına və strukturuna da xalqımızın milli maraqları və müstəqil dövlətimizin mənafeləri baxımından yanaşaraq, elm sahəsində islahatların aparılması zərurəti haqqında Prezident Heydər Əliyevin 31 yanvar 1997-ci ildə irəli sürdüyü tələblər davamlı inkişafla bağlı olan aktual prinsip kimi daim zaman-zaman həyata keçirilməkdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Elmlər Akademiyasının rəhbərliyi və elmi heyəti ilə 31 yanvar 1997-ci il tarixdəki görüşündə müzakirə edilən digər məsələlərin hamısında xalqımızın və müstəqil dövlətimizin maraqları və mənafeləri mövqeyindən çıxış edilmişdir. Prezident Heydər Əliyevin bu tarixi görüşdə irəli sürdüyü Azərbaycan tarixinin, xüsusən XIX-XX əsrlər tariximizin yenidən yazılması zərurəti haqqındakı tələbi də keçmiş sovet ideologiyasının prinsiplərindən yaxa qurtarmağa və yeni tarixi dövrün tələbləri əsasında xalqımızın obyektiv reallıqlara və arxiv sənədlərinə əsaslanan gərçək tarixinin yazılıb yeni nəsillərə çatdırılması ideyasına xidmət edir: "İndi vəzifə ondan ibarətdir ki, Azərbaycanın tarixi yenidən yazılmalıdır… Mən demişəm ki, Azərbaycanın XX əsr tarixi yazılmalıdır. Mən bunu niyə belə demişəm? XX əsr çox mürəkkəb bir əsrdir. Bu əsrdə dünyada və respublikamızın həyatında baş vermiş ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu, XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Ona görə də mən çox çalışıram ki, biz XX əsr tariximizi tez yazaq. Çünki, bilirsiniz, tariximiz bir tərəfdən təhrif olunur, digər tərəfdən isə keçmişdə nə varsa, götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar… İndi Akademiyanın qarşısında duran əsas vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır".

Milli Elmlər Akademiyasının 50 illik yubileyinin keçirilməsi, "Azərbaycanın Tarixi Atlası"nın hazırlanması, yeni nəsil elmi kadrların yetişdirilməsi, Milli Ekologiya Fondunun yaradılması, arxiv işinin yenidən qurulması, 20 Yanvar hadisələrinə obyektiv siyasi-elmi qiymət verilməsi, görkəmli elm xadimlərinin yubileylərinin qeyd olunması, gənclərin elmi fəaliyyətə cəlb edilməsi kimi məsələlər ətrafında aparılan müzakirələr və qəbul edilən qərarlar miqyasına və əhəmiyyətinə görə bu tarixi görüşün ölkə Prezidenti ilə alimlərin dialoqundan çox, müstəqillik dövründə Elmlər Akademiyasının problemlərinə və vəzifələrinə həsr edilmiş müşavirə səviyyəsində keçirildiyini göstərir. Bu görüş və müzakirələrdə Heydər Əliyevin göstərdiyi yol Elmlər Akademiyasını müstəqillik adı altında yanlış fəaliyyət göstərməkdən qurtarıb, düzgün istiqamətdə inkişaf etdirilməsini müəyyən etmişdir. Həmin görüşdə iştirak etmiş akademik Cəmil Quliyev çıxışında 31 yanvar 1997-ci il görüşünü Elmlər Akademiyasının xilası hadisəsi, Heydər Əliyev tərəfindən xilas edilməsi hadisəsi kimi dəyərləndirmişdir: «Azərbaycan Elmlər Akademiyası ətrafında gedən söhbətlər hamıya məlumdur... Azərbaycan Elmlər Akademiyasını bu gün Siz xilas etdiniz… Siz akademiyanın ləğvi barədə bütün dedi-qodulara son qoydunuz…"

Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyevin akademik heyətlə keçirilmiş 31 yanvar 1997-ci il tarixli görüşü ilə EA-nın ləğv edilməsi, statusunun dəyişdirilməsi, elmi tədqiqat institutlarının bağlanması kimi cəmiyyətdə gedən söz-söhbətə son qoyulmuşdur. Məhz həmin görüşdə Prezident Heydər Əliyevin qəti mövqeyi ilə Elmlər Akademiyasının statusunun dəyişdirilərək – Qazaxıstan variantına uyğunlaşdırılması, yəni Məhdud Məsuliyyətli Cəmiyyətə, yaxud ictimai təşkilata çevrilməsi sahəsindəki mübahisəli fikirlər aradan qaldırılmışdır. Azərbaycan elminin taleyində xüsusi əhəmiyyətə malik olan həmin tarixi görüşdə Elmlər Akademiyasına dövlət dəstəyin daha da qüvvətləndirərək bu qurumun ali dövlət elmi təşkilatı kimi fəaliyyətini davam etdirməsi qəti olaraq təsdiqlənmişdir. Elmlər Akademiyasının mahiyyətini ifadə edən "ali dövlət elmi təşkilatı" formatı ulu öndər Heydər Əliyevin dahiyanə dəqiqliklə müəyyən etdiyi təyinatdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin elm xadimləri ilə görüşündə elmi ictimaiyyətin diqqətinə çatdırdığı qəti mövqe ilə Elmlər Akademiyasının statusu, fəaliyyət istiqaməti müəyyən edilmişdir: "Bir şeyi bilməlisiniz ki, – bu mənim fikrimdir, – Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elmi müəssisəsidir. O, Azərbaycan dövlətinə məxsusdur. Son illərdə təkcə Azərbaycanda yox, dünyanın hər yerində müxtəlif akademiyalar yaranır. Eşidirsən ki, filan yerdə akademiya yaranıb, filankəs o akademiyaya üzv seçilib… Əgər belə desək, bu, özəl akademiyalardır… Amma Azərbaycan dövlətinin ən yüksək elmi müəssisəsi respublikamızın Elmlər Akademiyasıdır… Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaqdır".

Bu tarixi görüşdən sonra Elmlər Akademiyasının rəhbər heyətinin yenidən təşkili, həyata keçirilən digər dəyişikliklər EA-ya rəsmi şəkildə ali dövlət elmi təşkilatı statusunun verilməsi anlayışını ifadə edən Milli Elmlər Akademiyası haqqında qərarın qəbul edilməsinə doğru istiqamətləndirilmişdir.

Elmlər Akademiyasının kollektivi görüşün mahiyyəti və əhəmiyyətini yüksək dəyərləndirmiş, EA-nın gələcəyinə göstərilən dövlət qayğısını minnətdarlıqla qarşılamışdır. İlk dəfə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi İrs Arxivindən əldə etdiyimiz sənədlər 31 yanvar 1997-ci il tarixli görüşün doğurduğu əks-sədanı bütün reallıqları ilə birlikdə əyani şəkildə görməyə, konkret detalları ilə təsəvvür etməyə imkan yaradır. Bu baxımdan Prezident İqamətgahında keçirilmiş tarixi görüşdən dərhal sonra, 5 fevral 1997-ci il tarixdə Elmlər Akademiyasının Rəyasət Heyətinin iclasında Akademiyanın ümumi yığıncağının çağırılması haqqında qərarın qəbul edilməsi və 7 fevral 1997-ci ildə ümumi yığıncağın keçirilməsi akademik təşkilatın elmin inkişafına və alimlərə göstərilən dövlət qayğısına yüksək əhval-ruhiyyə ilə cavab vermələrini göstərir.

Azərbaycan EA-nın 7 fevral tarixdə keçirilmiş ümumi yığıncağında Rəyasət Heyətinin iclasında təsdiq olunmuş gündəliyə əsasən Elmlər Akademiyasının üzvlərinin və onun rəhbər orqanlarının seçkiləri haqqında Əsasnamənin II bölməsinin 5-ci bəndinə müvafiq olaraq, yeni müddətdə Azərbaycan EA-nın prezidenti seçkilərinin keçirilməsi məsələsi müzakirə olunmuşdur. Bununla belə, 7 fevral 1997-ci il tarixdə öz işinə başlayan ümumi yığıncaqda təşkilati məsələyə baxılsa da, akademiyanın üzvləri çıxış edərək Prezident İqamətgahındakı 31 yanvar 1997-ci il tarixli görüş haqqında təəssüratlarını bölüşmüş, həmin tarixi günün dərsləri və çağırışlarını diqqət mərkəzinə çəkmişlər. Bu mənada Elmlər Akademiyası ümumi yığıncağının 7 fevral 1997-ci il tarixli iclası Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin elm siyasəti, akademiyanın müstəqillik dövründəki statusu məsələsi və vəzifələrinə həsr edilmiş forum təsiri bağışlayır. Elmlər Akademiyasının ümumi yığıncağında çıxış edənlərin görkəmli dövlət xadimi Heydər Əliyevin uğurlu dövlətçilik fəaliyyəti, apardığı məqsədyönlü elm siyasəti, akademiyanın rolu və vəzifələri haqqındakı fikirləri elm tariximizin əhəmiyyətli səhifələridir. AEA ümumi yığıncağının 7 fevral 1997-ci il tarixli iclası müstəqil Azərbaycan dövlətinin elm siyasətinin cəmiyyətdə dərk olunmasını və şərh edilməsini əks etdirən akademik yığıncaq kimi də tarixi hadisədir. Ümumi yığıncağın bu iclası Azərbaycan alimlərinin mövqeyi, dünyabaxışı haqqında da aydın təsəvvür yaradır. Ümumi Yığıncağın təşkilati məsələyə baxılmasına qədərki giriş hissəsinə sədrlik edən akademik Eldar Salayev 31 yanvar 1997-ci il tarixdə Prezident İqamətgahında görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə keçirilən görüşü "nəinki akademiyanın həyatında, eyni zamanda, Azərbaycan elmində tarixi bir hadisə" kimi qiymətləndirmişdir.

Qeyd etmək lazımdır ki, çıxışların hamısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çoxillik dövlətçilik fəaliyyətinin yüksək qiymətləndirilməsi və EA-ya qayğısı diqqət mərkəzində olmuşdur.

Akademik İsmayıl İbrahimov Prezident İqamətgahındakı görüşün ümumiyyətlə elmin və konkret olaraq akademiyanın inkişafına göstərilən dövlət qayğısının xüsusi əməli ifadəsi olduğunu nəzərə alaraq, Prezident Heydər Əliyevə minnətdarlıq məktubu göndərilməsi təklifi ilə çıxış etmişdir: "Keçirilən böyük görüşün nəticələrini nəzərə alaraq, təklif edirəm ki, bugünkü ümumi iclasımız adından respublika Prezidentinə müraciət qəbul olunması Rəyasət Heyətinə tapşırılsın".

Ümumi yığıncaqdakı çıxışların hər biri Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin alimlərlə görüşünün mahiyyəti və əhəmiyyəti haqqındakı akademik baxışların ifadəsidir.

**Akademik Bəkir Nəbiyev:** "Biz hamımız düz bir həftə bundan əvvəl Prezident Aparatında keçirilən görüşün təsiri altındayıq… Bəli, sıravi elmi işçidən başlamış Akademiya üzvlərinə qədər hamının məvacibi artırılmışdır… Lakin bizi daha çox mütəəssir edən Prezident Heydər Əliyevin EA və Azərbaycan elmi haqqında yüksək səriştəli nitqidir.

…Elmlər Akademiyası ətrafında yaranmış qeyri-müəyyənliyin sükut buzunu sındıran bu tarixi görüşdən irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün görüləcək işlər, inanıram ki, bizim bundan sonra keçiriləcək daha geniş və işgüzar yığıncaqlarımızda müzakirələrin predmeti olacaqdır".

**Akademik Musa Rüstəmov:** "Əlbəttə, bu özü böyük tarixi hadisədir ki, respublika Prezidenti EA-nın üzvlərini şəxsən qəbul etmiş, Azərbaycan elminə olan münasibətini göstərmişdir… Bu, Elmlər Akademiyasının inkişafına çox böyük təsir göstərəcəkdir. Prezident, həmçinin öz çıxışında gələcək inkişaf yollarını da göstərmişdir… Bütün bunlar imkan verəcək ki, akademiyaya gənclər də cəlb olunsunlar".

**Akademik Ziya Bünyadov:** "Bir həftə bundan qabaq birinci dəfə idi ki, respublika Prezidentinin iqamətgahında akademiyanın işçiləri ilə belə görüş keçirilirdi… Nəhayət, Prezidentimiz bizi toplayıb EA-nın gələcək həyatı üçün təhlükəli olan sözləri kənarlaşdırdı. Onun bizə tövsiyə etdiyi məsələlərlə addımlamalıyıq. Biz artıq XXI əsrin astanasındayıq."

**Akademik Asəf Nadirov:** "Akademiyanın həyatında yeni dövr başlayır… Müstəqillik əldə ediləndən sonra 5 dəfə dəyişən hakimiyyət strukturları respublikamıza ağır zərbə vurduğu kimi, akademiyamıza da ağır zərbə vurdu. Hətta məsələ o yerə çatmışdı ki, Akademiyanın ləğvi məsələsi irəli sürülmüşdü. Lakin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev cənabları təkcə akademiyada yox, respublikamızın həyatında böyük dönüş yaratdı…

**(ardı var)**

# HEYDƏR ƏLİYEV UCALIĞI

**Rafael HÜSEYNOV,**
**Milli Məclisin sədr müavini, akademik**

**Bu suala həmişə cavab axtaracaqlar – bu gün də, sabah da. Nədir Heydər Əliyev möcüzəsinin sirri? O, qadir dövlətçi, dərin siyasətçi idi, mahir təşkilatçı, ilhamlı qurucu idi. Hansı səmtə üz tuturdusa orada misilsiz idi, qüdrətli idi. Bu daimi böyüklüyün, tükənməz qüdrətin hikməti nə idi? Bəlkə də çətindən-çətin görünən bu sualın sadədən-sadə bir cavabı var. Heydər Əliyev ömrü boyu dilimizə və elimizə bağlı oldu. Dilimiz və elimizsə torpaqdır. Torpağın üstündə nəsil-nəsil yaşamış insanlardır, ata-babalarımızdır, ata-babalarımızn minillər boyu yaratdığı mənəvi sərvətlərdir. Heydər Əliyev ömrü boyu dilimizə, elimizə, mənəvi sərvətlərimizə sahib oldu, gücü onlardan aldı.**

Qədim Antey haqqındakı əsatirdə ibrət var. O, gücünü torpaqdan alırdı. Ayağı yerdən üzülən kimi taqətdən düşməyə, zəifləməyə başlayırdı. Heydər Əliyev mübarizələrdən keçdi, savaşlardan adladı, sınaqlarla üzləşdi. Heç vaxt gücü azalmadı, heç vaxt taqəti tükənmədi. Həmişə müvəffəq oldu, daim məqsədə yetişdi, qarşılaşdığı dürlü sınaqlardan müdam zəfərlə çıxdı. Çünki möhkəm təməl üzərində ucalmışdı, ona görə ki, ayaqları həmişə ana torpağın üzərində idi, o səbəbdən ki, həmişə dilimizə və elimizə bağlı idi. Bu əbədi qaynaqlardan bəhrələnənlərin, dildən və eldən qüvvət alanların gücü tükənərmi?! Ömrü boyu dildən və eldən enerji aldığından həyatı uzunu borcunu qaytarmağı da ən ümdə vəzifəsi saydı, dilimizi və elimizi daha möhtəşəm etməkçün bacardığını əsirgəmədi. O üzdən də Heydər Əliyevin hələ bundan belə nə qədər yaşayacağı da dəqiq bəllidir – onun ömrü elə dilimizin və elimizin ömrü qədər olacaq.

...Vaxtın insana öyrətdiyi əsas dərs barışmaq qabiliyyətidir. Dünyayla, onun dəyişməz həqiqətləri ilə barışmadan yaşamaqda davam etmək mümkünsüz olardı. Barışmalı olduğumuz ən kədərli gerçəkliksə bizə əziz, doğma olan insanlardan əbədi ayrılıqlardır. Dünənəcən səninlə bir yerdə olan, duyğu, düşüncə bölüşən, sənin və ətrafdakıların həyatını daha mənalı edən əzizlər bir-bir gedir. İnsanların ömürlərindən qopan yeridolmaz itkilərə tab gətirərək, taleyin belə gərdişi ilə razılaşaraq yaşamaqda davam etməsinin səbəbi heç vəchlə tükənməyən, daim diri qalan xatirələrdir. Özləri sönsələr də, işıqları insanlara doğru yüzillərlə uçmaqda davam edən uzaq ulduzlar kimi hafizədə qalan izlər bizə munis olmuş insanları biryolluq getməyə qoymur, bizimlə saxlayır, yaddaşımızdakı surətlərini yeri düşdükcə məhrəm həmsöhbətlərimizə çevirir.

Amma illərin arxasında qalmış o unudulmaz axşam ki indi yenidən canlandırmaq istəyirəm, onu təzədən bugünə qaytarmaq üçün yaddaşa güc gəlməyə ehtiyac yoxdur. Çünki həmin axşam insan yaddaşından qat-qat möhkəm bir hafizəyə həkk olunub. Bir axşam Azərbaycan televiziyasında görüşmüşdük, etdiyimiz söhbətlər, yada saldığımız anlar hamısı yazılmışdı, sonra həmin yazının əsasında veriliş hazırladıq, o gün ertəsi axşamı artıq həmin söhbəti Azərbaycan boyu ekran qarşısında olanların hamısı eşitdi, hətta növbəti illərdə də o yazı bir neçə dəfə təkrarlandı, lakin sonra həmin söhbət əsnasında masa arxasında oturmuşlar bir-bir dünyasını dəyişməyə başladı.

O gün unudulmaz Heydər Əliyevi anmaq, onun haqqında düşüncələrimizi, xatirələrimizi bölüşməkçün toplanmışdıq. Tarixçi, etnoqraf ailm, akademik Teymur Bünyadov idi, Milli Məclisin deputatı, bir vaxtlar Naxçıvanda mədəniyyət naziri, raykom katibi və digər yüksək vəzifələri tutmuş, sözün əsl mənasında ağsaqqal olan Fəttah Heydərov idi, görkəmli şərqşünas, akademik Vasim Məmmədəliyev idi, Xalq şairi Fikrət Qoca idi, bir də mən. İlk gedən Vasim müəllim oldu. Onu 2019-cu ilin 13 oktyabrında itiridk. 2020-nin 2 avqustunda Fəttah müəllimdən ayrıldıq, 2021-in 5 mayında Fikrətsiz qaldıq, 2022-nin 8 aprelindəsə Teymur müəllim bizi tərk etdi. Anlayan yanında ən maraqlı bədii filmdən daha çəkici və faydalı olan bu söhbət qalıb Televiziya və Radio Şirkətinin arxivindəki bir rəfdə, çətin ağlım kəsir ki, haçansa onu yenidən bütöv halda efirə vermək yada düşsün. Ancaq həmin söhbətlər gərək itməsin axı. "İtməsin" decəyin, itməyəcək, arxivdə qalmağına qalacaq. Lakin kimsəyə görünmədən, eşidilmədən elə bir rəfdə illərcə sükut içərisində qalmaq elə itmək kimi bir şeydir. Ancaq istəyirəm ki, o əziz insanları bugünə gətirim, həmin yaddançıxmaz axşamda söylədiklərini köçürüm kağıza, bu minvalla onlar özləri də, etdikləri söhbətlər də, haqqında danışdıqları böyük Heydər Əliyev də yenidən bizimlə üz-üzə dayansınlar.

O axşam sözümüz mənəvi dəyərlərimiz və Heydər Əliyevin bizi biz edən bu sərvətimizi qoruyub yaşatmaq yolundakı çalışmaları barəsində idi. Akademik Teymur Bünyadov söhbətini tariximizin uzaqlarından başlamış, dövlətçiliyimizin 3000 ilə sığan tarixinə ötəri səfər edərək müqayisə aparmışdı. Demişdi ki, bizim dünənimizdə Manna dövləti var, onun assurlara, midiyalılara qarşı vuruşan başçısı İzirtu olub, Makedoniyalı İsgəndərə qarşı incə siyasət aparmış, xalqını qorumağı bacarmış, yunanlar sarıdan gələ biləcək təhlükələri istisna etməkçün İsgəndərlə qohumluq əlaqələri yaratmış Atropat, ərəblərə, iranlılara, xəzərlərə qarşı vuruşmuş Cavanşir olub. Əlavə etmişdi ki, bizim ən qüdrətli sülalələrimizdən olan Atabəylər dövlət qurub, bu şəcərənin Şəmsəddin Eldəgiz kimi mərd, tədbirli oğlu varmış, sonra Qara Yusifin önündə getdiyi Qaraqoyunlu dövləti, Uzun Həsənin idarə etdiyi Ağqoyunlu dövləti gəlib, tarix növbəni yenilməz sərkərdə və dövlət xadimi Şah İsmayıl Xətaiyə ötürüb.

Və Teymur müəllim sidq ürəkdən təsdiqləyirdi (özü "bütün cəsarətimlə deyə bilərəm" söyləyirdi) ki, Heydər Əliyev bunların heç birinə bənzəmir və onların hamısı birlikdə bütöv, güclü Azərbaycan naminə Heydər Əliyevin gördüyü işi görməyib. Həyatını tariximizi və xalqın milli özünəməxsusluqlarını öyrənməyə həsr etmiş alim Heydər Əliyevin bütün universal bilik və qabiliyyətlərinin fövqündə bu nadir şəxsiyyətin əsas ixtisası və missiyasını müəyyənləşdirməyə cəhd edərkən onu "xalqşünas" adlandırmışdı.

O vaxt da bu ifadəni bəyənmişdim, indi də bu sözün Heydər Əliyevə aid edilərkən tam yerindəliyi, sərrast olması qənaətindəyəm. Xalqşünaslıq xalqı yaxşı tanımaq, yurdun və elin dəyərlərinə dərindən aşina olmaqdır. Heydər Əliyev Azərbaycan dilini çox sevirdi və Azərbaycan dili Heydər Əliyevin ifasında tamam ayrı bir səslənişdə zühur edir, daha cazibədar olurdu. Heydər Əliyevin xalqın ürəyində özünə yer tapmasının əsas səbəblərindən biri məhz onun ünsiyyət qura bilmək, qılıqlı olmaq, hər kəsin qəlbinə yol tapa bilmək qabiliyyəti idi.

Teymur müəllim Heydər Əliyevin insanlarla təmas qurmasının, kimlərisə yaxına buraxıb, kimlərləsə məsafə saxlamasının da gizlincini açaraq demişdi ki, öndərlə bir neçə dəfə görüşüb və onun insanlara münasibətində mühüm bir özəlliyi tutub: "O, qarşınsındakı adamı tanıyanda, görəndə ki, bu şəxs səmimidir, saf ziyalıdır, dövlətçiliyimizə sadiq, xalqımızı sevən adamdır, Heydər Əliyevdə bir uşaq təbiəti əmələ gələr, qarşısındakını heyranlıqla dinləməyə hazır olardı. Amma əks cəhəti də vardı ki, ünsiyyətə girdiyinin millətə xəyanət edən, etibarsız olduğunu bircə baxışı ilə tutunca sifəti çönərdi, ümumən o, xalqın qəlbini oxumaqda, bir başqasının ürəyində özünə yuva qurmaqda nadir, bənzərsiz adam idi".



...Azərbaycan xalqının tanıdığı, oxuduğu, sevdiyi çox kitablar var. Amma bu nəhayətsiz karvandakı əsərlərdən ikisi millətimiz üçün ən müqəddəs masaüstü Kitablardır. Biri Əsas Qanunumuz, biri də Quran.

Və islami dəyərlərə Heydər Əliyev ömrü boyu çox dərin rəğbət bəsləmişdi. Hətta sovet dönəmində, kommunist rejiminin ən öndəgedən rəhbərlərindən biri olduğu zamanda da, özünün etiraf etdiyi kimi, həmişə o ideallar onun içərisində yaşayırdı. Təbii ki, sovet dönəmində bir kommunistin, xüsusən də partiya işi sahəsində yüksək vəzifə tutan şəxsin belə hisslərini evdən qırağa çıxarmaq imkanı yox idi. Amma məgər Sovet İttifaqı boyunca allahsızlığı özünə şüar etmiş Kommunist Partiyasının sıralarındakı cibində partiya bileti daşıyan və müəyyən vəzifələr tutan milyonlarla müsəlmanın hamısımı rəsmi ideologiyanın tələb etdiyi kimi ateist idi? Üzdə bəli, özlərini o cür göstərməyə məcbur idilər, ancaq o cəmiyyətin içərisində yaşayırdıq, insanları tanıyırdıq, bilirdik, görürdük axı əksəriyyət qəlbində din-imanına sədaqətlidir, hər kəsin daxilində bir Allah xofu və öz dininə inam var. Soyadı da, atasının və özünün adı da İslam müqəddəsləri ilə bağlı olan Heydər Əliyev də, təbii, istisna deyildi və onun alın yazısında İslam ziyarətgahlarının ən alisində namaz qılmaq varmış. Qismət oldu ki, yeni müstəqillik dövründə, təzədən hakimiyyətə qayıdandan sonra ilk səfərlərindən birini Səudiyyə Ərəbistanına etsin, Məkkədə Zəmzəm quyusundan su içsin, Mədinədə Peyğəmbər məscidinin qarşısında  xəyala dalsın.

Mənə də həmin səfərdə öndəri müşayiət edən dəstəyə qoşulmaq xoşbəxtliyi nəsib olmuşdu. Kim o qutsal məkanlarda olubsa bilir. Orada istər-istəməz özün olursan, sanki ilahi bir dalğa səndən keçir, Allah hüzurunda dayandığını hiss edərək daha artıq təbiiləşirsən, məhz Mövlananın söylədiyi sayaq, göründüyün kimi deyil, olduğun kimi görünməyə başlayırsan. Səudiyyə Ərəbistanına səfər ərzində mənə Heydər Əliyevi lap yaxın məsafədən müşahidə etmək fürsəti yaranmışdı və onun davranışlarını, söylədiklərini izlədikcə əmin olurdum ki, bu insanın varlığında dinimizə, dini dəyərlərimizə, dini dəyərlərin əsrlərcə Azərbaycan insanına aşıladığı əxlaqi meyarlara nə qədər dərin məhəbbət var.

Dəstəmiz böyük idi, ancaq barmaqla sayılacaq qədər az adama həmin səfərdə Heydər Əliev və ailəsi ilə birgə Həcər ül-əsvədin – Qara Daşın yerləşdiyi Kəbə evinə daxil olmaq imkanı çatdı. Ziyarətin bu həyəcanlı mərhələsindən sonra Heydər Əliyev televiziyalar üçün müsahibə verirdi, ancaq bu, bir müsahibədən daha artıq böyük dövlət adamının Pərvərdigara duası kimi səslənirdi: "Hər bir müsəlman üçün bura ən müqəddəs ziyarətgahdır. Hər bir müsəlmanın ömür vaxtı arzusu, niyyəti olur ki, buranı ziyarət etsin. Şübhəsiz ki, hamıya bu, nəsib olmur, qismət olmur. Ancaq bu gün bizə bu qismət olubdur. Dünyada insanın çox arzuları olur, çox istəkləri olur, çox niyyətləri olur. Hansı yerinə yetirsə, ona xoşbəxtlik gətirir. Ancaq bundan yüksək arzu ola bilməz və bu arzu bizim üçün nəsib oldu. Buna biz nail olduq. Biz xoşbəxtik, öz müqəddəs dinimizə bundan sonra da sadiq olacağıq və güman edirəm ki, bizim başqa arzularımız da müstəqil Azərbaycanın bu bəladan xilas olması, Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması, müharibəyə son qoyulması arzumuz da yerinə yetəcəkdir. Əgər Allah bizim bu arzumuzu yerinə yetirməyə imkan veribsə, demək, bu, arzularımızın da yerinə yetirilməsinə kömək edəcək".

Bizim bu səfərimiz 1994-cü ildə baş vermişdi və Heydər Əliyevin bütün millətin arzusu olan həmin duası 26 il sonra yerinə yetdi.

2005-ci ilin 11 dekabrında, unudulmaz Heydər Əliyevlə ayrılığın ikinci ilində masamız arxasında əyləşənlərdən din məsələlərinə ən dərindən vaqif Qafqaz Müsəlmanları İdarəsi Dini Şurasının da üzvü olan akademik Vasim Məmmədəliyev idi və söhbət bu yerə çatanda müdaxilə etmişdi və Ulu Öndərin inanclı bir insan olması ilə bağlı maraqlı müşahidələrini bölüşmüşdü. Heydər Əliyevin hələ sovet dövründə, ateizm siyasətinin tüğyan etdiyi çağlarda incə din siyasəti aparması məsələsinə toxunaraq demişdi ki, o zaman sovet dövləti miqyasında allahsızlıq siyasəti həyata keçirilirdi və bu siyasətin əsas hədəfi də İslam idi.

Vasim müəllim bu vacib məqama diqqəti səbəbsiz yönəltmirdi. Baxmayaraq ki, ümumiyyətlə, ateizm dövlətin ideoloji xətti idi, amma hətta burada da ayrıseçkilik müşahidə edilməkdəydi. İslama olan həmlə başqa dinlərə olan hücumlardan dəfələrlə şiddətli idi. İmperiya siyasəti elə qurulmuş və elə yönəldilirdi ki, başlıca hədəf İslam idi, SSRİ-də hakim xalqın bağlı olduğu xaçpərəstliyin ibadətgahına da, sitayişçisinə də özününkü sayaraq daha yumşaq yanaşma vardı və bu, Orta Asiyada, yaxud Azərbaycandakı müəslmanlara münasibətlə kəskin fərqli idi. Bu elə bariz idi ki, sadə insanlara da görünürdü, amma Heydər Əliyev əvvəlcə Dövlət Təhlükəsizlik Komitəsində, sonralarsa respublikanın partiya rəhbərliyində çalışarkən, söz yox, belə yanaşmaların alt qatından, məxfi tərəflərindən də xəbərdar idi. Sənə, millətinə əks mahiyyətdən xəbərdar olduğun halda özün də həmin xətti yürütməyə borcluykən manqurtlaşmamış insanın daxilində etiraz duyğusunun yaranması labüddür.

Heydər Əliyevinsə öz milli ruhu və çöhrəsini dövlət işində olduğu bütün illərdə qoruyub-saxlaya bilməsi mənə yalnız üzdə olan sübutlardan, ayrı-ayrı xatirələrdən bəlli deyil. Buna kənar gözlərə qapalı qalan Dövlət Təhlükəsizlik Komitəsi və Mərkəzi Komitəsi Bürosunun arxivlərdəki "məxfi" qrifli qovluqlardakı heyrətamiz cəsarət nümunəsi olan sənədləri araşdırarkən yəqin kəsilmişəm.

Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu dövrdə, o zaman adı Zaqafqaziya Müsəlmanları İdarəsi kimi gedən dini qurumun nüfuzunu, çəkisini artırmaqçün xeyli iş gördüyünü söyləyən Vasim müəllim Heydər Əliyevin dinimizə belə münasibətinin kökünün ailədən gəlməsi qənaətində idi: "Heydər Əliyevin doğulduğu ailə inanclı, dindar bir ocaq idi. Özü deyirdi ki, anam da, atam da namaz qılardılar. Atasının adı "Əlirza" sözünün mənası nədir? Tək kəlmədə iki imamımızın adı qovuşub – birinci imamımız həzrət Əlinin, səkkizinci imamımız İmam Rzanın adları. Bəs özünün adı – Heydər, bu da həzrət Əlinin ləqəblərindən biridir. Heydər – kükrəyən, döyüş vaxtı qızğın şirə deyirlər. Ailədəki başqa adları, qardaşlarını götürək – Həsən, Hüseyn, Cəlal. Yəni bunların hamısı "Quran"la əlaqədar adlardır. Bu əlamətlərin hər biri ailənin kökünün dinə bağlı olduğunu göstərir. Mən bir anlığa təsəvvür edirəm ki, Heydər Əliyev o qara daşı, Kəbədəki qara daşı, – siz bir yerdə olmuşunuz, – nə cür məhəbbətlə qucaqlayıb, öpüb, orada Azərbaycan xalqı üçün necə səmimiyyətlə dualar edib. Mən o ziyarəti ekrandan izləmişəm. Orada sifətində elə səmimi ifadə vardı, elə ilahi ovqat hiss olunurdu ki, doğrudan da, bu insanın ömrü boyu Məkkəyə ziyarət etmək arzusunda olduğunu duyurdun. Ateizmin tüğyan etdiyi şəraitdə bu, mümkün olmayıbmış, dövlətimiz müstəqil olandan, xalq tərəfindən ölkəyə rəhbər seçiləndən az sonra Heydər Əliyev, bu nəhəng şəxsiyyət ilk xarici səfərlərindən birini məhz çoxdankı arzusunu yerinə yetirməyə həsr edib, Allahın müqəddəs Evinə ziyarətə gedib, orada illərdən bəri qəlbində gəzdirdiyi imanı, inamı xoşbəxt məmnunluqla dilə gətirib".

Söz-sözü çəkmişdi və mən o axşam həmin Məkkə ziyarəti əsnasında baş vermiş bir əhvalatı danışmışdım. Orada Səfa və Mərvə adlı iki təpə var ki, ziyarətin bir şərti də yeddi dəfə bu təpələrin ətrafında təvaf etməkdir. Bir dövrə vurduq, ikinci dəfə dolandıq, üçüncü dəfə yenə həmin çevrəvurmanı təkrar edəndə Şeyx Allahşükür Paşazadə Heydər Əliyevə üz tutdu ki, cənab Prezident, burada arada dayanıb dincəlmək, sonra dövrəvurmanı davam etdirmək mümkündür. Çünki ziyarətə gələnlərin arasında fiziki cəhətdən zəiflər, hətta şikəst insanlar da olur, onlar üçün də şərait yaradılıb, təkərli arabalar var, ondan da istifadə edə bilərlər. Elə biz də arada əyləşib nəfəsimizi dərə bilərik, şəriət bunu məqbul hesab edir. Şeyx belə deyincə dəstəmizdəki yaşlı ziyarətçilərdən bir neçə nəfəri ayaq saxladı, Ziya Bünyadov əyləşdi.

Heydər Əliyevsə Allahşükür Paşazadəyə sarı çevrilərək ona xas səmimi zarafat tərzində təbəssümlə dedi: "Görünür, şeyx özü yorulub, ona görə belə deyir. Kim istəyir otursun, mənsə axıracan dayanmadan gedəcəyəm".

Heydər Əliyevin şuxluq saçan bu sözlərinə hamı gülüşdü, onun zərif zarafatı bir an içində hamının əhvalını durultdu, hər kəs şövqlə növbəti dövrələri vurmağa yönəldi. Məsafə isə, həqiqətən, qısa deyildi və şeyx də həmin təklifi səbəbsiz etməmişdi.

Əslində, bu hadisənin özündə də bir rəmzilik vardı. Bu, Heydər Əliyevin xarakteri idi, o, keçdiyi istənilən yolda məqsədə doğru sona qədər gedirdi. O da insan idi, hamımız kimi, əlbəttə, o da yorulurdu. Unutmamışıq ki – saatlarla auditoriyalar qarşısında dayanırdı, izdihamların önündə çıxış edirdi. Bəzən nitqləri saatlarla uzana da bilirdi. Amma əvvəldən-sonacan şax, farağat dayanaraq danışırdı. Hər kəs də heyrətlənirdi ki, bəyəm bu insan yorulmur? Əlbəttə yorulurdu, hər adamın dözümünün, taqətinin bəlli hüdudu var. Amma Heydər Əliyevdə iradə o qədər güclü idi ki, lazım gələndə yorulmaq hissini də kənara qova bilirdi. Həm də Heydər Əliyev bütün ömrü boyu belə olmuşdu.

Amma orada – Məkkə ziyarətində o təvaf mərasimi başa çatanda Heydər Əliyevin yorğunluqdan əsər-əlamət olmayan, sanki bir az da işıqlanmış çöhrəsinə baxarkən düşüncəmdən bir ayrı ehtimal keçdi. Həmin gün bir belə məsafə qət edəndən sonra da onun bunca gümrah qalmasının gizlinci eşqdə idi. İllərcə ürəyində bəslədiyi diləyinə, nəhayət ki, yetişməsi elə bil ona qanad vermişdi, sanki bu yeddi dövretmə heç addımlamaq deyilmiş, iki müqəddəsləşmiş təpənin ətrafına pərvanə kimi uçaraq dolanmaqmış.

Ürəyimdən, beynimdən keçən bu mülahizələrimi 2005-in dekabrında, o qiymətli insanların əhatəsindəykən söyləmişdim də və Vasim Məmmədəliyev dərhal son sözlərimdən tutmuşdu: "Çox gözəl deyirsən, həqiqətən, bu, bir ilahi eşq idi. Axı bunu elə fərziyyə kimi demirəm. O vaxt, həmin ziyarət bitəndə rəhmətlik Heydər Əliyev fəxri qonaqlar kitabında təəssüratını da yazıb. Bunlar nəşr də olunub, kitablara da düşüb. Yazır ki, nəhayət, mən öz arzuma çatdım. Yəni o ilahi istəyimə yetişdim, Allahın Evini ziyarət etdim və Allahın böyüklüyünü burada bir daha dərk edərək bu böyüklüyə qane oldum. Bu sözlər onun illərcə daxilən gəzdirdiyi imana ən gözəl dəlalətdir".

İbadətgahlara, ziyarət yerlərinə, tapınaqlara insanlarımız həmişə inamla, ümidlə yollanıb. Zəmanələr olub ki, pirlər, məscidlər dağıdılıb, ya dağıdılmayanları da bir başqa şəkildə alçaldılaraq anbarlara döndərilib. Ancaq insanlar iriliyindən-xırdalığından asılı olmayaraq həmin qutsal məskənlərə daim Allah Evi kimi baxıb, o yerlərdə ruhi asayiş tapıblar.

Yüksək mənəviyyat sahibi Heydər Əliyevin ictimai vicdanımız qarşısında bir xidməti də bu oldu ki, ziyarətgahlarımıza, ibadətgahlarımıza xüsusi diqqət və nəvazişlə yanaşdı, onların ömrünə ömür artırmaqçün əlindən gələni etdi.

Həm də qabil rəssam olan böyük vətənpərvər, Azərbaycan ziyalılığının və XX yüzilin başlanğıcında millət quruculuğu səmtində çalışanların ən fədakar simalarından olmuş Əli bəy Hüseynzadənin fırçaya aldıqları arasında Bibiheybət məscidinin rəsmi varmış və günlərin birində maddi sıxıntılar vadar edir ki, həmin tablonu satışa çıxarsın. Bu lövhənin satışa qoyulduğu dükana girmiş Bakıdakı ingilis konsulu rəsmi görüncə bəyənir, beh də verir ki, az sonra gəlib aparacaqlar. İş elə gətirir ki, təsadüfən Hacı Zeynalabdin Tağıyev bu sövdələşmədən xəbər tutur və ləngimədən rəsm üçün elan edilmiş məbləği ödəyərək deyir: "Rəva görmək olmaz ki, Azərbaycanın sərvəti olan bir əsər buradan bir əcnəbi tərəfindən alınıb kənara aparılsın".

Hacının bu xeyirxahlığı illər sonra gerçəkləşəcək başqa bir nəciblikdən ötrü təmələ çevrilir.

Şura hökuməti Bakıya kirli qədəmlərini basanda ilk dağıdıb məhv etdiklərindən biri də Bibiheybət məscidi olur. Guya fəxr olunmalı bir iş görürlərmiş kimi gələcəkdə özlərini ifşa edəcək əşya-yi dəlilə çevriləcək bir kinoxronika da çəkilblər. Bibiheybət məscidinin uçurulmasını əks etdirən o kadrlara baxırkən indi də ürək ağrıyır.

Heydər Əliyevin millət qarşısında daha bir ləyaqətli işi də bu oldu ki, zamanında xalqın mənəvi dayaqlarını laxlatmağa yönələn siyasət aparan, o gedişatda Bibiheybət məscidi kimi bir memarlıq inci və ruh abidəsini dağıdanların xətasını düzəltdi. Məscidi elə öz tarixi yerindəcə əvvəlkindən də əzəmətli bir görkəmdə ucaltdı. Və bu məqamda tarixdəki nəcibliklər səsləşdi. Əli bəy Hüseynzadənin XX əsrin əvvəlində çəkdiyi rəsm həmin yüzilliyin sonunda Bibiheybət məscidinin bərpa edilməsində dada yetdi.

...Heydər Əliyevin zərbülməsələ çevrilmiş deyişidir ki, Azərbaycan dünyaya Günəş kimi parlayacaqdır.

Bu elə istəkdir ki, böyüklü-kiçikli hər azərbaycanlının könlündə həmişə var və bütün gələcəklərdə də belə olacaq. Lakin bu sözləri demiş Heydər Əliyev sadəcə arzulamır, ümid bəsləmir, Azərbaycanın həqiqətən dünyanın hər nöqtəsindən görünən bir Günəş kimi parlaması üçün gecə-gündüz çalışırdı.

Azərbaycan tarixən dözümlülüyün, həmrəy birgəyaşayışın, ən müxtəlif dillərdə danışan və fərqli dinlərə tapınan insanlara mehriban köksündə səxavətlə yerayırmanın misilsiz meydanı olub. Əsrlər öncə bunun məhz belə olmasının aynası İçəri şəhərimizdir. Yüzillər qabaq qala divarları arasında məscid də, kilsə də, atəşpərəst məbədi də yanaşı olub və bu ənənə nəsil-nəsil ötürülüb. XX əsrin dünyanı dəyişən təlatümlü hadisələrlə daşan son çərəyində dünyanın çox yerində dinlər arasında ədavət toxumu səpənlər, bu qızışdırıcılıqla bir çox qanlı qarşıdurmalara rəvac verənlər də oldu. Heydər Əliyev yeni müstəqillik dönəmində Azərbaycan Respublikasına rəhbərliyinin lap başlanğıcından bu həssas mövzunu daim diqqətində saxladı, macal vermədi ki, əsrlərcə qazandığımız və daim öyündüyümüz tolerantlıq təcrübəsini naşı, ya fitnəkar insanlar zədələsinlər. Siyasətdə balanslaşdırılmış bir xətt tutaraq Azərbaycan üçün beynəlxalq əlaqələrin ən sərfəli və ağıllı düsturunu yaradan Heydər Əliyev eyni yanaşmanı inanclar şəbəkəsinə də tətbiq etdi. Özünün çox sərrast ifadəsi vardı. Deyirdi ki, biz Sirat körpüsü kimi nazik bir yolla irəliləyirik. Sağa və sola atılan yanlış bir addım, istənilən büdrəmə uçuruma yuvarlanmağa səbəb ola bilər.

Siyasətdə də, ölkədəki din siyasətində də qızıl ortanı meyar olaraq götürməsi bir tərəfdən Heydər Əliyevin siyasət qrossmeysteri olmasından irəli gəlirdisə, ölçülü-biçili xətt tutmaq diplomatiyasının fövqəladə peşəkarı olmasından irəli gəlirdisə, digər yandan, bu, elə həm də Öndərin təbiətindən doğurdu, daxilindəki demokratizmin təzahürü idi.

O, dünyaca məşhur İslam liderləri ilə əl tutanda da, Roma Papası ilə bir masa arxasında əyləşəndə də eyni dərəcədə səmimi, həmsöhbətləri ilə eyni dərəcədə məhrəm idi. Və bunu əlavə sözlərlə sübuta yetirməyə zərurət yox idi. Çünki müdrikliklə aparılan siyasətin, görülən işlərin sayəsində Azərbaycan məhz bu məziyyəti ilə dünyanın hər guşəsindən qibtəoyadıcı ucalığı ilə görünürdü.

O gün – Heydər Əliyev həyatda olanda görünürdü, indi – bu müstəsna şəxsiyyətlə ayrılığın üstünə illər gəldikcə, müasir Azərbaycanın qurucusunun əbədi ömrünün ikinci əsri başlanandan sonra da aydınlığı ilə duyulur. Heydər Əliyevin uca boyu Vaxtın bütün gələcəklərindən də görünəcək, hər dəfə də onun peyğəmbərcə dəqiq söylədiyi "Mən həmişə Azərbaycanda olacağam" gerçəyini təsdiq edəcək!

# İyirminci əsrdə geriyə baxış: Şəxsiyyət və peşəkarlıq

**"Azerbaijan International" jurnalının baş redaktoru Betti Bleyerin 5 dekabr 1999-cu ildə – istirahət günündə iş başında olan Heydər Əliyevdən aldığı müsahibə həmin jurnalın 1999-cu il saylarında ingilis dilində dərc edilib. Müsahibənin aktuallığını nəzərə alaraq ilk dəfə ingiliscədən Azərbaycan dilinə tərcüməsini oxuculara təqdim edirik.**



**Betti Bleyer:** Mən sizdən əksər jurnalistlərin siyasi və regional hadisələr haqqında soruşduğu ənənəvi sualları deyil, daha çox şəxsi həyatınız, tərbiyəniz, bu əsrin yarısından çoxuna rəhbərlik etdiyiniz xalqınız haqqında soruşmaq istərdim.

**Heydər Əliyev:** Buyurun, başlayaq.

**Betti Bleyer:** Gəlin, uşaqlıqda sizin həyatınızı və karyeranızı formalaşdıran bəzi maraqlarınızdan, həyat təcrübələrinizdən başlayaq.

**Heydər Əliyev:** Mən uşaq olanda nə vaxtsa böyük bir lider olmaq haqqında fikirləşmirdim. Düşünmürdüm ki, siyasətlə məşğul olacağam və bir dövlət xadiminə çevriləcəyəm. Mən hətta gələcək haqqında fikirləşmirdim. Sadəcə, məktəbdə oxuyanda var gücümlə bəzi əsas biliklərə yiyələnməyə və əla qiymətlər almağa çalışırdım. Təhsilimə gəlincə isə, deyə bilərəm ki, məni tamamilə intizama öyrətdilər.

Atama və anama gəldikdə, onlar mənim həyatıma hərtərəfli təsir etdilər. Anam yeddi övladı tərbiyə etdi. Atam lokomotiv sürücüsü kimi dəmir yolunda işləyirdi. Ancaq onlar çox gözəl insani keyfiyyətlərə malik idilər. Doğrudur, bizim həyat şəraitimiz çox çətin idi, ancaq mən bizim xoşbəxt olmadığımızı xatırlaya bilmirəm. Fikirləşirdik ki, bizim vəziyyətimiz və şəraitimiz Allah tərəfindən bizə verilib və biz bu şəraitimizi olduğu kimi qəbul edirdik.

Sovet dövründə biz – uşaqlar bacardığımız müxtəlif fəaliyyətlərlə məşğul olmaq üçün Pionerlər Evinə gedərdik. Mən orada çox fəal idim. Şahmat oynamağa və musiqi dərslərində iştirak etməyə başladım. Atam kasıb idi, mənə tar [ənənəvi simli alət] almağa imkanı olmadı, ona görə də Pionerlər Evinə getdim və orada məşq etdim.

Lakin mənim ən böyük marağım teatra idi. Baxmayaraq ki, böyüdüyüm Naxçıvan – kiçik bir müsəlman şəhəri, əyalət idi, ancaq orada çox yüksək səviyyəli mədəniyyət var idi. Bizim teatr ənənəmizin yüz ildən artıq yaşı var. Siz təsəvvür edə bilərsinizmi ki, çox keçmişdə orada teatr ənənəsi vardı? Bu tamamilə böyük bir nailiyyət idi. Məsələn, Naxçıvanın cənubundan təxminən üç saatlıq məsafədə olan, əsasən azərbaycanlıların məskunlaşdığı böyük İran şəhəri Təbrizin bu günə kimi hələ də bir teatrı yoxdur. İndiyə kimi, Naxçıvan bu ənənəni davam etdirir. Başqa sözlə desək, baxmayaraq ki, orada sizin ziyalı adlandırdığınız cəmi bir neçə adam var idi, onlar teatrı yaratmışdılar. Mən 12 və 13 yaşımda teatra çox gedərdim.

Bəzən teatra bilet almağa pulum olmurdu, lakin uşaq olduğum üçün biletsiz içəri daxil olmağıma icazə verirdilər. Bu mənim üçün böyük bir hadisə idi. Belə hadisələr uşaqlıq dövrümün ən əziz xatirələrindəndir. Naxçıvan teatrının mənim üzərimdə dərin təsiri vardı. Çox keçmədi, mən Pionerlər Evində teatrla məşğul olmağa başladım. Bizim klubumuzun rəhbəri Naxçıvan teatrının aparıcı aktyorlarından biri idi.

Bir müddət sonra, mənə bir neçə əsas rol tapşırıldı. Məsələn, Azərbaycan teatrının banisi Mirzə Fətəli Axundzadə ölkəmizdə ilk dram əsərini yazmışdı. Onun "Sərgüzəşti vəziri-xani-Lənkəran" əsəri var. Bu yaxınlarda haradasa qəzetlərdən oxudum ki, bu əsər yenə də teatrda səhnəyə qoyulur, lakin biz onu səhnələşdirəndə mən baş rolu sona qədər oynadım. Əlbəttə, biz bütövlükdə əsəri tam şəkildə oynaya bilməzdik – yalnız iki və ya üç hissəni oynadıq. Mənim onda 14, yaxud 15 yaşım olardı. Sonra biz iki pərdədə "Hamlet"i səhnəyə qoyduq. Mən Hamleti oynadım.

**Betti Bleyer:** Yəqin ki, Azərbaycanca?

**Heydər Əliyev:** Bəli, "Hamlet" əsəri Azərbaycan dilinə tərcümə edilmişdi. Mən ingiliscə danışmırdım. Naxçıvanda o dövürdə heç kim ingilis dilini bilmirdi. Mən həmçinin çox yaxşı rəsm çəkməyi bacarırdım və rəssamlığa başladım. Eskizlərim orta məktəbdə təşkil olunan müsabiqələrdə həmişə birinci yeri tutardı. Ola bilsin ki, bizim ailəmizdə bir növ istedad var idi, çünki məndən böyük qardaşım rəssam oldu. Mən orta məktəbdə oxuyanda, o, Leninqrada [Sankt-Peterburq] İncəsənət İnstitutunda təhsil almağa getdi. O, tətillərdə evə gələndə təbiət mənzələrinin rəsmini çəkərdi. Mən də ondan əl çəkməzdim və beləcə rəsmlər çəkməyə başladım. Gördüm ki, rəsm çəkməyi də olduqca yaxşı bacarıram. Beləliklə, orta məktəbi bitirənə kimi mən rəssam olmağı düşünürdüm. Ancaq o vaxt Azərbaycanda İncəsənət İnstitutu yox idi, beləliklə, gələcəkdə təhsil almaq və təcrübə qazanmaq üçün mənim başqa yolum olmadı. On altı yaşımda Naxçıvanı tərk etdim və Bakıya gəldim.

**Betti Bleyer:** O zaman belə bir addım atmaq qeyri-adi hal idi?

**Heydər Əliyev:** Əlbəttə. Hər şeydən əvvəl, ona görə ki, Bakı ilə Naxçıvan arasındakı məsafə də çox uzaq idi. Üç gün qatarla yol getməli idin, çünki Naxçıvanla Bakı arasında birbaşa hərəkət edən qatar yox idi. İrəvana getməliydin, oradan Tbilisiyə və sonra qatarları dəyişib Bakıya getməli olurdun. Mən çox vaxt tətillərdə dəmiryol stansiyalarında yatmışam.

**Betti Bleyer:** Kim bu həyat hekayəsinə inana bilər?

**Heydər Əliyev:** Bəli. Bu, həqiqətdir. Sonra mən Bakıya gəldim və universitetdə memarlıq ixtisasında təhsil aldım.

**Betti Bleyer:** Siz Bakıya tək gəldiniz? Ailəniz sizi müşayiət etdi?

**Heydər Əliyev:** Tək özüm. Tətillərdə Naxçıvana qayıdardım. Mən həmişə müstəqil olmuşam.

**Betti Bleyer:** Niyə siz Naxçıvanı tərk edib Bakıya gəldiniz?

**Heydər Əliyev:** Çünki Naxçıvanın universiteti yox idi və mən təhsilimi davam etdirmək istəyirdim, qardaşım o zaman Bakıda yaşayırdı. O, alim oldu və Milli Elmlər Akademiyasında işləyirdi. Mən memarlıqla maraqlanırdım və arxitekturanı çox sevirdim. Mən memar olmaq üçün təhsil almağı planlaşdırmışdım. Başqa bir məsələni mütləq yada salmalıyam. Biz Naxçıvanda Azərbaycan dilində təhsil almışdıq, lakin Bakıda universitetdə memarlıq ancaq rus dilində öyrədilirdi. O vaxt professorların hamısı Rusiyadan gəlmişdi. Mən rusca çox pis danışırdım. Bu, mənim üçün çox ciddi bir problem idi və qəbul olunmayacağıma görə, çox narahat idim. Ancaq böyük qardaşım təkid etdi ki, tədricən rus dilini daha yaxşı öyrənməliyəm. O vaxtlar Bakıdan kənarda rus dilində danışan çox az azərbaycanlı var idi.

Mən rus dilini tam öyrənməyə müvəffəq oldum və universitetin memarlıq fakültəsinə daxil oldum. Yataqxanada tək özüm yaşayırdım. Mənim çoxlu maddi ehtiyaclarım var idi, ona görə ki, ailəmiz çox böyük olduğundan atamın mənə pul göndərməyə imkanı yox idi. Tələbə təqaüdü almağıma baxmayaraq, bu mənim yaşayış xərclərimi ödəmək üçün kifayət etmirdi.

Qardaşım mənə Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda başqa bir iş tapmağa kömək etdi. Mən axşamlar yeni işimə gedərdim və xəritələrin surətlərini çıxarıb gecə yarısına qədər işləyərdim. Bu daha asan iş idi və mənə bir az pul qazanmaq imkanı verirdi. Bax, mən bu cür yaşayırdım.

Universitetdə mən yenidən dramla məşğul oldum. Birinci kursdan sonra, mənə yenə də bir neçə baş rollar oynamağı tapşırdılar. Teatr mənə böyük təsir etdi. Bu rolları oynamaq mənə əsərlərin daha dərin mənasını başa düşməyə kömək etdi. Bu günə qədər mən teatrı çox sevirəm.

1941-ci ildə müharibə başladı. Üçüncü kursda idim, lakin orduya çağrıldım və Milli Təhlükəsizlik Nazirliyinə göndərildim. Təxminən, bir il ərzində leytenant rütbəsi aldım. Mən təhlükəsizlik sistemində qalaraq orada 25 il çalışdım... Mən çox uğur qazandım və nəticədə mənə general rütbəsi verildi. Həmçinin o sistemdə mən çox yüksək qiymətləndirildim, çünki siyasi bilik çox vacib idi.

1969-cu ildə Azərbaycana rəhbər seçildim. Ancaq sizin ilkin sualınıza qayıdaq, başqa sözlə desək, mən gəncliyimdə hərbi və təhlükəsizlik, siyasi partiyalar və dövlət işilə məşğul olmaq niyyətində olmamışdım. Mən, sadəcə rəssam və ya memar olmaq istəmişdim. Lakin həyat məni fərqli bir yola apardı. Məlum oldu ki, mənim həmçinin digər sahələrdə də istedadım vardır, ancaq mən bu işlərə başlamamışdan əvvəl bunu bilmirdim.

**Betti Bleyer:** Məhz buna görə də siz hələ də incəsənətə belə həssassınız.

**Heydər Əliyev:** Bəli. İncəsənət mənə çox əzizdir.

**Betti Bleyer:** Musiqi, memarlıq və incəsənət.

**Heydər Əliyev:** Bəli. Mən incəsənəti çox sevirəm. Sonra mən 14 il Azərbaycanın rəhbəri oldum. Bu, təsadüfən baş vermədi, belə təcrübədən sonra Moskvaya Kremldə işləməyə təyin edildim. Əlavə edə bilərəm ki, böyük Sovet imperiyası tarixində yeganə hadisə idi ki, bir azərbaycanlı – bir müsəlman Siyasi Büroya vəzifəyə təyin olunmuşdu.

**Betti Bleyer:** Siz çoxlu qərəz və ayrı-seçkiliklə rastlaşdınızmı?

**Heydər Əliyev:** Bəli, əlbəttə, çünki mənim kimi bir şəxsin Moskvada yüksək vəzifədə olması qeyri-adi bir hal idi. Bu bir həqiqətdir ki, Moskvada Siyasi Büroda, həmçinin şovinistlər də var idi. Onlar qısqanc idilər, çünki düşünürdülər ki, ancaq ruslar yüksək vəzifələrdə olmalıdır. Xatırlayıram ki, Amerika jurnallarından birində – "Taym maqazin"də [Time Magazine] 1983, yaxud 1984-cü illərdə mənim haqqımda bir məqalə dərc olundu. Məqalədə yazılmışdı ki, Heydər Əliyev Andropovun ölümündən sonra Sovet İttifaqına başçılıq etmək üçün ən səriştəli və layiqli şəxsdir. Ancaq məqalədə qeyd olunmuşdu ki, müsəlman olduğuma görə, mənə heç vaxt Sovet İttifaqına rəhbərlik etməyə icazə verilməyəcək.

Yenidən Andrapovun və sonra Çernenkonun ölümündən sonra, Qərb mətbuatında mənim Sovet İttifaqına rəhbərlik etmək üçün çox qiymətli və layiqli namizəd olduğumla bağlı yazılar – bəzi məqalələr dərc olundu. Həmin məqalələr, hətta mənə qarşı olan qısqanclığı daha da alovlandırdı. Elə gücləndirdi ki, 1987-ci ildə Siyasi bürodan istefa vermək məcburiyyətində qaldım.

Mənim xatırlayacağım daha bir jurnal məqaləsi vardı. Bu Amerikanın jurnalı idi. Jurnalda yazılmışdı, (Mən həmin sitatı rus dilində təkrar edəcəm). "Siyasi büronun yuxulu üzvləri arasında Heydər Əliyev Hollivud ulduzuna bənzəyir". Bax, mən siyasətlə məşğul olmağa bu cür başladım.

Müəyyən etmək çox çətindir ki, uşaqlıqda xüsusi nəsə baş verib və bu, məni siyasətçi olmağa məcbur edib. Ən əsası bu idi ki, mən çox gərgin çalışırdım. Görürsünüz, siz mənimlə bu gün–bazar günündə görüşürsünüz. Heç kim nə Amerikada, nə də Moskvada bazar günləri işləmir. Ancaq burada, mənim iş yerimdə mən özümü və ətrafımda mənimlə işləyən bütün bu insanları bazar günü işləməyə məcbur edirəm.

**Betti Bleyer:** İcazə verin, sizdən Sovet İttifaqının süqutu haqqında soruşum. Mənə çox maraqlıdır ki, siz bunun baş verməsini gözləyirdinizmi?

**Heydər Əliyev:** Düzünü desəm, bu sualı bundan əvvəl də dəfələrlə mənə veriblər. 1987–1988-ci illər ərzində mən artıq hiss etdim ki, Sovet İttifaqı dağılmağa doğru gedir. Mən 1987-ci ildə istefa verəndən sonra, üç il (1988–1990) Moskvada evdə oldum və işləmədim. Real yanaşsaq, az miqdarda təqaüdümlə yaşayırdım. Övladlarım daha gənc idi, nəvələrim isə çox kiçik idi. Bu elə bir vaxt idi ki, mənim hadisələri daha diqqətlə izləmək imkanım oldu. Əmin oldum ki, Sovet İttifaqı süqut ərəfəsindədir. Lakin sizə həqiqəti deyim, heç vaxt təsəvvür etməzdim ki, Sovet İttifaqı belə tez süqut edəcək – İttifaq həqiqətən gecəyarısı dağıldı.

Məncə, mənim həyatım iki hissəyə bölünüb. Birinci mərhələyə 1990-cı ilə qədərki fəaliyyətim daxildir. Mən bu haqda artıq qısaca danışdım – necə təhsil aldım, işə başladım və nəticədə Siyasi Büroda yüksək bir vəzifəyə irəli çəkildim. İkinci mərhələyə isə 1990-cı ilin [Qanlı Yanvar] hadisələri ilə başlayan, on il ərzində baş vermiş hadisələr aiddir.

Qorbaçovun və Siyasi Büronun himayədarlığı ilə Sovet İttifaqında törədilən 1990-cı ilin Qanlı Yanvar faciəsi zamanı, xüsusilə mənim ölkəmə və xalqıma qarşı olan təcavüz məni lap çox məyus etdi. Məhz ona görə, mən Kommunist Partiyasından istefa verdim. Baxmayaraq ki, daha sonra bu adi hala çevrildi, o zaman belə bir addım atmaq çox qeyri-adi hadisə idi

**Betti Bleyer:** Xüsusilə belə yüksək səviyyədə.

**Heydər Əliyev:** Əlbəttə. Xəbər bütün dünyaya yayıldı.

**Betti Bleyer:** Beləliklə, siz Kommunist Partiyası ilə əlaqələrinizi o səviyyədə kəsən ilk şəxs idiniz?

**Heydər Əliyev:** Bəli, hətta onlar məni təqib etməyə başladılar. 21 yanvarda, o vəhşiliklər başlayandan sonra, mən Moskvada Azərbaycana qarşı törədilmiş təcavüzü pisləyən, ittiham edən bir çıxış etdim. Mən Bakıya qarşı törədilmiş bu hərbi təcavüzü – Sovet höküməti və Kommunist Partiyası tərəfindən öz əhalisinə qarşı hərbi təcavüz hesab etdim. Mənim Kommunist Partiyasından istefa verməyimin səbəbinə dair bəyanatım qəzetlərdə dərc olundu. O hadisələr məni, o vaxta qədər – bütün həyatım boyu xidmət etdiyim Kommunist Partiyasına qarşı etiraz etməyə məcbur etdi.

Məsələn, 1990-cı ildən sonra mənim həyatım öz axarı ilə getmədi. Mən çoxlu çətinliklərlə üzləşdim. Dəfələrlə onlar məni devirməyə və həyatıma sui-qəsd etməyə cəhd etdilər. Ancaq Tanrı məni xilas etdi. Məsələn, mənim Qanlı Yanvar haqqındakı bəyanatımdan sonra, onlar Moskvada məni həbs etməyə cəhd etdilər. Mən 1990-cı ilin yayında böyük çətinliklə Moskvadan Azərbaycana gəlməyi bacardım.

**Betti Bleyer:** Siz mənə daha çox detalları deyə bilərsinizmi?

**Heydər Əliyev:** Çətinlik belə idi ki, mən ev dustağı idim və bütün telefonlarım dinlənilirdi, 1990-cı ildən sonra, mənim hər anım izlənilirdi. Bir neçə dəfə mən Bakıdakı qardaşıma oraya qayıtmaq istədiyimi demək üçün zəng etdim. Tanışlarımdan birini təyyarə bileti almaq üçün göndərdim, ancaq hardansa hakimiyyət orqanları bunu bildi. Liqaçov [Mərkəzi Komitənin katibi Yeqor Liqaçovu nəzərdə tutur – S.A.] mənə zəng etdi. Həmin vaxt o, Kommunist partiyasında ikinci səlahiyyətli şəxs idi. Siyasi Büronun bir neçə başqa üzvü də mənə zəng etdilər və onlar mənim Azərbaycana getməyimə mane olmağa çalışırdılar. Mən onlardan soruşdum, niyə onlar mənə deyirlər ki, Azərbaycana qayıtmağım oradakı stabilliyi poza bilər. Mən dedim ki, onların mühakimələrini başa düşə bilmirəm. Bununla yanaşı, onlar iki dəfə mənim qayıtmağıma mane oldular.

Onda, həm Moskvadakı, həm də Bakıdakı rəhbər şəxslər mənim geri qayıtmağımı istəmirdilər. 1990-cı ilin mayında, bir gün, nəhayət mən geri qayıtmağa qərar verdim. Moskvanı tərk etməmişdən bir gün əvvəl, onlar mənim yaxın tanışlarımdan birini- bir naşiri öldürdülər. Dostumun adı Xanbabayev [Əjdər Xanbabayevi nəzərdə tutur – S.A.] idi. Onlar onu öldürdülər, çünki o mənimlə birbaşa telefon əlaqəsi saxlamışdı və mən ona nə vaxt Bakıya qayıdacağımı demişdim. O, Bakıdakı ziyalıların yanına getdi və onları bir yerə topladı, beləliklə, onlar məni qarşılamaq üçün aeroporta gəlməli idilər. Həmin gecə, o, evə qayıdarkən, avtomobili saxlanılır və onun başına tapança ilə atəş açıb, öldürürlər.

Azərbaycanda rəhbərliyə yaxın olan adamlar qardaşıma bu məlumatı mənə çatdırmağını deyirlər: "Əgər Heydər Əliyev bura gələrsə, o da öldürüləcək. Beləliklə, mən Bakıya uçuşumu təxirə salmağı qərara aldım. Vəziyyəti öyrəndim və başqa şəxsin adına bilet aldım. Məni gizlincə aeroporta apardılar.

Ancaq təyyarəyə minəndə onlar mənim kim olduğumu başa düşdülər, O vaxt məni tanınmasınlar deyə, üzümü gizlədirdim. Beləliklə, mən Bakıya bu cür gəldim. Ancaq burada da onlar mənə yaşamağa icazə vermirdilər. Bakıda yalnız üç gün qaldım və sonra Naxçıvana uçdum. Orada mən üç il müddətində yaşadım. 1993-cü ildə Bakıya qayıdana qədər Naxçıvanda qaldım.

**Betti Bleyer:** O zaman bütün həyatınızı verdiyiniz bu sistem sizə üz çevirəndə, yəqin ki, özünüzü məyus hiss etmisiniz?

**Heydər Əliyev:** Çox məyus olmuşdum. Mənim ürəyimdə hələ də böyük bir yara var. Buna görə də mənim bu sistemə qarşı böyük nifrətim yarandı. Bu sistem insanları səhv şeyləri, pis şeyləri etməyə məcbur etdi.

Mən Azərbaycanın başçısı kimi burada 14 il işləmişdim. Məndən sonra rəhbərlikdə olan bütün insanlar Bakıda olduğum dövürdə mənim işçilərim olmuşdu. Hətta onlar da mənim Azərbaycana qayıtmağımı istəmədilər. Mən Bakıya gələndə, onlara zəng etməyə cəhd etdim. Mən dünyanın ən güclü dövlətlərindən birində yüksək vəzifələrdən birini tutmuş şəxs olduğuma baxmayaraq, heç kim mənimlə danışmaq istəmədi.

Mən həmin şəxs idim ki, Kommunist Partiyası binasını, indiki Prezident Aparatını inşa etdirmişdim. Bunu ona görə deyirəm ki, siz jurnalınızda binanın böyük bir şəklini verin. Onlar məni bu binanın yaxınlığına buraxmadılar. Mənim indi əyləşdiyim bu otaqda başqa insanlar otururdu. Mən buranı tərk etdikdən sonra beş və ya altı şəxs bu vəzifədə əyləşdi. Məhz ona görə də, mənim ürəyimdə ağrılı hisslər çoxdur. Ancaq mən onları unutmağa cəhd etmişəm.

Burada sizin yadda saxlamalı olduğunuz iki məqam var. Onlardan biri hakimiyyət orqanlarının gücüdür, o biri isə xalqdır. Xalq mənə olan münasibətini heç vaxt dəyişməmişdi. Ancaq bürokratiyada, burada və Moskvada mənimlə uzun illər işləyən insanlar mənə münasibətlərini dəyişdilər. Siz Parlament binasını tanıyırsınız – o binanı da mən tikdirdim. Mən burada işləyəndə və parlamentdə sessiyada iştirak edəndə, binaya daxil olanda hamı məni qarşılamaq üçün ayağa qalxardı.

Moskvadan Naxçıvana qayıdandan sonra, məni Naxçıvandan Azərbaycan parlamentinə deputat seçdilər, parlamentin sıravi deputatı. Mənim hətta Bakıda mənzilim də yox idi. Qardaşımın kiçik ikiotaqlı mənzilində yaşayırdım. Mən həmin eyni parlament binasına insanların seçdiyi, etimad göstərdiyi parlamentin üzvü kimi daxil oldum. Onlar məni görəndə, üzlərini çevirərdilər. Bəziləri uzaq gəzərdi. Mən iclas zalında əyləşməli idim və Mütəllibov isə prezident kimi orada yüksəkdə oturURdu – mənim vaxtilə yüksəltdiyim insanların hamısı da onların arasında idi. Lakin onların heç biri məni alqışlamadı. Onlar mənimlə danışmadı. Bu hallar məni incitdi. Mən yerimdən danışmaq üçün icazə istədim, lakin onlar mənə icazə vermədilər.

1991-ci ilin fevral ayı idi, Sovet İttifaqının süqutundan əvvəl Parlamentdə söz istədim və onlar mənə söz vermək istəmədilər. Buna baxmayaraq, mən tribunaya qalxdım; onlar mənim tribunada danışmağıma mane ola bilmədilər.

**Betti Bleyer:** Onda siz hələ də Kommunist Partiyasının üzvü idiniz?

**Heydər Əliyev:** Xeyr, mən Moskvada olarkən Kommunist Partiyasından artıq istefa vermişdim. Mən çıxış etdim və dedim: "Azərbaycan müstəqil olmalıdır. Sovet İttifaqı dağılır və Kommunist Partiyası hakimiyyətdən getməlidir. Bu, 10 fevral 1991-ci il oldu. Lakin onlar çıxışımı davam etməyə icazə vermədilər. Zaldakı insanlar fit çalaraq "qaydaya riayət edin" sözlərini yüksəkdən təkrarlayıb deputat hüququmdan istifadə etməyə çoxlu maneəçilik yaratdılar. Bu haqda bir film də var. İclas zalında əyləşən insanların 95 faizi o adamlar idi ki, onları mən irəli çəkmişdim. Ancaq Bakının küçələri ilə gedəndə, 100 metr ancaq gəzə bilirdim, görürdüm ki, minlərlə insan mənim ardımca gəlməyə başlayır.

Bunu ona görə deyirəm ki, xalq mənə münasibətini heç vaxt dəyişmir. Azərbaycan 1993-cü ildə yenidən iğtişaşla üzləşəndə insanlar ümidlərini mənə bağlayıb, üzlərini yenidən mənə tutdular. Bizim problemlərimizi həll etmək üçün çiyinlərinə hökumətin məsuliyyətini götürəcək başqa heç bir şəxs yox idi. Buna görə də onlar məni Naxçıvandan buraya–Bakıya gətirdilər…

**Betti Bleyer:** Siz sosialist sistemində və indi kapitalist sistemində ən yüksək vəzifələrdən birini tutan dünyada nadir şəxslərdən biri olmusunuz. Hər iki sistemi necə qiymətləndirərdiniz? Və hər ikisinin nöqsanları hansılardır?

**Heydər Əliyev:** Siz bilirsiniz ki, bu, çox mürəkkəb bir sualdır. Mən buna cavab vermək üçün, ən azı, yarım saat sərf etməliyəm. İcazə verin, deyim ki, sosialist sistemi insanlara çoxlu nailiyyət və müvəffəqiyyət gətirdi. Məsələn, 1920-ci illərdə Azərbaycanda ən azı insanların 90 faizi savadsız idi. Sovet sisteminin nəticəsində, insanlar nisbətən qısa vaxt ərzində təhsil almaq imkanına malik oldular. 1919-cu ildə [Sovet hakimiyyətinin qurulmasından əvvəl] Bakı Dövlət Universitetinin əsası qoyuldu. Fəxr edirəm ki, mən də o universitetin tarix fakültəsini bitirmişəm. Sovet dövründə daha çox universitetlər yaradıldı. Çoxlu məktəblər, xəstəxanalar, mədəni mərkəzlər tikildi. Azərbaycanın iqtisadi potensialı inkişaf etdirildi – fabriklər, kanallar, yollar salındı. Biz bu şeyləri unutmamalıyıq. Biz onları dana bilmərik. Doğrudur, bu sistem çoxlu qantökmənin nəticəsində yaradıldı. Kommunist Partiyası çoxlu repressiya və qırğın həyata keçirdi. Bununla bərabər, cəmiyyət məhv olmadı.

Nəticədə 10 il əvvəl Sovet İttifaqının dağılmasına baxmayaraq, insanlar xüsusilə elm, təhsil, mədəniyyət və səhiyyə sahələrindən yararlandı. Beləliklə, o sistemin çoxlu müsbət cəhətləri var idi. Ancaq sonda, sosialist sistemi kapitalizm ilə rəqabət apara bilmədi. İkincisi, sosialist dövləti diktaturaya əsaslanırdı. O yaşaya bilmədi. Əlbəttə, insanlar yaxşı yaşayırdı, ancaq onların qətiyyən heç bir azadlıqları yox idi.

Təsəvvür edin, əgər onlar çox illər ərzində bu sistemə xidmət etmiş mənim kimi şəxslə pis rəftar edirdilərsə, kim belə sistemə bel bağlaya və etibar edə bilərdi? Mən bunu ona görə demirəm ki, bu, mənim şəxsi vəziyyətim idi. Mənim kimi pis rəftar edilən milyonlarla insanlar vardı. Çoxlu ədalətsizliklər həyata keçirildi. İnsanlar heç bir fikir və ya söz azadlığına malik deyildi.

Kapitalist sisteminin də müsbət cəhətləri olduğu kimi, mənfi cəhətləri var. Dünyada heç bir ideal sistem yoxdur. Məncə, bu fikri Çörçill deyib: "Demokratiya ən yaxşı siyasi sistem deyildir, ancaq insanlar yenə də daha yaxşı bir sistem yaratmalıdır". Demokratiya ilə siz ədalət baxımdan hər şeyə yaxınlaşırsınız.

Biz köhnə sistemdən imtina etmişik. Mən özüm bunu tamamilə şüurlu şəkildə etmişəm. Azərbaycan, şübhəsiz, azad, hüquqi və bazar iqtisadiyyatına əsaslanmış demokratik dövlət olacaq.

**Betti Bleyer:** Azərbaycan Rusiya, İran, Ermənistan, Türkiyə və Gürcüstanla əhatə olunmuş kiçik ölkədir və milli ehtiyatlarını qorumaq üçün beynəlxalq münasibətlərdə tarazlığı saxlamağa həmişə ehtiyac duyur. Sizin XXI əsrdə Azərbaycanın gələcək liderlərinə tövsiyəniz nədir? Onlar bu tarazlığı saxlamaq üçün nə edə bilərlər?

**Heydər Əliyev:** Onlar mənim əsasını qoyduğum siyasəti davam etdirməlidirlər. Əgər belə edərlərsə, onda müvəffəqiyyət qazanacaqlar. Əgər etməzlərsə, onda Azərbaycan çox faciə ilə üzləşəcək. Hər bir ölkənin maraqlarını nəzərə almaq lazımdır. Siz bəzi ölkələrlə dost, bəziləri ilə düşmən ola bilməzsiniz, baxmayaraq ki, bu, əksər ölkələrin siyasətidir. Azərbaycan hər hansı bir ölkə ilə düşmən olmaq istəmir. Eyni zamanda, biz başqa ölkənin siyasətinin qurbanı da olmayacağıq. Azərbaycanın öz müstəqil siyasəti var. Bununla yanaşı, biz Avropa və Amerika ilə yaxşı əlaqələri inkişaf etdiririk və öz milli mənsubiyyətimizi və milli ehtiyatlarımızı qoruyaraq onların təcrübələrindən faydalanmağa çalışırıq.

**İngilis dilindən çevirəni:**
**Süsənbər AĞAMALIYEVA,**
**filologiya üzrə fəlsəfə doktoru**



# Böyük vətəndaş, parlaq şəxsiyyət

*Asəf HACIYEV,*
*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi, akademik*

**Dünya tarixində bəşəriyyətin "ulduzlu anları" anlayışı var. Bunlar müxtəlif xalqların və bölgələrin, bəzən isə bütün dünyanın tarixini kökündən dəyişən hadisələrdir.**

M.K.Atatürk, F.Ruzvelt, V.Çörçill, Ş.De Qoll və digər böyük dövlət xadimlərinin dünyaya gəlməsini bəşəriyyətin "ulduzlu anları" kimi qəbul etmək olar. Bir millət və ya dövlət üçün önəmli anların nə vaxt gələcəyini proqnozlaşdırmaq çətindir, hətta mümkün deyil. Çünki bu, tarixin tələbidir. Yalnız konkret hadisə ilə bağlı tarix bəşəriyyətin "ulduzlu anları"nın yerini müəyyən edə bilər. Çünki təbiətdə nə gözəllik, nə də güc baxımından tarixlə müqayisə oluna biləcək qüvvə və ya hadisə yoxdur. Bu, dünyanın müxtəlif xalqlarının taleyini müəyyən edən tarixin gözəlliyi və gücüdür.

*

XX əsrin 20-ci illərində ölkəmizin və xalqımızın taleyini və gələcəyini müəyyən edən "ulduzlu an" adlandırıla biləcək bir hadisə baş verdi. 1923-cü il mayın 10-da Naxçıvanda dəmiryolçu Əlirza Əliyevin ailəsində Heydər adlı oğlan uşağı dünyaya gəldi. O zaman nə Əliyevlər ailəsi, nə də yaxın ətrafı sonralar bütün dünyanın tanıyacağı və haqqında danışacağı bir insanın doğulduğunu təsəvvür edə bilərdi. Həmin oğlan uşağının taleyinə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinə, sonra Sovet Azərbaycanına rəhbərlik etmək, daha sonra SSRİ MK Siyasi Bürosunun üzvü seçilmək, dünyanın ən böyük dövlətinin liderlərindən birinə çevrilmək, ömrünün sonlarına yaxın isə müstəqil Azərbaycanın Prezidenti olmaq yazılıbmış.

1967-ci ildə azərbaycanlı Heydər Əliyev Azərbaycan SSR DTK-sının sədri təyin edildi. Buna qədər sovet respublikalarının heç birində bu posta milli kadr təyin edilməmişdi. Bu, kommunist rejiminin əsas prinsiplərindən biri idi. Onun şəxsiyyəti o qədər parlaq idi ki, hətta, SSRİ kimi güclü kommunist rejimi özünün əsas prinsipindən geri çəkildi.

Sonralar Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü seçildi və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin olundu. O, Sovet İttifaqı hökumətinin rəhbərlərindən biri kimi ən çətin sahələrə – sənaye, nəqliyyat, elm və təhsil, səhiyyə və digər sahələrə nəzarət edirdi. Sov. İKP MK Siyasi Bürosunun bütün tarixində 170-ə yaxın üzvü olub. Onların cəmi bir neçəsi Siyasi Bürodan uzaqlaşdırıldıqdan sonra böyük siyasətə qayıda bilib. Bunlardan biri də Heydər Əliyev idi. 1987-ci ildə Siyasi Bürodan uzaqlaşdırılan Ulu öndər 1991-ci ildə Naxçıvana qayıtdı, muxtar respublikanın Ali Sovetinə, sonra Azərbaycan Parlamentinə rəhbərlik etdi. Daha sonra müstəqil Azərbaycanın Prezidenti seçildi.

Onun fəaliyyətinin miqyası geniş və heyrətamiz idi. ABŞ Prezidenti Bill Klinton ümummilli lider haqqında demişdir: "Heydər Əliyev o qədər güclü və irimiqyaslı şəxsiyyətdir ki, ən böyük dövlətləri və gücləri idarə edə bilər". Sovet dövrünün tarixçilərinin etirafına görə, Heydər Əliyevin seçilməsi ilə Siyasi Büroda təbəssümlər, zövqlə seçilmiş geyimlər, ən əsası isə konstruktiv xarakter daşıyan mənalı çıxışlar yarandı. Onun çıxışları dərin məzmunlu, qərarları isə məntiqi dərinliyi ilə seçilirdi.

Heydər Əliyev iki dəfə Azərbaycanın rəhbəri oldu. Hər dəfə də möcüzə göstərdi. 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanın SSRİ-nin aparıcı respublikalarından birinə çevrilməsinə nail oldu. 1993-cü ildə müstəqil Azərbaycanın rəhbəri seçiləndə ölkə vətəndaş müharibəsi astanasında idi. Ermənistanın təcavüzü, qaçqınlar, dağılmış iqtisadiyyat, çörək növbələri. İnsanlar aylarla maaş almırdılar. Ancaq, o, bir möcüzə yaratdı. Müharibə dayandırıldı. Bəzi ölkələrin təzyiqlərinə baxmayaraq, qlobal əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı. Bu gün onun adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri çəkildi. Azərbaycanın iqtisadiyyatı yüksəldi və ən əsası Heydər Əliyev xalqa öz inamını qaytardı.

Azərbaycan xalqı dünyanın liderlər xəzinəsinə parlaq şəxsiyyəti – Heydər Əliyevi verdi. Bu, onun hər bir azərbaycanlıya ünvanladığı sözlərdir: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

ABŞ Prezidenti Franklin Ruzvelt böyük depressiyanın çətin illərində Amerika xalqını birləşdirdi və onlara özünəinamı qaytardı. H.Əliyev də xalqın çətin anlarında onun köməyinə gəldi, ölkəsinə sülh və firavanlıq gətirdi. 1995-ci ildə Kopenhagendə Heydər Əliyevin iştirak etdiyi dünya liderlərinin sammiti keçirildi. Bu zaman Bakıda çevriliş hazırlanırdı və Heydər Əliyevin həyatı üçün təhlükə yaranmışdı. Dünya liderləri Heydər Əliyevə Bakıya uçmamağı tövsiyə edirdilər. Amma Heydər Əliyev öz xalqını və dövlətini xilas etmək üçün Azərbaycana yola çıxdı və qorxuya qalib gəldi.

Prezident Şarl de Qollun ordusu və maddi dəstəyi olmadan cəsarəti və qəhrəmanlığı ilə fransızlara itirilmiş qürurunu qaytardı və Fransanın çiçəklənməyə aparan yolunu işıqlandırdı. Heydər Əliyev də Azərbaycan xalqının yaddaşında böyük vətəndaş və bütün azərbaycanlıları birləşdirən parlaq şəxsiyyət kimi qalacaq. O, təkcə Azərbaycana deyil, bütün regiona sülh və iqtisadi inkişaf gətirdi. Onun da nizami ordusu, maddi dəstəyi yox idi. Silahı söz, dəstəyi isə Azərbaycan xalqı oldu. O, xalqı öz gücünə inandırdı. Azərbaycanın gələcəyinin necə olacağı sualına özümüzdən başqa heç kimin cavab verə bilməyəcəyini isbatladı.

1982-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1937-ci il repressiyasının qurbanı olmuş Azərbaycanın böyük şair-filosofu Hüseyn Cavidin nəşi uzaq Sibirdən Vətəninə gətirildi və Naxçıvanda dəfn edildi. Bu, həm də gənc nəslə bir mesaj, öz xalqının mənəvi xəzinəsini dəyərləndirməsi və onun uğrunda mübarizə aparmasının bir nümunəsi idi.

Bakıda 26 Bakı komissarının abidəsinin açılış mərasimində Azərbaycan KP MK katiblərindən biri komissarların qəhrəmanlığından alovlu çıxış etdi. Mərasimdən sonra Heydər Əliyev ona dedi: "Bakı komissarlarını belə ucaltmağa ehtiyac yoxdur. Vaxt gələcək onların Azərbaycan xalqına qarşı fəaliyyətinin mənfi cəhətlərinə də işıq salınacaq".

O, dövlətçiliyi dərindən dərk edən polad kimi əyilməz iradə sahibi idi. Doğrudur, Heydər Əliyev adlı-sanlı məktəblərdə oxumayıb, Avropanın nüfuzlu universitetlərinin məzunu olmayıb. Amma Ulu Tanrı tərəfindən verilən istedadı, dərin biliyi, dəmir məntiqi, analitik qabiliyyəti, fəhmi və özünə inamı ona dünyanın aparıcı liderlərinin ön sırasında olmağa imkan verdi. O, özündə Azərbaycanın zəngin mədəniyyətinə xas ən gözəl keyfiyyətləri daşıyırdı.

Heydər Əliyev müstəqil Azərbaycanı xarabalıqlar içindən qaldırdı, diriltdi. O, bunu özünün İlahi missiyası kimi yerinə yetirdi. Xalqının ən çətin anında qorxuya qalib gələn, hər birimizə ümid bəxş edən, özümüzə inandıran, ləyaqət və cəsarətin canlı əfsanəsi heç zaman unudulmamalıdır. Heydər Əliyev Azərbaycan üçün çox işlər gördü, amma, bir arzusunu ürəyində apardı. O, Ermənistanın işğal etdiyi tarixi torpaqlarımızın nə vaxt azad ediləcəyini, qaçqınların Qarabağa qayıdacağını, orada həyatın qaynayacağını görmək, unudulmaz muğam melodiyasını eşitmək, Azərbaycanı tam şəkildə görmək arzusunda idi. Amma tarix Azərbaycan xalqına dahi şəxsiyyətin arzusunu çin etməyə şərait yaratdı. Onun varisi və yolunun davamçısı Prezident İlham Əliyev 44 günlük müharibədə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Bu, XXI əsrin müharibəsi idi. Güclü iqtisadiyyatın, müasir düşüncənin müəyyən etdiyi qabaqcıl texnologiyaların üstünlük təşkil etdiyi müharibə idi.

Bu gün iqtisadi cəhətdən inkişaf etmiş və hərbi sahədə güclənmiş Azərbaycanın bünövrəsini Heydər Əliyev qoydu. Dövlətin və millətin başını uca edən, şərəfini qaldıran Zəfərin memarı isə İlham Əliyevdir. 44 günlük müharibənin nəticəsində Azərbaycanın təkcə ərazi bütövlüyü bərpa olunmadı. Xalqımızın mənəviyyat və mədəniyyət incisi sayılan Şuşa azad olundu. Şuşanın öz sahibinə qaytarılması sadəcə bir şəhərin və ya bir bölgənin azad edilməsi deyildir. Bu, oğurlanmış və taptalanmış şərəfin, xalqa məxsus olan incinin geri alınması, millətin qüruruna vurulan ləkənin təmizlənməsi idi.

Bu hadisəni bəşəriyyətin "ulduzlu anları"ndan biri hesab edə bilərik. Bu gün doğma Qarabağımızda böyük bərpa-quruculuq işləri aparılır. Azərbaycanın dilbər guşəsinə onun əvvəlki gözəlliyi qaytarılır. Bu işdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xidmətlərini ayrıca qeyd etmək lazımdır.

Burada belə bir sual yarandı: Azərbaycanın bugünkü uğurlarını hansı amillər şərtləndirdi? İqtisadi güc, dərin intellekt, yoxsa müasir düşüncə? Cavab bunların vəhdətidir. Bütün bunlara, eləcə də Heydər Əliyevin müəyyənləşdirdiyi milli dövlətçilik prinsiplərinə arxalanaraq, Azərbaycanı regionun aparıcı, sürətlə inkişaf edən, hərbi cəhətdən güclü dövlətinə çevirən Prezident İlham Əliyevin danılmaz xidmətlərini qeyd etməmək mümkün deyil. O, məhz Heydər Əliyevə xas diplomatik fəhmi, xüsusi istedadı və müdrikliyi ilə seçilir. Qazandığı uğurların təməlində bu keyfiyyətlər dayanır.

2019-cu ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) 75 illik yubileyini qeyd edirdi. Çıxışların birində bildirildi ki, 75 il ərzində dünyanın müxtəlif yerlərindən yarım milyona yaxın istedadlı gənc bu mötəbər ali məktəbi bitirib. Amma onlardan yalnız biri ən yüksək vəzifəyə layiq görülərək ölkə prezidenti seçilib. Bu missiyanı öz üzərinə götürən və onu şərəflə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyevdir. Bu, dövlət başçımızın ünvanına deyilən tərif yox, onun diplomatik uğurunun etirafı idi. Hər bir azərbaycanlını qürur hissi bürüyür ki, məhz bizim Prezidentimiz planetin müxtəlif guşələrindən olan yarım milyon istedadlı tələbənin arasında ən parlaq siyasi-akademik nəticəyə nail olub. Bu nəticə özündə müasir Azərbaycanın uğurlarını təcəssüm etdirir. 2003-cü il dekabrın 12-də, Heydər Əliyevin dəfn olunduğu günü heç kim insanları paytaxt küçələrinə çağırmamışdı. Azərbaycanın müxtəlif guşələrindən gəlmiş insanlar Bakının küçələrində əl-ələ verib, göz yaşları ilə xalqın layiqli oğlunu, görkəmli şəxsiyyətini, böyük Vətəndaşını səssizcə son mənzilə yola salırdılar. O gün bütün dünya azərbaycanlıları da Ulu öndərə öz ehtiramlarını bildirirdilər.

Bu gün Heydər Əliyevin ruhu ölkəmizi gəzir, ərazi bütövlüyü, suverenliyi bərpa olunmuş Vətəninin çiçəklənən bölgələrini görüb sevinir, qürur duyur. İllər keçəcək, nəsillər dəyişəcək, əsası Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan daha böyük uğurlara imza atacaq. Onun bugünkü və gələcək nəaliyyətlərinə sevinən Heydər Əliyevin əbədi ruhu yenə də Azərbaycan xalqına özünün xeyir-duasını verəcək.

# Diaspor rəhbəri təltif edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, "Aydan" Estoniya–Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Niyazi Hacıyev diaspor fəaliyyətində xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif olunub.**



Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyev komitədə Niyazi Hacıyevlə görüşərək medalı ona təqdim edib. O, soydaşımızın Azərbaycan diasporunun inkişafı, ölkəmizin xaricdə tanıdılması istiqamətində fəaliyyətini yüksək qiymətləndirib, gələcək fəaliyyətlərində ona uğurlar arzulayıb.

Niyazi Hacıyev fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan dövlətinin başçısına dərin minnətdarlığını ifadə edib, bundan sonra da Avropada ölkəmizlə bağlı müsbət imicin formalaşması, Estoniyada yaşayan soydaşlarımızın bir araya gələrək, milli maraqlar uğrunda birgə fəaliyyət göstərməsi naminə səylərini əsirgəməyəcəyini bildirib.

Qeyd edək ki, Niyazi Hacıyev indiyədək Azərbaycanın "Tərəqqi" və "Diaspor fəaliyyətində xidmətə görə" medalları ilə təltif edilib.

**P.ƏMİRCANOV**
**XQ**

# Pedaqoji Universitetdə anım mərasimi



**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Heydər Əliyev Mərkəzində Ulu öndərin anım mərasimi keçirilib.**

"Xalqa həsr olunmuş ömür" adlı xatirə məclisində müstəqil dövlətimizin banisinin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş olunub.

ADPU-nun rektoru professor Cəfər Cəfərov ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlət qarşısında göstərdiyi müstəsna xidmətlərdən danışaraq bildirib: "Ulu öndər istər Azərbaycanın rəhbəri olduğu, istərsə də Sovet İttifaqının ali rəhbərliyində təmsil olunduğu zaman ölkəmiz və xalqımız qarşısında elə müstəsna xidmətlər göstərib ki, 2003-cü ildə səhhəti kəskin şəkildə pisləşdikdən sonra keçirilən prezident seçkilərində seçicilərin dörddə üçündən çoxu məhz onun müəyyənləşdirdiyi siyasi kursun davamına səs verib. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edən, dünya birliyində xüsusi yeri olan, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş nüfuzlu dövlət kimi tanınır".

Tarix üzrə fəlsəfə doktoru Elman Mirzəyev, dosent Afaq Piriyeva, Tələbə Gənclər Təşkilatının sədri Çiçək Sultanlı Heydər Əliyevin xalqımız qarşısında tarixi xidmətlərinin müxtəlif yönlərindən söz açıblar.

Ali məktəbin "Meh" dərnəyinin üzvləri Xalq şairi Zəlimxan Yaqubun "Mən azərbaycanlıyam" şeirini ədəbi-bədii kompozisiya şəklində təqdim ediblər.

**XQ**

# Ümumxalq sevgisinin əbədi ünvanı

*İsmayıl HACIYEV,*
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

**(əvvəli 1-ci səhifədə)**

Xalqımızın böyük oğlu Heydər Əliyev yalnız Azərbaycan səviyyəsində deyil, keçmiş ittifaq dövlətində, hətta Qərb miqyasında sözünün keçəri, sanbalı olan lider idi. O, beynəlxalq səviyyədə düşünməyi və təhlillər aparmağı bacarırdı. Bu iki məqam onu həmkarlarından əhəmiyyətli dərəcədə fərqləndirən professional cizgilərdəndir. Bu dahi insan tarixi yazan və yaradan, onu yönəltməyi və fövqündə durmağı bacaran, dövlət idarəçiliyi və siyasi təlimlər elminin müntəxəbatını öz fəaliyyəti ilə diktə edən nadir şəxsiyyətlərdən biri idi.

Kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran bir siyasi xadim kimi Heydər Əliyev mahir psixoloq, insan qəlbinin dərin bilicisi idi. Buna görə də onun gələcəyi görmək qabiliyyəti başqalarına, həmkarlarına nisbətən daha güclü idi. Tarixi bəsirət, irəlini görmək nadir bir hissdir. Siyasi xadimlərin heç də hamısında bu hiss olmur. Təbiət bu keyfiyyəti yalnız seçilmiş adamlara – zəmanəsini çox-çox qabaqlayan görkəmli mütəfəkkirlərə verir. Nəhəng siyasətçi Heydər Əliyev kimi.

Analitik düşüncə tərzi, çətin vəziyyətlərdə soyuqqanlılığını saxlamaq məharəti, yüksək intellekti, dünya mədəniyyətinə bələdliyi ilə ətrafdakıları heyrətləndirən Heydər Əliyev böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi idi. Ulu öndəri xarizmatik lider, fenomenal şəxsiyyət adlandırırlar. Müasir siyasi texnologiyalarda lider üçün xarizma məsələsi çox vacib şərt hesab edilir. Heydər Əliyev məhz güclü xarizmatik şəxsiyyət, fenomenal siyasətçi və dövlət xadimi idi.

Milli lider kimi onun ən böyük gücü dərin, həm də universal biliyində, qətiyyətində, işgüzarlığında, hökmündə, qeyri-adi yaddaşında, tükənməz səbrində, müsahibini təmkinlə dinləmək bacarığında, uzaqgörənliyində, qarşısında qoyduğu məsələni həyata keçirmək qabiliyyətində, müdrikliyində, ən böyük siyasətçi keyfiyyətlərində, mahir diplomat gedişlərində, həmsöhbətinə təsir etmək gücünə malik olmasında idi. Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət, zəka, səbat, diqqət və b. cəhətlər Heydər Əliyevin fərdi naturasının özgün çalarları idi.

Korifey insan Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncə görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir. Təsadüfi deyil ki, onun atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü, obyektivliyi və hər cəhətdən ölçülüb biçildiyindən ətrafdakıları heyrətləndirmiş, siyasət aləminin patriarxı adını qazandırmışdır.

Dünyanın ən görkəmli siyasət və dövlət xadimləri Heydər Əliyevin ictimai-siyasi və dövlət xadimi kimi fəaliyyətini yüksək dəyərləndirmiş və ondan öyrəndiklərini dönə-dönə etiraf etmişlər: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət– bir sözlə şəksiz liderdir" (Zbiqnev Bjezinski); "Mənim üçün xüsusilə böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bu ölkə Heydər Əliyev kimi dünya şöhrətli şəxsiyyət tərəfindən idarə olunur" (Henri Kissincer); "O, nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilən dövlət xadimlərindən biridir" (Bill Klinton); "Dünya birliyi bir daha belə siyasətçi görməyəcək" (Eduard Şevardnadze); "O, heç vaxt insanları dar ayaqda buraxmadı. Əbəs yerə deyildir ki, bütün dünya H.Əliyevi "siyasətin patriarxı" adlandırırdı, o isə bunu həmişə zarafatla öz üzərinə əlavə məsuliyyətin qoyulması kimi dəyərləndirirdi" (Süleyman Dəmirəl) və b.

Siyasətçilərin "liderlərin lideri" adlandırdığı bu dahi insanın siyasətinin gücü nədə idi?! İlk növbədə, fenomenal şəxsi keyfiyyətlərində – siyasi uzaqgörənliyində, fitri istedadında, müdrikliyində, ölçülüb-biçilmiş qərarlarında, qətiyyətliliyində, siyasi iradəsində, dərin zəkasında, ensiklopedik biliyə malik olmasında, geniş dünyagörüşündə, milli maraqlara əsaslanmasında, tarixi şəraitdən düzgün baş çıxarmasında, zaman və məkan amilini qiymətləndirməsində, dözüm və səbrliliyində, nəzəriyyəyə istinad etməsində və praktik həyatdan baş çıxarmasında idi.

Bu dahi siyasətçi zərgər dəqiqliyi ilə, ölçülüb-biçilmiş qərarlar qəbul edirdi. Onun fəaliyyəti haqsız yerə "təftiş" ediləndə belə irad tutulması, "nöqsan deyiləsi" olan bir fakt belə tapa bilməmişlər. Yarım əsrlik siyasi fəaliyyətin qızıl qaydası çoxları üçün təəccüblü idi. Təəccüb və möcüzələr, başqalarını şok vəziyyətinə salan faktlar yüzlərlədir. Elə bu keyfiyyətlər onu başqalarından fərqləndirirdi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Kiçik bir ölkə Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdi. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli müdrik dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı.

Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi anti-Azərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

1993-cü ildə Azərbaycan dövlətçiliyinin çətin sınaqlar qarşısında dayandığı, məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda, Heydər Əliyev xalqın çağırışına səs verdi, onun tələbi və dəstəyi ilə yenidən ölkə rəhbərliyinə qayıtdı və xüsusi qurtuluş missiyası həyata keçirərək, dövlətçiliyin xilaskarına çevrildi. Müstəqil dövlətimizin həqiqi Prezidenti 10 il Azərbaycanın böyük nailiyyətlərinə imza atdı. O bütün sahələrdə tərəqqiyə doğru dönüşün baş verməsini təmin etdi, "Əsrin müqaviləsi" imzalandı, hüquqi islahatlar, hüquqi dövlət quruculuğu həyata keçirildi, sabitlik yaradıldı, torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində uğurlu hərbi əməliyyatlar keçirilməsinə nail olundu. Ulu öndər Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da qətiyyət, cəsarət, müstəqil siyasət və düşünülmüş addımlardır.



Ümummilli lider 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına etdiyi müraciətində 10 il ərzində gördüyü işlərin dəqiq təsnifatını vermişdir. Ulu öndərimiz demişdir: "İlk növbədə dövlətçiliyimizin əsasını təşkil edən ictimai-siyasi sabitliyə nail olmuş, milli birlik və qanunların aliliyinə söykənən vətəndaş cəmiyyətinin təməlini qoymuşuq. İkincisi, hər bir dövlətin, onun yaşamasının qayəsini təşkil edən ölkə iqtisadiyyatını yenidən qurmuşuq, inkişaf yoluna çıxarmışıq. Üçüncüsü, Azərbaycan xalqının istək və arzularının ifadəsi olan, özünün bütün müvafiq təsisatlarına malik güclü, demokratik dövlətimizi qura bilmişik, onun müstəqilliyinin dönməzliyini təmin etmişik".

Azərbaycan möcüzəsi Heydər Əliyev idarəetmənin ustadı, siyasətin kamil bilicisi kimi bütün dünyada məşhur idi. Bu dahi insanın təliminə görə siyasət və uzaqgörənlik qarşılıqlı vəhdətdədir. Böyük öndər deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini irəlicədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır.

Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir. Siyasətçilər var ki, onların hörməti təmsil etdikləri dövlətlərin gücü və böyüklüyü ilə şərtlənir və elə siyasətçilər də var ki, onlar öz şəxsi nüfuzu ilə təmsil etdikləri dövlətlərin qüdrət və əzəmətini təmin edirlər. Ulu öndər siyasi və dövlətçilik fəaliyyəti və şəxsi nüfuzu ilə ölkəmizi dünyada tanıtdı.

Uzaqgörən və ağıllı siyasətçi kimi Heydər Əliyev nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı bir zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər qeyd edirdi ki, "Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".

Ümummilli liderin siyasəti milli maraqlar üzərində qurulmuşdu. Xalqımızın və dövlətimizin elə bir problemi olmamışdır ki, həmin problemləri kimsə Heydər Əliyev yüksəkliyində dərk etmiş olsun. O, hər hansı problemə həsr olunmuş yığıncaqda məsələyə dərindən bələdliyi, verdiyi suallar, qaldırdığı problem məsələlərlə həmin sahənin mütəxəssislərini belə heyrətləndirirdi. Çünki o, istər sənaye, istər kənd təsərrüfatı, istərsə də elm, təhsil, mədəniyyət ilə bağlı məsələlərin müzakirəsində bütün iştirakçıları həmin sahənin əvəzedilməz bilicisi kimi idarə edirdi.

Dövlət başçısı Heydər Əliyevin mülahizələri problemlərə dərindən bələdlik, hadisələrin məğzinə, səbəb-nəticə əlaqələrinə nüfuz etmək xüsusiyyəti ilə seçilirdi. Azərbaycanın daxili siyasətini istiqamətləndirən, xarici siyasətini beynəlxalq hüquq normalarına uyğun, məqsədyönlü və tarazlaşdırılmış şəkildə aparan qətiyyətli dövlət xadimi çox hallarda ən tanınmış siyasətçiləri belə təəccübləndirir və onun ağıllı siyasətini birmənalı olaraq qəbul edirdilər. Elə bu cəhətlərinə görədir ki, xalqımız onu əsrin böyük Azərbaycanlısı, xalqın xilaskarı, müstəqil Azərbaycan dövlətinin memarı və Azərbaycanı dünyaya tanıdan insan kimi qəbul edir, hörmət bəsləyir və ürəkdən sevirdi.

Çoxəsrlik dünya tarixi təkzibolunmaz şəkildə göstərir ki, hər bir xalqın istiqlaliyyətinin qazanılması və dövlətçiliyinin formalaşması böyük siyasi xadimlərin adı ilə ayrılmaz surətdə bağlıdır. Hər bir milli dövlət öz təşəkkülünün həlledici dönüş mərhələlərində parlaq, müdrik, təcrübəli və millət işinə hədsiz sadiq olan liderlərə böyük ehtiyac duyur. " Böyük siyasət və dövlət işi ilə məşğul olan şəxslərin dövlət əhəmiyyəti olan məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır" (Heydər Əliyev).

Bu da bir həqiqətdir ki, dünyada tanınan, sevilən, şəxsiyyətinə, siyasi və dövlətçilik fəaliyyətinə çox böyük hörmətlə yanaşılan Heydər Əliyev haqqında söz demək, fikir söyləmək o qədər də asan deyildir. Bu gün dünya ictimaiyyəti Azərbaycanı və onun liderini tanıyır, onu minnətdarlıqla xatırlayırsa, ünvanına ən xoş sözlər söyləyirsə, yüksək rəyini, fikrini deyirsə, bu özü xalqımız üçün böyük şərəfdir. Biz qürur duyuruq ki, xalqımızın dünyada bu səviyyədə sevilən, hörmət bəslənilən ümummilli lideri olmuşdur.

Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin ucalığı, fövqəladə idarəçilik qabiliyyəti, yüksək intellekti nəticəsində dünyanın görkəmli siyasətçiləri və dövlət xadimləri arasında onun adı həmişə birincilər sırasında çəkilib. Azərbaycan coğrafi cəhətdən kiçik ölkə olsa da, Heydər Əliyevin böyük siyasət adamı olaraq beynəlxalq miqyasda özünü təsdiq etməsinə heç vaxt mane olmayıb. Ən məşhur, tanınmış siyasətçilərin reytinqinin müəyyənləşdirilməsi üçün aparılan beynəlxalq sorğularda, siyasi institutların, sosioloji mərkəzlərin araşdırmalarında Heydər Əliyevin adının birincilər sırasında yer tutması onun siyasətdə, həyatda, dövlətçilik təcrübəsində qazandığı uğurların təsdiqi idi.

Ulu öndərimizin bu nüfuzu onun xalq və ölkə qarşısındakı əvəzsiz xidmətləri, özünün nəsillərə nümunə ola biləcək həyat fəaliyyəti, iti düşüncəsi, əqidə və məsləki ilə, onun rəhbərliyi dövründə Azərbaycanın demokratiya və müstəqillik yolunda atdığı uğurlu addımları ilə bağlıdır. Dünya siyasətçiləri, beynəlxalq ictimaiyyət və xalqımız bu dahi insanı Heydər Əliyev olduğuna görə deyil, Vətən və dövlət qarşısında gördüyü böyük işlərə, dünyada təhlükəsizliyin qorunmasına, düzgün və pozitiv inkişafa çalışdığına, siyasi və ictimai fəaliyyətinə görə qiymətləndirmişdir. Bu səbəbdəndir ki, dünyanın ən görkəmli siyasi xadimləri, dövlət rəhbərləri, tanınmış elm və mədəniyyət nümayəndələri Heydər Əliyev şəxsiyyətini yüksək qiymətləndirmişlər. Onun haqqında deyilən söz, verilən qiymət bu gün də, sabah da lazımdır, bunlar tariximizin yaddaşına köçürülməlidir.

Bənzərsiz tarixi şəxsiyyət Heydər Əliyev qlobal düşüncəli, geniş dünyagörüşlü nəhəng bir siyasətçi idi. O, realist bir insan olaraq hadisələrə praqmatik yanaşırdı, tarixi şəraitdən düzgün baş çıxarırdı, ölkənin taleyi üçün uğurlu qərarlar qəbul edirdi. Onun ağıllı və uzaqgörən siyasətində hər şeyin öz yeri və vaxtı var idi. O, beynəlxalq aləmdə tarazlaşdırılmış siyasətin, ölçülüb-biçilmiş fəaliyyətin ustadı idi.

Bu dahi siyasət adamı bütün fəaliyyəti boyu müdrik insan, qətiyyətli rəhbər, xalq məhəbbətini qazanan uzaqgörən siyasətçi və ağıllı dövlət xadimi olduğunu təsdiq etmişdir. İnanmaq çətindir ki, dünyada xalqa bu qədər yaxın ikinci bir siyasətçi olar. Siyasətçi üçün lazım olan keyfiyyətlərlə yanaşı, onda idarəetmə keyfiyyətləri, dövlətçilik təcrübəsi ən yüksək səviyyədə idi. Elə bunlar idi onun siyasətinin ucalığı, aliliyi, uzaqgörənliyi və heyrətamizliyi. Heydər Əliyev siyasəti bütün dünyanı ehtiva edə bilir, düzgün istiqamətə yönəldirdi.

Azərbaycan lideri Heydər Əliyevin beynəlxalq Atatürk sülh mükafatına layiq görülməsi onun dünyada apardığı sülh siyasətinə verilən qiymət idi. O, dünyanın bütün ölkələri və onların rəhbərləri ilə, hətta məkrli düşmənlərimizlə də "sülh dili" ilə nəinki danışmağı bacarırdı, onlara da bunu aşılaya bilirdi. Ulu öndərimizin ən ali insani keyfiyyətləri, fenomen xarakteri, insanlarla dil tapmaq bacarığı, hərəni öz dilində danışdırmaq məharəti onu tanıyanların sevimlisinə çevirirdi.

Hər dövlət xadiminə xas olmayan üstünlüklər ulu Tanrının Heydər Əliyevə verdiyi ən ali keyfiyyətlər idi. Görəsən bəşəriyyət belə nəcib, yüksək intellekti ilə seçilən dövlət xadimləri, siyasət nəhəngləri ilə çoxmu qarşılaşıb?! Təəssüf ki, buna heç də çox rast gəlinməyib. Heydər Əliyev kimi dövlət və siyasət adamları bəşəriyyətin, insanların xeyrinə, sülhün və əmin-amanlığın təmin edilməsinə yetərincə pay vermişlər.

Azərbaycan xalqının ümummilli lideri yüksək bəşəri keyfiyyətlərə, təvazökarlığa, hər şeydən öncə isə demokratik dövlət quruculuğu prinsiplərinə daim sadiq qalan böyük şəxsiyyət idi. O, Azərbaycan tarixində bəlkə də yeganə siyasət adamıdır ki, onun fəaliyyəti yalnız konkret sahələri əhatə etmir, həm də ümummilli və qlobal əhəmiyyətli problemlərin aradan qaldırılmasına xidmət edir. Onun xalq işinə sədaqəti, siyasi müdrikliyi, böyük dövlətçilik təcrübəsi, parlaq hafizəsi, geniş dünyagörüşü, polad iradəsi, mərdanə qətiyyəti, həssas qəlbi, möhkəm səbri, çox hövsələliyi, ədalətli olması, həmişə obyektiv mövqe tutması, yüksək intellekti və ziyalı mövqeyi, dolğun tədbirliliyi və analitik təfəkkürü, sadə davranışı, heyrətamiz enerjisi kimi bir-birini tamamlayan keyfiyyətləri bu dövlət başçısını müstəsna yüksəkliyə ucaltmışdı.

Ulu öndər Heydər Əliyevin dərin məntiqli nitqi, natiqlik məharəti, söz seçmək bacarığı, auditoriya ilə ünsiyyət qurmaq səriştəsi onu dinləyənləri məftun edirdi. Onun nitqi dərin və konkret idi, müzakirə olunan məsələni yüksək səviyyədə ümumiləşdirmək bacarığına malik idi. Ulu öndərin nitq və çıxışlarında artıq söz və ifadə, qeyri-dəqiq fakt və rəqəm olmur, fikirlərini son dərəcə cilalanmış şəkildə ifadə edirdi. O, məsələnin mahiyyətini açmağa, mövzunun milli mənafe, dövlətçilik mövqeyindən təhlil etməyə xidmət edən məsələni ustalıqla göstərməyi bacarırdı.

Görkəmli siyasətçi üçün uzaqgörənlik, düzgün qərar çıxartmaq nə qədər əhəmiyyətlidirsə, rəvan nitqə, yüksək intellektə, təhlil etmək bacarığına yiyələnmək də bir o qədər vacibdir. Bu cəhətdən Heydər Əliyevə uyğun gələn siyasətçi çox azdır.

Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin obyektiv təhlili göstərir ki, o, başqalarından fərqli olaraq qeyri-adi zəkaya, böyük enerjiyə, islahatçı və yüksək analitik təfəkkürə, yenilməz iradəyə malik siyasətçi idi. "Siyasət üçün doğulmuşlar siyasətdən əl çəkdikcə, siyasət onlardan əl çəkmir" – deyimi tamamilə Heydər Əliyevə aid edilə bilər. Ona görə də bir sıra hallarda Heydər Əliyevi "siyasət nəhəngi", "siyasət qrossmeysteri", "siyasət patriarxı"… kimi xarakterizə edirlər. Qüdrətli dövlət xadimi siyasət aləminin müəllimi idi. Onun müəllimliyindən çoxlarına pay düşmüşdür.

Xalqımız qarşıya çıxan hər hansı bir çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə görürdü. Bu, on illərlə formalaşmış fikirdir, özü də doğru və düzgün fikirdir. Ölkəmizin fəxri, milli iftixarımız və liderimiz olan Heydər Əliyev bütün problemlərin həll olunmasının öhdəsindən yüksək səviyyədə gəlmişdir. Çünki o, bir neçə on il bundan sonra görəcək işləri bu gün həyata keçirməyi bacaran nadir keyfiyyətlərə malik uzaqgörən siyasətçi və təcrübəli dövlət xadimi idi. Onun siyasəti ölçülüb-biçilmiş, gələcəyə ünvanlanmış siyasət idi.

Ümummilli lider Heydər Əliyevi dünyanı dəyişdirən insanlar cərgəsinə aid etmək olar. Müasirləri onun gördüyü işləri hələ layiqincə dəyərləndirməyiblər: onun Yer üzünə nə üçün gəldiyini və kim tərəfindən göndərildiyini tam dərk edə bilmək üçün hələ olduqca az vaxt keçib. XX əsr və XXI əsrin başlanğıcının görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri olan Heydər Əliyevin ibrətamiz həyatı və heyrətamiz siyasi fəaliyyəti gələcək yüzilliklərdə hələ neçə-neçə siyasət adamına istiqamət verəcəkdir.

Bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Bu siyasətin icraçısı ulu öndərimizin layiqli siyasi varisi cənab İlham Əliyevdir. Onun rəhbərliyi ilə Heydər Əliyev siyasəti yaşayır və uğurla davam etdirilir. Azərbaycan Respublikası Heydər Əliyev siyasəti ilə irəliləyir və yaşayır. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir. Onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırmış, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirir və Prezidentimizin ətrafında daha sıx birləşirlər.

Çağdaş dünyanın müdrik dövlət başçısı kimi tanınan İlham Əliyev ulu öndərin siyasi kursunu layiqincə davam etdirməklə, xalqımızın və dövlətçiliyimizin bu kursun mahiyyətindən doğan milli maraqlarını beynəlxalq miqyasda təmin edir. Heydər Əliyev siyasətinin uğurla həyata keçirilməsi müstəqilliyimizi möhkəmləndirir, dövlətçiliyimizi qüdrətləndirir və nəticədə beynəlxalq aləmdə Azərbaycan Respublikasının rol və nüfuzunu artırır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasında, işğal edilmiş torpaqlarımızın azad edilməsində, suverenliyimizin əldə edilməsində Heydər Əliyev siyasi kursu Prezident cənab İlham Əliyev tərəfindən mükəmməl şəkildə həyata keçirilmişdir. Qarabağ probleminin qısa müddətdə həll edilməsi ilə ölkə rəhbəri dünya birliyini mat qoymuşdur. BMT-nin həll edə bilmədiyi məsələni Ali Baş Komandan yüksək səriştə və dəqiqliklə həll etmişdir. Azərbaycan Respublikası dünyada lider ölkəyə çevrildiyi kimi, onun rəhbəri də liderlik keyfiyyətləri ilə lider dövlət xadimlərinin ön cərgəsindədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edərkən demişdir: "Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. O hər iki liderliyi dövründə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir".

Siyasət nəhəngi, dünyanın tərəqqiyə doğru inkişafına təsir etmək gücündə olan Heydər Əliyev bəşəri dəyərlərə əhəmiyyət verən, milli varlığı yüksək qiymətləndirən bir şəxsiyyət, ölkə rəhbəri, güclü siyasətçi, hər məsələdə onunla hesablaşılan bir insan idi. "Heydər Əliyev türk dünyasının, bəlkə də bütün dünyanın ən müdrik və qeyrətli şəxsiyyətidir" (Dinməhəmməd Kunayev)".

Ümummilli liderin əbədiyaşar siyasəti təkcə yaşadığı dövrə yox, həm də gələcəyə yönəlmişdi. Ulu öndərin siyasi və dövlətçilik fəaliyyəti çağdaş nəsillərə örnəkdir. Onun irsi və əməlləri xalqımızın gələcək yolunu nurlandırır və yeni uğurlarına təminat yaradır.

# Xalqın qəlbində yaşayan lider

*Misir MƏRDANOV,*
*ETN Riyaziyyat və Mexanika İnstitutunun direktoru,*
*AMEA-nın müxbir üzvü*

**Heç şübhəsiz, Heydər Əliyevin xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri ölkəmizin tarixinin şərəfli səhifələridir. Millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsipi kimi qəbul edən Ulu öndər müstəqil Azərbaycanın qurucusu və memarıdır. Anım günü ərəfəsində onun ölkəmiz və xalqımız qarşısındakı tarixi, misilsiz və əvəzedilməz xidmətlərinin mahiyyətini daha dərindən anlamaq üçün bəzi fikirlərimi oxucularla bölüşmək istəyirəm.**



Hər kəsə məlumdur ki, 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa edən respublikamızın suverenlik taleyi 20 aydan sonra – 1993-cü ilin iyununda böyük sual altında idi. Həmin dövrdə ölkədə xaos və anarxiya hökm sürür, iqtisadiyyat tamamilə dağıdılmış, gənclər müxtəlif qanunsuz silahlı birləşmələrə cəlb edilərək üz-üzə qoyulmuşdu. Azərbaycanın ərazisi müxtəlif "xanlıq" və "nüfuz dairələri" nə parçalanmış, Dağlıq Qarabağda isə torpaqlarımızın müdafiəsi taleyin ümidinə buraxılmışdı. Qanunsuz odlu silah gəzdirmək və tətbiq etmək adi məişət hadisəsinə çevrilmişdi. Ağır zirehli texnikaya və qanunsuz silahlı dəstələrə sahib olan siyasi partiyalar bir-birinə "əzələ" nümayiş etdirir və ölkədəki vəziyyəti daha da mürəkkəbləşdirirdilər.

Bəzi yüksək dövlət vəzifəsi tutanlar məsuliyyətsiz siyasi bəyanatlar verməklə Azərbaycanı həm qonşu, həm də regionda geosiyasi maraqları olan dövlətlərlə, az qala, müharibə vəziyyətinə gətirmişdilər. 1993-cü ilin yazında o zamankı iqtidarın "Milli qəhrəman" statusuna qaldırdığı Surət Hüseynovun Gəncədəki qanunsuz hərəkətləri, mərkəzi hakimiyyətə tabe olmaması isə ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, iqtidara qarşı inamsızlığın daha da güclənməsinə səbəb olmuşdu. Faktiki olaraq müəyyən xarici qüvvələrin dəstəklədiyi bu itaətsizlik respublikamızın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, vətəndaş müharibəsinə, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanmasına zəmin yaratmışdı. Bu "münbit şəraitdən" istifadə edən "Sadval" hərəkatı və həmin dövrdə mövcud olmuş digər etnik-hərbi qruplaşmalar dövlətçilik əleyhinə təxribatçı fəaliyyətlərini genişləndirirdilər. Cənubda qondarma "Talış-Muğan Respublikası"nın elan olunması ölkənin ərazi bütövlüyünün pozulması, hakimiyyətsizliyin, xaos və anarxiyanın, qanunsuzluğun bariz təcəssümü idi.

1920-ci ildə Xalq Cümhuriyyətinin süqutu ərəfəsində baş vermiş faciəli hadisələr təkrarlanmağa doğru gedirdi. Azərbaycan xalqının qabaqcıl, mütəfəkkir insanlarının xidmətləri sayəsində müsəlman Şərqində qurulmuş ilk Demokratik Cümhuriyyət 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Baxmayaraq ki, onların titanik fəaliyyəti nəticəsində dünyanın bir çox dövlətləri ilə əlaqələr qurulmuş, bir sıra dövlət quruculuğu tədbirləri həyata keçirilmiş, ilk dünyəvi universitet yaradılmış, Azərbaycan dünyada müstəqil dövlət kimi tanınmışdı. Ancaq daxili siyasi gərginlik, xarici qüvvələrə işləyən satqın mənsəb sahibləri, parlamentdə kəskin fikir ayrılıqları, silahlanmış "qoçu dəstələri", ölkənin daxili problemlərinə xaricdən müdaxilə və digər amillər nəticədə çətinliklə əldə edilmiş milli müstəqilliyi iflasa uğratdı.

1993-cü ilin yayında da təxminən eyni ssenari yaradılmışdı, gözlərimizin qarşısında tarixin təkrarlanması prosesi gedirdi. 73 illik fasilədən sonra baş verən bu olayların o zamankı hadisələrdən yalnız iki fərqi var idi, qalanları– tarixi şərait, adamlar, siyasi vəziyyət qismən dəyişikliyə uğramaqla demək olar ki, eyni idi: Birincisi, bu hadisələr müstəqillik elan edildikdən 23 ay yox, 20 ay sonra baş verirdi, ikincisi tarixin səhnəsində çox müdrik, cəsarətli, hər şeyi dəqiq hesablamağı bacaran siyasət qrossmeysteri Heydər Əliyev var idi.

Yaxşı xatırlayıram, 1993-cü il iyun ayının əvvəllərində Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının iclasında Surət Hüseynovun hərəkətləri müzakirə edilərkən bəzi professorlar onu müdafiə etdilər. Bu, onu göstərirdi ki, heç də hamı ölkədəki siyasi vəziyyəti düzgün dəyərləndirə bilmir. Atalarımız demişkən, xalqın gözü tərəzidir, o, nicatın yalnız Ulu öndərdə olduğuna əmin idi, ona görə də yeganə doğru seçimini edərək öz sınanmış rəhbərinə üz tutdu və onun hakimiyyətə gəlməsini israrla tələb etdi. Xalqını canından çox sevən Heydər Əliyev bu məqamda başqa seçim edə bilməzdi. Ona görə də o, heç bir təhlükəyə məhəl qoymadan insanların çağırışını qəbul edərək, 9 iyun 1993-cü il tarixdə Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu böyük qayıdışından sonra ölkəni dərin böhrandan, əslində, dövlətçiliyi süquta uğramaqdan və müstəqilliyi itirmək təhlükəsindən xilas etmək üçün qısa müddət ərzində Respublika ərazisinə səpələnmiş silahlı cinayətkar dəstələr zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı, separatçı meyllərə son qoyuldu, ictimai-siyasi sabitlik bərqərar edildi ki, bütün bunlar hərtərəfli islahatların başlanmasına zəmin yaratdi. İndi sağlam düşüncəli hər bir Azərbaycan vətəndaşı çox yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin dövrdə Ümummilli lider xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu şübhə altına düşə bilərdi.

Ölkəmizin tarixinin ən möhtəşəm hadisələrindən biri olan məşhur tarixi qayıdış nəticəsində yaradılan dayanıqlı siyasi sabitliyin ardınca iqtisadiyyatda tənəzzülün cilovlanması, maliyyə nizam-intizamının yaradılması, aqrar islahatların həyata keçirilməsi, yeni iqtisadi sistemə keçidi təmin edən cəsarətli addımların atılması zəruri idi. Azərbaycana qarşı yönəlmiş müxtəlif təzyiq və təhlükələrin dəf edilərək birdəfəlik neytrallaşmasında Heydər Əliyev dühasının məhsulu olan neft strategiyasının müstəsna rol oynadığını xüsusi qeyd etməyə ehtiyac vardır.

Ulu öndərin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Onun bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ümummilli liderin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Həmin investisiyalar iqtisadi sabitliyin bərqərar olmasında böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün geniş imkanlar yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və xalqımızın taleyində neft strategiyasının nə qədər böyük əhəmiyyət daşıdığını Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqində lakonik şəkildə belə ifadə etmişdir: "Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Əgər 1994-cü ildə, o çətin şəraitdə "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Azərbaycanın bir çox sahəsi məhz "Əsrin müqaviləsi"ndən sonra inkişaf etməyə başladı. Bu müqavilə bir növ bütün iqtisadi inkişaf üçün möhkəm təkan verdi. Azərbaycanın qarşısında duran sosial məsələlər daha da uğurla həll olunmağa başladı".

Ulu öndərin həyata keçirdiyi nəhəng geosiyasi layihələr sırasında Bakı – Tbilisi – Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geosiyasi baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin – Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

Heç şübhəsiz, müasir dövrdə enerji təhlükəsizliyi bütün dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də, Azərbaycanın, o cümlədən, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların manеələrinə baxmayaraq, Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi. Bu layihələrin reallaşması Ümummilli liderin uğuru, onun böyük şəxsiyyət olaraq tarixi prosesə göstərdiyi təsirlərin nəticəsi idi. Məhz bu səbəbdən Azərbaycanın regionda yeri daha da möhkəmləndi, beynəlxalq təşkilatlarda nüfuzu artdı. Azərbaycanın artan nüfuzunun nəticəsidir ki, respublikamız bölgənin lider dövlətinə çevrildi, Ermənistanın Azərbaycana təcavüzü BMT səviyyəsində, ATƏT çərçivəsində ölkəmizin xeyrinə qərar və qətnamələrin qəbul edilməsi ilə müşayiət olundu.

Ulu öndər qısa müddətdə ölkəyə investisiya axınını stimullaşdıran müasir innovativ inkişaf modelinin gerçəkləşdirilməsinə nail oldu. Bu model özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə yol açan, liberallığı özündə ehtiva edən və sosialyönümlü mahiyyət daşıyan iqtisadiyyat modeli idi. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır", – deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur. Sabitliyin və əlverişli iqtisadi mühitin yaradılması nəticəsində Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin və şirkətlərin sayı, ölkəmizin bu gününə və gələcəyinə inam artdı. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi.

Ulu öndərin əsasını qoyduğu yeni neft strategiyası bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən yeni neft strategiyası xalqımızın öz sərvətinə sahib olmasında mühüm rol oynayır. Bu gün BTC və BTƏ Qərblə Şərq arasında körpü rolunu oynayır. Həmin layihələr Xəzər regionu ilə Avropa arasında qırılmaz tellərdir, Azərbaycanla Türkiyəni polad kəmərlərlə bir-birinə bağlayıb. Belə möhkəm bağlılığı bədxah qüvvələr, çirkin niyyətli dairələr qıra bilməzlər. Hazırda Azərbaycanın razılığı və iştirakı olmadan Qafqazda hansısa qlobal bir layihəni həyata keçirmək mümkün deyil. Bütün bunlar Heydər Əliyevin başladığı böyük siyasətin davamı və məntiqi nəticəsidir.

Heydər Əliyev canlı məktəb, canlı klassika, tarixin canlı örnəyi idi. Dəmir məntiqi, parlaq zəkası, iti mühakimə qabiliyyəti, fitri istedad sayılacaq fenomenal yaddaşı, möhkəm xarakteri, ən çıxılmaz vəziyyətlərdən, mürəkkəb situasiyalardan çıxmaq bacarığı onu hamıdan fərqləndirirdi. O, anadangəlmə lider, misilsiz təşkilatçı, mükəmməl və universal şəxsiyyət idi.

Ulu öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində atdığı mühüm addımlarından biri də cəmiyyətin bütövlüyünün təmin olunması, milli ideologiyanın sistem halında təqdim edilməsi idi. O, böyük müdrikliklə cəmiyyətin monolitliyini təmin edərək, onun müxtəlif istiqamətlər – sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan verməmişdir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" – deyən Ümummilli lider dünya azərbaycanlılarını azərbaycançılıq ideologiyası ətrafında səfərbər etmişdir. Bu ideologiya milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi nəticəsidir. Milli-mənəvi dəyərlərin qorunması məsələsi də Heydər Əliyevin fəaliyyətində aparıcı xətt kimi özünü göstərmişdir. O istər ailədə, istər hansısa dar çevrədə, istərsə də dövlət idarəçiliyində və cəmiyyətdə daim milli-mənəvi, əxlaqi dəyərlərə sadiq qalmışdır. İdarəçiliyinin bütün mərhələlərində qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması da, əslində, onun zəngin mənəviyyatından irəli gəlirdi. Böyük strateq həmişə vurğulayırdı ki, Azərbaycan xalqının əsrlər boyu əldə etdiyi milli-mənəvi dəyərlər mədəniyyətdən, əxlaqdan, adət-ənənələrdən və digər insani keyfiyyətlərdən ibarətdir.

Onu da yaxşı xatırlayıram ki, Ulu öndərin rəhbərliyi ilə dar çərçivədə keçirilən tədbirlərin əvvəlində o, dönə-dönə deyirdi ki, "hər bir insanın mənəviyyatının əsas göstəricisi milli-əxlaqi dəyərlərdir. Mən harada və hansı mühitdə çalışmağımdan asılı olmayaraq həyatım boyu bu dəyərlərə sadiq olmuşam." Söhbətinin sonunda bizə milli-əxlaqi dəyərlərə daim sadiq qalmağı tapşırardı.

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının demokratik, hüquqi və dünyəvi dövlət kimi möhkəm təməllər üzərində inkişaf etməsi, sosial-iqtisadi həyatın bütün sahələrini əhatə edən köklü dəyişikliklər və dərin islahatların həyata keçirilməsi məhz Ümummilli liderin adı ilə bağlıdır.

Ulu öndər Azərbaycana rəhbərlik etdiyi 1993–2003-cü illər ölkə üçün həlledici dövr oldu. Məhz həmin illər milli dövlətçiliyin möhkəm təməli qoyuldu, Azərbaycan Respublikasının istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi. Qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiya aradan qaldırıldı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, milli ideologiyamız işlənib hazırlandı, siyasi islahatlar aparılmağa başlandı, demokratik inkişafla bağlı önəmli qanunlar, o cümlədən, təhsilə dair vacib qərarlar qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı. Bütün bunların nəticəsində, obrazlı desək, Azərbaycan lokomotivi tozlu-torpaqlı, daşlı-kəsəkli, gələcəyi naməlum cığırlardan hamar dəmir yolu relsinin üzərinə çıxa bildi və uzaq, aydın, parlaq səhərlərə doğru məqsədyönlü səfərə başladı. O, Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, xalq məhəbbətini qazanan şəxsiyyət kimi qalmışdır.

Ötən əsrin 70-ci illərində yaşamış insanlardan biri kimi yaxşı xatırlayıram ki, Moskvadakı yüksək nüfuzundan və ölkə başçısı Brejnevlə şəxsi əlaqələrindən türk xalqlarının mənafeyi naminə istifadə edərək Heydər Əliyev axısqa türklərinin doğma vətənlərinə qaytarılması məsələsini həll etməyə çalışırdı. Məlum olduğu kimi, Gürcüstan Respublikasının Mesxetiya regionunda yaşayan bütün axısqa türkləri 1944-cü ilin noyabrında sovet hökuməti tərəfindən məcburi şəkildə Mərkəzi Asiyaya, daha dəqiqi Qazaxıstan, Qırğızıstan və Özbəkistana köçürülmüşdü. Ulu öndər bu deportasiyanın sonralar Gürcüstanda və Ermənistanda yaşayan soydaşlarımıza qarşı da tətbiq ediləcəyindən ehtiyat edərək (təəssüf ki, onun bu proqnozları da düz çıxdı) və türk xalqlarına qarşı bu ədalətsizliklə barışmayaraq Qazaxıstanın rəhbəri Dinməhəmməd Kunayevdən və Özbəkistanın dövlət başçısı Şərəf Rəşidovdan axısqa türklərinin doğma yurdlarına qaytarılması barədə razılıq almış və Brejnevlə bu barədə danışmışdı. Təəssüf ki, bu hadisədən xəbər tutan Gürcüstanın lideri Şevardnadze həmin regionda gürcülərin məskunlaşdırıldığını, bu məsələnin milli qarşıdurmaya gətirib çıxaracağını əsas gətirərək Brejnev və Siyasi Büro üzvlərindən köçürülmənin qarşısının alınması barədə qərarın qəbul edilməsinə nail olmuşdu. Ümummilli liderin bu yüksək humanistlik, insanların dədə-babalarının uyuduğu doğma torpaqlarına qaytarmaq arzusu baş tutmasa da, faktın özü onun təkcə Azərbaycan xalqının deyil, bütün Türk dünyasının lideri olmasını bir daha təsdiq edir.

Bununla bağlı daha bir məlumatı hörmətli oxucuların diqqətinə çatdırmaq istəyirəm, 1986-cı ildə Qorbaçovun kobud səhvlərindən biri hesab edilən Qazaxıstanda böyük nüfuz sahibi olan Dinməhəmməd Kunayevin vəzifədən kənarlaşdırılması və onun yerinə milliyyətcə rus olan Gennadi Kolbin adlı bir nəfərin təyin edilməsi məsələsi Siyasi Büroda müzakirə edilərkən yalnız Heydər Əliyev bu təklifin əleyhinə çıxmışdı və həmin tarixdən etibarən Qorbaçovla münasibətlərinin kəskinləşməsinə baxmayaraq cəsarətlə demişdi ki, Kolbin Qazax xalqını tanımır, Qazaxıstanda işləməyib, yaxşı olar ki, oraya yerli millətin nümayəndəsi təyin olunsun. Bu təklif nəzərə alınmasa da, qazax xalqının rus müstəmləkəçilik siyasətinə qarşı böyük etiraz dalğası başladı, Qazaxıstanda, hətta bütün SSRİ-də sabitlik pozuldu və nəticədə dəhşətli faciələr baş verdi. Ulu öndərin siyasi intuisiyası və türkçülük amalı isə tarixin yaddaşına yazıldı.

Canlı şahid kimi qeyd etmək istəyirəm ki, Ulu öndərin siyasətində təhsil sistemi həmişə prioritetlərdən biri olmuşdur. O hamıdan yaxşı bilirdi ki, hər bir millətin və dövlətin gələcəyi onun təhsil sistemi ilə əlaqədardır. Heydər Əliyev deyirdi: "Təhsil millətin gələcəyidir, mən dünyada müəllimdən yüksək ad tanımıram, bizim hər birimiz bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Mən məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət haradan olursa olsun, nədən olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir..."

Yaxşı xatırlayıram, məni ölkənin Təhsil naziri vəzifəsinə təyin edərkən verdiyi çoxsaylı tövsiyələr arasında ölkədə əsaslı təhsil islahatlarının həyata keçirilməsi ilə bağlı ciddi bir proqramın hazırlanması barədə tapşırıq da var idi: "Beş əsas məsələni diqqət mərkəzində saxlamaq lazımdır. Birincisi təhsil sistemində hər bir yeniləşmə inqilabi deyil, təkamül yolu ilə aparılmalıdır; ikincisi, dünyanın inkişaf etmiş ölkələrinin təhsil sistemində aparılmış islahatların nəticələri ilə yaxından tanış olmaq lazımdır; üçüncüsü, heç bir ölkənin təhsil sistemini olduğu kimi Azərbaycanda qurulmasına yol vermək olmaz; dördüncü, xalqımızın milli-mənəvi xüsusiyyətlərindən, milli mentalitetindən, xüsusən təhsil sahəsində XX əsrdə ölkəmizdə formalaşmış mütərəqqi ənənələrdən səmərəli istifadə olunmalıdır; nəhayət, Azərbaycanda təhsil sistemini formalaşdırarkən ilk növbədə milli, sonra isə ümumbəşəri dəyərlərə üstünlük verilməlidir."

Mən artıq yaşa dolmuşam, Azərbaycanın yaxın-uzaq tarixinə bələd olan təcrübəli bir insan kimi hər zaman tam məsuliyyətimlə deyirəm ki, ölkəmizi ötən əsrin 90-cı illərinin burulğanlarından çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyev idi. O məqamlarda Heydər Əliyevdən başqa heç kəs bunun öhdəsindən gələ bilməzdi.

Ulu öndər Azərbaycanı, demək olar ki, təməldən başlayaraq yenidən qurdu. Ölkəni ayağa qaldırdı və ömrünün sonlarına doğru hakimiyyət sükanını layiqli davamçısına verdi. Onun Azərbaycan üçün bir yox, on qəzet məqaləsinə sığmayacaq qədər gördüyü işlərin ən böyüyü heç şübhəsiz, cənab Prezidentin timsalında ölkənin taleyini Azərbaycanın müstəqilliyini qoruyan, onu tarixinin ən qüdrətli mərhələsinə yetirən güclü liderə əmanət etməsidir. "Mən gələcək nəsillərə çox güclü, qüdrətli, iqtisadi cəhətdən inkişaf etmiş Azərbaycan qoyub getmək istəyirəm" – bildirən Heydər Əliyev dediyi sözə əməl etdi.

Ümummilli liderə həm də ona görə minnətdarıq ki, o böyük zəhmətlər hesabına qurduğu müstəqil Azərbaycanın və onun vətəndaşlarının, dünya azərbaycanlılarının xoşbəxt gələcəyinin təminatçısı ola biləcək güclü bir siyasətçi yetişdirdi. Ona və onun timsalında Azərbaycanın xoşbəxt gələcəyinə inandı. Prezident İlham Əliyev Ulu öndər məktəbinin yetirməsi, qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində dövlətin və xalqın maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

İxtisasıma və həyat təcrübəmə görə bir məsələni də qətiyyətlə deyərdim ki, ümummilli lider Heydər Əliyev Azərbaycan tarixinin ən qüdrətli şəxsiyyətlərindən biri olmaqla yanaşı, həm də ən böyük müəllimlərindən biri olmuşdur. Tarixi yarada-yarada onu öyrədən, onun mürəkkəbliyini və bu çətinlikləri necə şərəflə dəf etməyi tədris edən, eyni zamanda, dəyanətdən, ləyaqətdən, idarəçilikdən, iqtisadiyyatdan, cəsarətdən, mədəniyyətdən, həssaslıqdan və daha neçə-neçə müxtəlif fənlərdən dərs deyən, özü də sadə dərs yox-yüksək səviyyəli master klass verən müəllimə bənzəyirdi.

Prezident İlham Əliyev öz xatirələrində qeyd edir ki, "atam çox zəhmli, tələbkar, ciddi bir adam idi. Belə olması ilə yanaşı, uşaq yaşlarımdan onun evdə ailə üzvləri ilə qayğıkeş münasibətləri, anama və bizə həssaslığı mənim diqqətimi çəkirdi. O, bizə ailədə sağlam mühitin zəruriliyi haqda nəsihətlər vermirdi, bunu əyani göstərib öyrədirdi. Mən həyatda ən çox ondan, onun şəxsi nümunədə göstərdiklərindən öyrənmişəm".

Sonralar Ulu öndərin dəstəyi ilə böyük siyasət meydanına daxil olarkən dövlət başçımız ən mürəkkəb məqamlarda düzgün qərarlar vermək, ləyaqət və şərəfi hər şeydən uca tutmaq, fədakarlıq, milli maraqları müqəddəs hesab etmək, böyük amallara sədaqət kimi nəcib keyfiyyətləri daha da inkişaf etdirdi. Hələ sağlığında əfsanələşən, sarsılmaz iradəyə malik olan, bütün mənalarda zamanı qabaqlayan, xalqımızın yaddaşına Ulu öndər kimi həkk olunan Heydər Əliyev fenomeni Azərbaycanın son 50 ildən çoxunun, xüsusilə müstəqillik dönəminin tarixini yazarkən onunla çiyin-çiyinə addımlayan möhtərəm Prezidentimiz hərf-hərf nəqş edilən bu yazıların incəliklərini mənimsəmişdir. Dahi rəhbər xalqımızın ən çətin anında – sovet imperiyasının dağıldığı, ölkənin vətəndaş müharibəsi ilə üzbəüz qaldığı, insanların ruhdan düşdüyü bir dövrdə siyasi meydana xalqın xilaskarı kimi daxil olarkən, torpaqların itirildiyi, qaçqın və köçkünlərin artdığı bir zamanda Azərbaycan xalqına ruh verərkən, XX əsrin 60-cı illərindən ömrünün sonuna qədər məqsədyönlü və ardıcıl fəaliyyət göstərərək vətəndaşlarda azadlıq, müstəqillik ideyaları formalaşdırarkən, təhlükə qarşısında qalan müstəqilliyimizi qorumaq və möhkəmləndirmək üçün özünü qadir sərkərdəyə, milləti isə cəsur əsgərə çevirərkən cənab İlham Əliyev onun həyat məktəbinin ən yaxşı tələbəsi kimi öyrənirdi. Sonralar bu öyrəndikləri ona Azərbaycanı regionun aparıcı dövlətinə çevirməkdə, xalqın maddi rifah halının yüksəlməsində, 44 günlük müharibədə şanlı Qələbənin əldə edilməsində çox yardımçı olacaqdı.

Ümummilli lider Azərbaycana ölkənin məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda gəldi və Azərbaycanı nəinki xilas etdi, onu həm də yalnız regionun yox, bütün Türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi. Hər kəsə tarixin yaddaşına köçmək, əbədi yaşamaq haqqı qazanmaq nəsib olmur. Bunun üçün fitri istedada malik olmaq, Tanrının bəxş etdiyi ömrü xalqının yaxşı yaşaması yolunda şam kimi əritmək lazımdır. Bəli, Heydər Əliyev bir çox cəhətlərinə görə nadir tarixi şəxsiyyət kimi yaddaşlara həkk olunub. Ən başlıcası isə odur ki, Ulu öndər ömrünü xalqının azadlığı, istiqlalı, Vətəninin müstəqilliyi, insanların xoşbəxt, təhlükəsiz, rahat yaşaması naminə apardığı mübarizəyə həsr etdi və başladığı haqq-ədalət mübadiləsini zəfərlə başa çatdırdı. Ulu öndərin "Türkiyə Cümhuriyyəti Atatürkün yalnız fəaliyyəti nəticəsində deyil, həm də qəhrəmanlığı nəticəsində yaranmışdır" sözləri eyni zamanda onun özünün tarixi xidmətini də ifadə edir.

Qeyd etmək istərdim ki, Prezident İlham Əliyev həm də praqmatik siyasətçidir, hadisələri, prosesləri dəqiq qiymətləndirir, mühüm məsələlərin elmi cəhətdən əsaslandırılmış həlli yollarını təqdim edir, verdiyi bütün vədləri gerçəkləşdirir: "Biz 30 ilə yaxın idi ki, həmişə deyirdik ki, gün gələcək doğma ata-baba torpaqlarımıza qayıdacağıq." Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən Zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə müzəffər Ali Baş Komandan həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" – deyən Ulu öndərin arzusunu reallaşdırdı. Bununla da Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı, Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaratdı və 44 günlük Vətən Müharibəsinin əsl qəhrəmanına çevrildi. Həmçinin, bütün dünya Azərbaycan dövlətinin ədalətli mübarizəsinin bir daha şahidi oldu.

Dünyada ən mötəbər beynəlxalq forumlardan biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının– COP29-un bu yaxınlarda ölkəmizdə keçirilməsi də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ulu öndərin yolunun davamı olan xarici siyasətinin mühüm nəticələrindən biri hesab olunmalıdır. Fikrimcə, Azərbaycan Respublikasının Prezidentinin böyük iradəsi, əzmkarlığı, cəsarəti, siyasi müdrikliyi və gərgin əməyi nəticəsində COP29-un Azərbaycanda yüksək səviyyədə təşkili və keçirilməsi bu tədbirin BMT tarixində ən möhtəşəm beynəlxalq forumlardan biri kimi yadda qalmasına səbəb oldu və bəşəriyyətin ekoloji təhlükəsizliyinin təmin edilməsində yeni mərhələnin başlanğıcına çevrildi. 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un bəşəriyyət üçün uğurlu nəticələri dövlətimizin növbəti uğurudur.

Bu hadisə də, 44 günlük müharibədə qazandığımız şanlı Zəfər də, indiyədək iqtisadiyyat, siyasət, mədəniyyət, elm, təhsil, idman, səhiyyə və digər sahələrdə qazanılmış uğurlar da uca xatirəsi önündə baş əydiyimiz Heydər Əliyevin vəsiyyətlərinin gerçəkləşməsi deməkdir və onun müqəddəs ruhunu şad edir.

# Gələcəyi yaradan lider

*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı, fəlsəfə doktoru*

**Bütün xalqların tarixində ağır sınaq qarşısında birləşmək və təhlükəyə qarşı özünün ən böyük gücünü ortaya qoymaq instinkti var. Bir qayda olaraq, qarşısının alınması mümkün görünməyən real təhlükə ərəfəsində bu instinkt siyasi baxışlarından asılı olmayaraq, cəmiyyətin bütün təbəqələrini yeganə ümid ətrafında birləşmək üçün sonuncu cəhdə səfərbər edir. Yenə də, bir qayda olaraq, yeganə ümid rolunda toplumun ən müdrik şəxsiyyəti çıxış edir və cəmiyyətin bir müdrik şəxs ətrafında kütləvi səfərbərliyi həlledici gücə çevrilir. Belə bir monolit güc o zamanadək qeyri-mümkün görünən bütün sədləri aşır, çıxılmazlıqdan xilas yollarını tapır, cəmiyyətin və dövlətin varlığını təhdid edən ən böyük təhlükəni bir an içində böyük məsafəyə uzaqlaşdıra bilir. Dövrümüzün ictimai-siyasi reallıqları, geosiyasi məkanda baş verən dəyişikliklər və bütün bu təlatümlərin fövqündə dayanan müasir milli dövlətçiliyimizin mükəmməl bir məntiqdən – Heydər Əliyev zəkasından yoğrulduğunu bir daha sübut edir.**

1993-cü ildən bəri ötən hər il Heydər Əliyev zəkasının böyüklüyünü, müdrikliyini və möhtəşəmliyini bir daha üzə çıxarır. Zaman Heydər Əliyevin siyasi baxışlarına daha dərin məna qazandırır, onun Vətənimizin indisinə və gələcəyinə çox möhkəm tellərlə bağlı olduğunu bir daha nümayiş etdirir.

Dünya tarixində buna bənzər bir sıra ibrətamiz hadisələr var. Məsələn, Birinci Dünya müharibəsində didilib parçalanmış və tamamilə məhv olmaq təhlükəsi qarşısında dayanan Türkiyə ən çətin sınaq məqamında öz ümidini Türk dünyasının böyük şəxsiyyəti Mustafa Kamal Atatürkün zəkasına və məharətinə bağladı və məhz onun şəxsiyyəti üzərində səfərbər olan ümummilli mübarizə əzmi Türkiyəni qələbəyə apardı.

İkinci Dünya müharibəsində ingilis xalqının alman faşizminə qarşı mübarizə ruhu Uinston Çörçilin şəxsiyyəti üzərində öz təcəssümünü tapdı. Yenə də İkinci Dünya müharibəsində işğal altında qalan fransız xalqının azadlıq mübarizəsinin nüvəsində Şarl de Qoll şəxsiyyəti dayandı.

1990-cı illərin əvvəllərində Azərbaycanda yaranmış hərbi-siyasi vəziyyət sadaladığımız hadisələr qədər gərgin və təhlükəli idi. Zaman da dəyişmişdi. Mürəkkəb siyasi texnologiyaların təşəkkül tapdığı, ifrat dərəcədə differensiallaşmış çoxqütblü qlobal siyasi məkanda hadisələrin axarını istənilən səmtə yönəltmək artıq o qədər də asan deyildi. Belə bir mürəkkəb vəziyyətdə ölkəmizdə xalqın azadlığını və dövlətin müstəqilliyini qoruyub saxlamaq missiyası Heydər Əliyevə nəsib oldu.

Bu dövrün mürəkkəbliyi ondan ibarət idi ki, dünyanın təşkil olunduğu ikiqütblü qlobal siyasi sistem özü dağılmışdı. Dağıntılar içərisində xalqların öz azadlığına qovuşmaq və öz dövlət müstəqilliyini əldə etmək arzuları ilə o zamanadək dünya siyasətində aparıcı rol oynayan güc sahiblərinin məqsədləri bir-birinə tərs mütənasib idi. Böyük güc sahibləri üçün dünya siyasi xəritəsində çoxsaylı xırda dövlətlərin meydana gəlməsi və onlarla ayrı-ayrılıqda işbirliyi qurmaq və ya mübarizə aparmaq məcburiyyətində qalması böyük dövlətlərin marağında deyildi. Bir tərəfdən, xalqların azadlıq ideallarını, onların müstəqilliyə qovuşmaq arzularını təqdir edərək onların demokratik dünya birliyinə can atmasını alqışlasalar da, digər tərəfdən gündən-günə sayı çoxalan milli dövlətləri öz təsir dairələrində saxlamağın çətin olacağını bilərək böyük dövlətlər bu prosesləri dəstəkləməyə o qədər də tələsmirdilər.

Digər tərəfdən, sovet imperiyası hələ özünün dağılma prosesinin içində ikən özündən qopan milli dövlətin yenidən hansı yolla itaət altına salınmasının yollarını düşünürdü.

Moldovada, Gürcüstanda, Qazaxıstanda və Baltikyanı ölkələrdə baş verən hadisələrlə yanaşı, Azərbaycanda cərəyan edən dərin hərbi-siyasi böhran daha mürəkkəb, daha çoxgedişli və müstəqilliyimizi itirmək baxımından daha təhlükəli idi. Dağlıq Qarabağ ərazisinin tamamilə itirilməsi, ətraf rayonların mühasirə şəraitində hər cür kömək göstərilməkdən məhrum olduğu bir şəraitdə, xarici qüvvələr tərəfindən ölkənin müxtəlif hissələrində separatçılıq fəaliyyətinin qızışdırılması və dəstəklənməsi, qeyri-müəyyənlik məngənəsində imperiya casuslarının ölkəni vətəndaş müharibəsinə sürükləməsi Azərbaycan dövlətçiliyinin mövcudluğunu ciddi sual altına qoymuşdu. Məhz belə bir təhlükə qarşısında bütün xalq və eləcə də bir-birinə kəskin müxalifətdə dayanan siyasi qüvvələr nəzərlərini xalqın yetişdirdiyi ən müdrik şəxsiyyətə – Heydər Əliyevə yönəltdilər. Xaosun miqyasından dəhşətə gələn və xalqın yekdil tələbi qarşısında başqa çıxış yolu qalmayan o zamankı hakimiyyət israrla Heydər Əliyevi hakimiyyətə dəvət edərək daşıya bilmədikləri yükün məsuliyyətindən yaxalarını qurtarmaq üçün hakimiyyəti buraxıb qaçdı.

Təəssüf ki, o zamankı Azərbaycan hakimiyyəti həmin dövrdə dünya siyasətinin nəhəng simalarından biri hesab olunan, xalqımızın qəlbində millət atası kimi yaşayan Heydər Əliyevin hadisələrə lap başlanğıcında ikən müdaxilə etməsinə şərait yaratmadılar. Əksinə, siyasət nəhəngi Heydər Əliyevin Azərbaycanda aktiv siyasətə qayıtmasına əngəllər törətmək fikrinə düşdülər.

Lakin hadisələrin sonrakı gedişi onu göstərdi ki, belə bir mürəkkəb hərbi-siyasi şəraitdə hadisələri idarə etmək və ən başlıcası, Azərbaycanın yenicə bərpa olunmuş müstəqilliyini qoruyub saxlamaq xalqı birləşdirəcək yeganə şəxsiyyət Heydər Əliyevsiz mümkün olmayacaq. Məhz bunun dərk olunduğu bir zamanda ölkənin müxtəlif hissələrə parçalanaraq öz dövlətçiliyini itirmək təhlükəsi qarşısında Azərbaycan xalqı yekdil şəkildə Heydər Əliyev şəxsiyyəti ətrafında birləşdi. O zamankı hakimiyyətin Heydər Əliyevi Bakıya dəvət edib siyasi hakimiyyəti ona təhvil verməkdən başqa yolu qalmadı.



Heydər Əliyev zəkası Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş xarici və daxili təzyiqlərin, hərbi müdaxilənin qarşısını ala bildi. Xalq da məhz bunu gözləyirdi və buna inanırdı. Bu inamı yaradan Heydər Əliyevin Azərbaycan xalqının gözləri qarşısında keçən həyatı və fəaliyyəti olmuşdu. Hələ 1969-cu ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə qədər Azərbaycan Sovet İttifaqının tənəzzül içində boğulan geridə qalmış respublikalarından biri idi. Həmin ildən başlayaraq Azərbaycana rəhbərlik edən Heydər Əliyevin fəaliyyəti nəticəsində cəmi on il ərzində ölkə iqtisadi, mədəni, sosial inkişafına görə İttifaq daxilində ən yüksək pilləyə qalxa bildi. Məhz o dövrdə İttifaq çərçivəsində olsa da Azərbaycanın milli dövlətçilik strukturlarının təşəkkül tapması, Azərbaycan vətəndaşının sovetlər birliyi çərçivəsində yüksək mədəni, intellektual potensiala yiyələnməsi baş tuturdu.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan xalqına bu nadir fürsəti verdi. Bu imkandan məharətlə, zərgər dəqiqliyi ilə istifadə edən Heydər Əliyev bu vəzifənin öhdəsindən layiqincə gəldi. O, qısa bir müddət ərzində atəşkəsin əldə olunmasına, qüvvələrin səfərbər edilməsi üçün zəruri olan təşkilatlanma fəaliyyətinin həyata keçirilməsinə, iqtisadi tənəzzülün dayandırılmasına və ölkənin davamlı inkişafına yol açan sabitliyin təmin edilməsinə nail oldu.

Böyük siyasi mütəfəkkir kimi, Heydər Əliyevin keçdiyi həyat yolu və bütöv bir xalqın gələcəyini müəyyən edən uğurlu siyasi kursunun kökündə dayanan səbəblər haqqında çoxsaylı dəyərli əsərlər yazılır. Bu araşdırmalarda Heydər Əliyev yeni tarixdə xalqımızın yetişdirdiyi ən böyük dühа sahibi kimi xarakterizə olunur və bu, şəksizdir. Lakin Heydər Əliyev şəxsiyyətinə təkcə Azərbaycan kontekstində deyil, daha geniş miqyasda – XX əsrin qlobal siyasi aynasında baxmaq, dünya siyasətinin formalaşmasında mühüm rol oynamış siyasi xadimlərlə bir sırada nəzər salmaq onun siyasi portretini daha önəmli cizgilərlə zənginləşdirmiş olar.

Məhz bu rakursda biz Heydər Əliyevi bütün ömrü boyu müasir dünya siyasətinin qaynar məkanında, onun yaradıcıları və yönləndiricilərinin ön sıralarında görürük. Xüsusən, sovet dövrünün son illərində, kommunist ideologiyasının tənəzzülü fonunda yürüdülən Qorbaçov siyasətinə qarşı çıxması və heç kim tərəfindən anlaşılmayan qeyri-müəyyən bir siyasəti dəstəkləməkdən imtina etməsi onu dövrün pozitiv siyasi perspektivlərini düzgün müəyyən edə bilən yeganə sovet siyasətçisi kimi tanıdır.

Hadisələrin sonrakı inkişafı da göstərdi ki, sovet liderləri arasında postsovet məkanında müstəqilləşmə epoxasının zərurətlərini duyan və siyasətdə yeni yolun trayektoriyasını dəqiqliklə cıza bilən, yeni dövrün qüsursuz siyasi-ideoloji kursunu ərsəyə gətirən yeganə siyasətçi məhz Heydər Əliyev oldu. Bu baxımdan, öz dövrünün ən uzaqgörən dövlət xadimi və ən praqmatik siyasətçisi kimi tanınan Heydər Əliyev ümumbəşəri dəyərlərin daşıyıcısı missiyasına yüksələn universal şəxsiyyət kimi regionun coğrafi sərhədlərinə sığmayaraq ümumdünya kontekstinə çıxır.

Heydər Əliyevin siyasi fəaliyyəti, əsasən, XX əsrin ikinci yarısı ilə bağlıdır. Bütövlükdə, XX əsr bəşər tarixində bir çox təlatümlü hadisələrin baş verdiyi, iki dünya müharibəsinin od ələdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, siyasi və iqtisadi böhranların qaçılmaz olduğu və eyni zamanda, dünya inkişafına təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi tarixə düşdü. Baş verən bütün bu proseslər dünyanın bugünkü mənzərəsini ərsəyə gətirməklə yanaşı, həm də siyasətdə aparıcı şəxsiyyətlərin, dövlətlərin və bütövlükdə bəşəriyyətin taleyində nə qədər önəmli rol oynadığını göstərdi.

Məhz buna görə Azərbaycanın üzləşdiyi təcavüz və ermənilər tərəfindən milli ayrı-seçkilik zəminində etnik təmizləmə siyasəti təkcə milli təhlükəsizliyimizi deyil, eyni zamanda, bəşəri dəyərləri təhdid edən, beynəlxalq hüquqa zidd olan təhlükəli tendensiya xarakteri almışdı. Belə bir məqamda erməni faşizminə qarşı ümummilli cəbhəni formalaşdıra bilməsi məhz Heydər Əliyev şəxsiyyətinin qüdrəti idi. Xüsusilə, 1994-cü ilin aprelində düşmən hücumlarının kəskinləşdiyi məqamda Heydər Əliyevin xalqa müraciətini xatırlamaq yerinə düşər. Ağdam, Tərtər, Füzuli rayonları istiqamətində erməni qoşun birləşmələrinin aramsız hücumlarını dəf etmək ümummilli səfərbərliyin ən yüksək şəkildə təşkili zərurətini yaratmışdı. Belə bir anda Heydər Əliyevin soyuqqanlı və bir o qədər də qətiyyətli, xalqın vətənpərvərlik hisslərini alovlandıran müraciətindən sonra qısa zaman ərzində cəbhədə əhəmiyyətli dönüş yarandı, düşmən tapdağında olan bir neçə qəsəbə və kəndlərimiz işğaldan azad olundu. Cəbhədə yaranan dönüş tez bir zamanda düşməni atəşkəs sazişi imzalamağa məcbur etdi. Məhz bu tarixdən başlayaraq Azərbaycanda daha sistemli və vahid mərkəzdən idarə olunan ordu quruculuğuna start verildi.

Zaman-zaman Azərbaycan dövlətçiliyinə qarşı qəsdlərin, dövlət çevrilişi cəhdlərinin müstəqilliyimizin və gənc dövlətimizin məhv olması təhlükəsini ortaya çıxardığı anlarda Heydər Əliyevin fövqəladə çevikliklə öz qətiyyətli mövqeyini birbaşa xalqa ünvanlaması və bir anda bütün xalqı təhlükəyə qarşı birləşdirməyə nail ola bilməsi də onun siyasi cəsarətinin və xalqla rəhbər arasında qarşılıqlı inamın nadir nümunəsidir.

Heydər Əliyev şəxsiyyətinin özünəməxsusluğu da xüsusi əhəmiyyət kəsb edir. O, bir çox siyasətçi müasirlərindən fərqli olaraq təkcə öz dövrünün deyil, daha geniş zaman çərçivəsində baş verən ictimai-siyasi proseslərin axarını müəyyən edə bilən güclü siyasi iradə sahibi, yeni dünya tarixinin rasional siyasətçisi, uzaqgörən bir dövlət xadimidir. Heydər Əliyev təkcə gələcəyi görmür, həm də o gələcəyi yaradırdı: Sabaha doğru gedən yolu açır və insanları o yolla getməyə səfərbər edirdi.

Bütün siyasi karyerası boyunca Heydər Əliyevə qarşı qısqanc münasibətin, zaman-zaman edilən xəyanətlərin kökündə də məhz onun öz zəhməti ilə qazandığı böyük nüfuzun "təhlükəsi" dayanırdı. SSRİ-nin sonuncu rəhbəri olmuş Mixail Qorbaçovun Heydər Əliyevə qarşı qərəzli münasibəti bunun bariz nümunəsidir. Malik olduğu keyfiyyətlərlə tutduğu siyasi vəzifənin məsuliyyəti arasında dərin uçurum olan bu şəxsin parlaq zəkaya malik bir şəxsiyyətə – Heydər Əliyevə qarşı qərəzli münasibəti də məhz o "təhlükə"nin duyğusundan qaynaqlanırdı.

Nahaq yerə deyilmir ki, zaman tarix boyunca əsl həqiqətləri üzə çıxaran, kimin kim olduğunu tam çılpaqlığı ilə göstərən ən dürüst mizan-tərəzidir. Tarixin üzə çıxardığı ədalət və reallıq isə bundan ibarətdir: Qorbaçov öz adını tarixə böyük bir dövləti dağıdan, əli qana bulaşmış cinayətkar bir şəxs kimi, Heydər Əliyev isə Azərbaycan adlı məmləkəti yenidən quran, onun müstəqilliyini əbədi və sarsılmaz edən şəxsiyyət kimi yazdırdı. Bu da tarixin mizan-tərəzisi!

Sovet İttifaqının süqutundan sonra müstəqilliyini bərpa edən dövlətlərin bugünkü siyasi-iqtisadi durumu, regional və qlobal miqyasda tutduqları yer həmin dövlətlərə rəhbərlik etmiş şəxslərin seçdikləri siyasi xətlə birbaşa bağlıdır. Bunu postsovet ölkələrinin keçmiş rəhbərlərinin fəaliyyətinə və həmin ölkələrin bugünkü siyasi-iqtisadi durumuna nəzər saldıqda daha aydın görmək mümkündür. Belə bir müqayisədə də Heydər Əliyev siyasəti öz möhtəşəmliyi ilə üzə çıxır. Həm də bir faktı nəzərdən qaçırmaq olmaz ki, Azərbaycanın yerləşdiyi geopolitik məkan digər postsovet ölkələrindən öz mürəkkəbliyi və həssaslığı ilə fərqlənir.

Heydər Əliyevdən başqa vaxtilə Sov.İKP MK Siyasi Bürosunun tərkibində olmuş bütün siyasətçilərin adlarını tarix qısa müddət ərzində yaddaşlardan sildi. Onlardan heç birinin siyasi irsi və siyasi kursu yeni, müstəqil bir dövlətin həyat yoluna çevrilmədi. Dünya inkişafının perspektivini aydın görən, ona doğru addımlayan və ölkəsini, xalqını ona doğru istiqamətləndirən Heydər Əliyevin uzaqgörən siyasəti isə müasir Azərbaycanın dünya birliyinə təbii inteqrasiyasını təmin edərək onun müstəqilliyini əbədi və dönməz etdi.

Bu siyasət, hər şeydən əvvəl, uzunmüddətli sabitliyin bərqərar olunmasına yönəlmişdir. Bu siyasət zaman çərçivəsi ilə məhdudlaşmır – gələcəyə hədəflənmişdir. Bu siyasət geosiyasi maraqları toqquşdurmur, əksinə, həmin maraqların Azərbaycanın milli mənafeləri ilə uzlaşan ideal harmoniyasını yaradır. Məhz bu siyasət hələ uzun illər Azərbaycanın daxili və xarici siyasət doktrinasının özəyini, milli inkişafımızın təməlini təşkil edəcəkdir. Məhz bu cəhətləri Heydər Əliyev siyasətini qlobal siyasət səviyyəsinə yüksəldir və onun özünü isə dünya miqyaslı şəxsiyyətə çevirir.

Heydər Əliyev Azərbaycan xalqının rifahını, milli dövlətçiliyimizin daha da güclənməsini hər şeydən üstün tutan vətənpərvər lider idi. Xüsusilə, ömrünün son on ilində Heydər Əliyevin fəaliyyəti, hətta bir insan ömrünə sığmayacaq qədər zəngin oldu. Xarici ölkələrə etdiyi davamlı səfərlərlə, daxili və xarici siyasətimizin dayaqlarını yaratmaqla, ümumən, bütün ölkənin yenidən qurulmasına rəhbərlik etməklə Heydər Əliyev müstəqil Azərbaycanın əsasını qoydu. İstənilən xarakterli böhrandan sabitliyə keçidin uzunmüddətli və ağrılı proses olduğu şübhəsizdir. Heydər Əliyevin siyasi dühasının böyüklüyü isə onda idi ki, uzaqgörən siyasi gedişləri ilə bugünkü sürətli inkişafımızın kökündə dayanan sabitliyi qısa zaman kəsiyində bərqərar etməyə nail oldu.

Gərgin iş rejiminin səhhətində ciddi problemlər yaratmasına baxmayaraq Azərbaycan uğrunda yorulmaz fəaliyyətini bir an belə dayandırmadı. Yalnız Heydər Əliyevin güclü qətiyyəti, ölkəmizin maraqlarına xələl gətirə biləcək məsələlərdə tutduğu prinsipial mövqeyi Azərbaycana beynəlxalq miqyasda yanaşmanı dəyişdi. Məhz onun yorulmaz səyləri nəticəsində Azərbaycan konservativ, tipik postsovet ölkəsi kimi deyil, beynəlxalq və regional müstəvidə sabit və davamlı inkişaf vəd edən bərabərhüquqlu tərəfdaş kimi tanınmağa başladı.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri, regionda sabitliyin bərqərar olunmasında oynadığı rol bir çox tanınmış dövlət adamları tərəfindən də aydın şəkildə ifadə olunmuş və yüksək qiymətləndirilmişdir. ABŞ-nin keçmiş Prezidenti Corc Buş onun haqqında deyirdi: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına şərait yaratmışdır".

Böyük Britaniyanın keçmiş Baş naziri Toni Bleyer də Heydər Əliyev haqqında fikirlərini bölüşərkən sabitlik faktorunu xüsusilə vurğulayır: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Heydər Əliyev şəxsiyyətinə Azərbaycan, region və ümumdünya kontekstində yanaşaraq bildirir: "Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur."

Doğrudan da, Heydər Əliyev öz xalqının tarixi köklərinə bağlı olan elə bir şəxsiyyətdir ki, o, bütün siyasi fəaliyyəti ərzində Türk dünyasının birliyinə, bütövləşməsinə və vahid güc mərkəzinə çevrilməsinə böyük inam bəsləmiş və bu prosesin davamlı inkişafına çalışmışdır.

Son illər ərzində Azərbaycanın həm beynəlxalq siyasətdə və həm də ölkənin iqtisadi, mədəni, sosial və humanitar inkişafında əldə etdiyi nailiyyətlər Heydər Əliyev tərəfindən atılan addımların yeganə düzgün çıxış yolu olduğunu göstərir. Bu gün Azərbaycan qlobal siyasətdə öz müstəqil siyasətini yeridən, bütün istiqamətlərdə öz xalqının milli maraqlarını təmin edə bilən müasir tipli mükəmməl bir dövlətdir. Bu dövlətin izlədiyi siyasi kurs məhz Heydər Əliyev tərəfindən təməli qoyulmuş siyasi kursun – dövlət müstəqilliyimizin əbədiliyi və dönməzliyi kursunun davamıdır.

Heydər Əliyev şəxsiyyəti o qədər zəngindir ki, istənilən aspektdən yanaşdıqda onun intəhasız fəaliyyətinin geniş okeanına çıxa bilirsən. Öyrənildikcə öyrənilən, heç zaman tükənməyən Heydər Əliyev irsi, onu müasiri olduğu digər dünya siyasətçilərindən fərqləndirən siyasi dühası, onun yaradıcı zəkası hələ uzun illər çoxtərəfli araşdırmaların mövzusu olacaq. Bu şəxsiyyətin tarixdə oynadığı əhəmiyyətli rol həmişə daha dərin və daha geniş məzmunda, daha konseptual şəkildə açılacaq. Amma bir həqiqət heç zaman dəyişməyəcək: Heydər Əliyev müasir Azərbaycanın qurucusu olmaqla yanaşı, tərəqqi və ədalət, sülhpərvərlik və humanizm ideyalarına, bəşəri dəyərlərə əsaslanan geniş spektrli fəaliyyəti ilə bəşər tarixinin yetişdiriyi nadir şəxsiyyətlərdəndir.

Heydər Əliyev özünün bütün yaş dövrlərində zəkası və əməksevərliyi ilə içərisində olduğu cəmiyyətin ön sıralarında addımlayan, həmin cəmiyyətin qayğı və ehtiyaclarına həssaslıqla yanaşıb, cəmiyyət qarşısına çıxan problemlərin həllini öz üzərinə götürən fədakar bir lider idi. Bu fədakarlıq onun öz xalqına olan məhəbbətindən və öz dövlətini və xalqını həmişə qaliblər sırasında görmək arzusundan irəli gəlirdi. Onun həyat missiyası məhz bu qalibiyyəti təmin etməkdən ibarət idi.

Zamanın sınaq anında Heydər Əliyev bu missiyanı şərəflə və ləyaqətlə yerinə yetirdi. Məhz onun sayəsində bu gün dövlət müstəqilliyimiz dönməz və sarsılmazdır. Ümummilli lider Heydər Əliyevin şəxsiyyət obrazı isə Azərbaycanın əbədi Qələbə simvoludur.

12 dekabr Ulu öndərin anım günüdür. Adı memarı olduğu müstəqil Azərbaycanın tarixində, işıqlı xatirəsi isə daim xalqının qəlbində yaşayacaqdır!

İlk dəfə XQ-də

# “Kamran Bağırov MK-ya zəng vurub Heydər Əliyevdən şikayət edirdi”

*Kremldə Heydər Əliyevin köməkçisi işləmiş Camal Camalov o dövrlə bağlı xatirələrini ilk dəfə “Xalq qəzeti”nə danışır*



**(əvvəli qəzetin 7, 10 dekabr saylarında)**

Heydər Əliyevlə gizli rəqabət, o, xəstələndiyi vaxt həmkarlarının münasibətində daha aydın şəkildə üzə çıxdı. Adətən, səhər H.Əliyev işə gələndə katibliyin müdiri, növbəni yeni dəyişmiş mühafizəçi, həkim və mən sıra ilə dayanıb onu qarşılayırdıq. Bu, hər gün təkrar olunurdu. 1987-ci il mayın 11-də, Heydər Əliyevin doğum günündən sonrakı gün saat 9-da, o, katibliyin müdirini yanına çağırdı. Valeri İvanoviç Qridnev ucaboy, cüssəli adam idi. Bir dəqiqə keçməmiş, o, həyəcanla içəridən çıxıb “Həkim çağırın, Əliyev özünü pis hiss edir” – dedi. Həm Ali Sovetdə növbədəki həkimlər, həm də şəxsi həkimi gəldilər. Saat on ikidə Heydər Əliyev özü kabinetdən çıxıb həkimlərin müşayiəti ilə təcili yardım maşınına əyləşdi. Aydın səmalı, günəşli bir gün idi. Yaxşı xatırlayıram, həkim kabinetdən çıxanda qan-tər içində idi. Mayın 11-dən sentyabra qədər H.Əliyev xəstəxanada oldu və bu müddət ərzində ona təzyiqlər göstərilməyə başlandı.

**– Ona hansı xarakterdə təzyiqlər edilirdi?**

– Dolayısı ilə, bəzən açıq şəkildə işdən öz ərizəsi ilə çıxmasını tövsiyə edirdilər. Hətta oğluna atasını buna inandırmağı məsləhət görmüşdülər. Heydər Əliyev isə xəstəxanada da işini davam etdirir, müşavirə keçirir, tapşırıqlar verirdi. Qorbaçovun dostu, akademik Çazov daha çox canfəşanlıq edirdi. Qorbaçov özündən güclü adamı yanından uzaqlaşdırmaq üçün əlinə keçən bəhanədən istifadə etməyə çalışırdı.

Heydər Əliyev istefa ərizəsi yazmadı. Amma 1987-ci ilin oktyabr ayında onu Sov.İKP MK plenumunun qərarı ilə tutduğu vəzifədən azad etdilər. Qərardan sonra bir ay, o, işinə davam etdi. 1987-ci il noyabrın 23-də, sonuncu iş günü məni otağına çağırdı və ana dilimizdə dedi: “Mən uzun müddət Siyasi Büro üzvlüyünə namizəd, büro üzvü oldum. Bunların indiki siyasətini başa düşmürəm. Nə etdim ki, mənə qarşı bu münasibəti göstərdilər? Azərbaycanlı olaraq sovet dövlətində ən yüksək məqama yetişdim, amma hər şey belə müəmma ilə bitdi”. (H.Əliyevə qədər Azərbaycandan təkcə Mircəfər Bağırov Siyasi Büro üzvlüyünə namizəd olmuşdu – C.S.). Bu sözlərlə Heydər Əliyev SSRİ-nin ali dövlət postunda fəaliyyətini başa vurdu. Onu Rıjkovun yanına məsləhətçi təyin etdilər. Bu, sadəcə, formal iş idi və qısa müddətdən sonra H.Əliyev oradan ayrıldı. Düşünürəm ki, o, bu işi özünə sığışdırmadı. Sonralar bir neçə dəfə görüşdük. O, Azərbaycana qayıtdıqdan sonra isə görüşə bilmədik.







**– Bəs, Heydər Əliyev işdən çıxdıqdan sonra sizin taleyiniz necə oldu?**

– Tam üç ay işimə davam etdim. Eyni rejimdə, eyni ritmdə. Hər gün səhərdən axşam saat doqquza, ona qədər işdə olurdum. Tək mən yox, bütün katiblik. 1988-ci il fevral ayının 13-də Dövlət Plan Komitəsinin sədri işləmiş Nikolay Vladimiroviç Talızini Nazirlər Soveti Sədrinin birinci müavini təyin etdilər. Sabahısı gün, ayın 14-də Qridnev yanıma gəldi və dedi ki, Talızinin bu yerə öz namizədi var. Səni gəldiyin yerə geri göndəririk. Mənim cavabımı gözləmədən telefonu götürüb Kamran Bağırova zəng elədi: “Kamran Mamedoviç, Nikolay Vladimiroviçin adından sizdən xahiş edirəm ki, Camal Kamaloviç Camalovu Azərbaycanın daimi nümayəndəliyində işlə təmin edəsiniz. O, buraya daimi nümayəndəlikdən gəlmişdi”. Şənbə günü idi və mən növbəti həftənin əvvəlindən daimi nümayəndəlikdə işə başladım. Burada havalar dəyişmişdi. Azərbaycanın sabiq yerli sənaye naziri, Kamran Bağırovun dostu Sənan Axundov bu vəzifəyə təyin edilmişdi. Tezliklə Həsən Seyidov Moskvaya gəldi və mənə təskinlik verirmiş kimi dedi: “Görürsən də, o böyüklükdə kişini necə çıxartdılar. Sən hələ cavansan. Baş referent kimi işinə davam et”.

İşə başlasam da özümə qarşı ögey münasibət gördüm. Altı ay işlədim, amma rəhbərlikdən heç bir tapşırıq almadım. Halbuki S.Axundovla bir binada yaşayırdıq, onun mənzil almasına H.Əliyev kömək etmişdi. Sonra o, evini dəyişib Bakıya köçdü. Daimi nümayəndəlikdə işləyərkən Azərbaycanda vəziyyətin gərginləşməsi ilə əlaqədar axşamlar nümayəndəlikdə növbə çəkirdik. Bir axşam Kamran Bağırov mənə zəng elədi. Sumqayıtda vəziyyət qarışanda Cahangir Müslümzadə Moskvada idi. Onunla əlaqə yaratdıq və o, ilk reyslə Bakıya uçdu. 1988-ci ilin aprelində komendant Kamayev mənə zəng vurub telefonu Heydər Əliyevə verdi. O, məndən Əbdürrəhman Vəzirovun telefon nömrəsini istədi. Sonralar başa düşdüm ki, Vəzirovun Azərbaycana rəhbər göndəriləcəyini H.Əliyev əvvəlcədən duymuşdu. May ayında Qorbaçov Ə.Vəzirovu Azərbaycan KP MK-nın Birinci katibi seçdirdi. Yenə öz fikrimi deyirəm: Azərbaycana rəhbərlik edənlərin hamısını tanıyırdım. H.Əliyevin dövlət xadimi kimi onların hər birindən çox güclü olduğu şübhəsiz idi. Moskvaya gələrkən birinci katib kimi öz yerinə məsləhət gördüyü Kamran Bağırov isə zəif kadr idi. O, hətta Heydər Əliyevin onun Azərbaycana sərbəst rəhbərlik etməsinə mane olmasından Moskvaya– Mərkəzi Komitəyə şikayələr edirdi. Fikrimcə, Bağırovun o vəzifəyə təyin edilməsi yanlış idi. Çünki o, tələb olunan meyara uyğun deyildi. Vəzirov isə Bağırovdan da zəif adam idi...

Mən beş il Heydər Əliyev kimi böyük bir şəxsiyyətlə çalışmaq şərəfinə nail olmuşam. Əminəm ki, belə insanlar nadir hallarda dünyaya gəlir və o, keçən əsrdə və iyirmi birinci əsrin əvvəllərində Azərbaycana Tanrının lütfü idi. Hər adamın nöqsanı, yanlışı ola bilər. Yalnız heç bir iş görməyənlər səhv etmirlər. Azərbaycanın bu gün firavanlığa çıxmasının səbəbkarı Heydər Əliyevdir. Onun xatirəsini hər zaman qəlbimdə yaşadıram.

**– Heydər Əliyevin iş rejiminə, üslubuna tab gətirmək elə də asan deyildi. Bu baxımdan onun ətrafındakı, tabeliyindəki, “komandasındakı” adamlar haqqında danışacaqlarınız oxucularımız üçün maraqlı olardı.**

– Heydər Əliyev, ilk növbədə, adamları işgüzarlığına, vəzifələrini peşəkarcasına yerinə yetirmələrinə, intizamına görə dəyərləndirirdi. Birinci növbədə onu deyim ki, Heydər Əliyevin fitri istedadı, qabiliyyəti, təhlükəsizlik məktəbinin aşıladığı dəmir intizamı, qeyri-adi yaddaşı ilə yanaşı, həyatdakı yüksəlişinin əsas, mən deyərdim ki, birinci ilham mənbəyi həyat yoldaşı Zərifə xanım idi. Onlar bir-birini çox sevirdilər və Zərifə xanım əsl Azərbaycan xatını idi. Kübar davranışı, Heydər Əliyevin bütün tədbirlərində hamının həsədlə tamaşa etdiyi şıq görünüşü, ailə qayğılarının çox qismini öz üzərinə götürməsi, nəhayət, bütün məsələlərdə həyat yoldaşını dəstəkləməsi nümunəvi ailə modeli sayıla bilərdi.

Heydər Əliyevin həm respublikada, həm də Moskvada rəhbər işdə olduğu dövrdə Zərifə xanım heç vaxt özünü irəli verməz, “kölgədə” qalmağından narazılıq etməzdi. Halbuki. peşəkar göz həkimi kimi özünün nüfuzu vardı və bu barədə danışmaqa ehtiyac duyduğumun səbəbini anlatmağa çalışacağam. Mixail Qorbaçovun xanımı Raisa Maksimovnanın davranışı, dikbaşlığı, əri üzərində az qala hamının qarşısında nümayiş etdirdiyi hökmranlığı çoxlarına məlumdur. Qorbaçovun mühafizə dəstəsinin rəisi öz xatirələrində bu barədə maraqlı faktlar yazıb. O, xoşlamadığı adamları heç bir səbəb olmadan işdən çıxarmağa ərini məcbur edərdi. Başımıza çox fəlakətlər gətirən otuz illik Qarabağ faciəsi, onun Amerika səfərində mənfur qonşuların nümayəndələrindən rüşvət alması barədə söz-söbəti eşitməmiş olmazsınız.

**– Əlbəttə, eşitmişik. Bu barədə çox danışılırdı.**

– Amma Rıjkovun xanımının “sərgüzəştlərini” çoxları bilmir. Yuxarıda haqqında danışdığımız Smirtyukov müsahibəsində maraqlı məqamlara toxunur. Bir gün ona Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) hökumət nümayəndələrinin mühafizəsini təmin edən 9-cu idarəsinin rəisi Plexanov zəng eləyib Rıjkovun mühafizə rəisini dəyişmək lazım olduğunu deyib. Bu barədə Smirtyukov danışır: “Onu tanıdığıma görə soruşdum: Niyə? O ki öz işini yaxşı yerinə yetirir. Haqlısınız, –dedi,–amma Rıjkovun arvadının təsiri altına düşüb. Bir az gözləməyi məsləhət gördüm. Rıjkov xaricə səfərinin hazırlanması zamanı xanımı deyib ki, onun üçün hər şey Raisa Maksimovna üçün edilən səviyyədə təşkil olunsun. Bu, artıq yolverilməz idi. Kimsə Mərkəzi Komitəyə məlumat vermişdi və oradan gələn sərt cavab Nazirlər Soveti Sədrinin səfərini hazırlayan təsərrüfat idarəsini silkələdi: “Ölkədə bir “birinci xanım” var! Aydındırmı?”.

Bundan sonra siyasi məsələlərə Raisa Maksimovna kimi qarışmasa da, Lyudmila Rıjkova təsərrüfat işlərində öz bildiyini edirdi. Rıjkov Baş nazir təyin olunduqdan sonra ona əvvəllər Molotovun, Xruşşovun, Podqornının yaşadığı daçanı və 30 hektar sahəni verdilər. Az sonra Rıjkov daçada hovuz olmamasından narazılığını bildirir və Qorbaçovdan buna icazə alır. Ona məsləhət gördüm ki, yaxında Qrişin daçanı təhvil verəcək, orada hovuz var. Razılaşdı. Az keçmədi ki, mənə yenə Lyudmila ilə bağlı şikayət gəldi. Mühafizə idarəsi rəisinin müavini dedi ki, Barvixa yaxınlığında qəbul iqamətgahı hazırlanır, Rıjkovun xanımı hər gün oraya köpəklə gəlir və işçilərə otaqları necə yerləşdirmək barədə göstərişlər verir. Rıjkovdan bunun nə məsələ olduğunu soruşdum. Oranı şəhərətrafı daça (!) etmək niyyətində olduğunu bildirdi. Oranı da hazırladıq. Amma orada cəmi on gün yaşaya bildilər. Qəzetlər hay-küy qaldırdı və Rıjkovlar tez-bazar oranı tərk etdilər. Jurnalistlərin bilmədiyi çox şeylər vardı. İşlər idarəsinin, yəni mənim xəbərim olmadan Lyudmila öz təkidi ilə təyin etdirdiyi təsərrüfat işləri idarəsinin rəisi vasitəsilə saysız-hesabsız xarici radiotexnika, qadın paltarları alırdı”.

**– Bu baxımdan sizin Zərifə xanım haqqında dedikləriniz diqqətə layiqdir.**

– Elədir. İş üslubu ilə bağlı bir epizodu xatırladım. Heydər Əliyevlə Mirzə İbrahimov arasında çox səmimi münasibət vardı. İldə bir-iki dəfə görüşürdülər. Növbəti gəlişlərinin birində H.Əliyev müşavirə keçirirdi və Mirzə müəllim gözləməli oldu. Vaxtı keçirmək üçün söhbət etdik. Məndən soruşdu ki, işin çətindirmi? Mən cavab vermədim. Üzümə baxıb, gülə-gülə: Səni yaxşı başa düşürəm, – dedi.

Əlbəttə, ölkədə baş verən hadisələrin mərkəzində olmaq qürurverici idi. Ona görə heç vaxt işin ağırlığından şikayət etmirdim. Məsələn, katibliyin müdiri Qridnev çox maraqlı adam idi. Mikoyan haqqında dedikləri kimi, o, yağış damcılarının arasından keçir, amma islanmır. Lap ona bənzəyirdi. H.Əliyevə qədər orada işləmişdi. H.Əliyev işdən çıxdıqdan sonra Talızinlə, sonra daha neçə birinci müavinlə işlədi. SSRİ dağıldıqdan sonra Çubaysla da işlədi. Səhv etmirəmsə, 63 yaşında səbəbi məlum olmayan avtomobil qəzasında həlak oldu. Onun Uxov soyadlı müavini vardı. Sonra nəqliyyat məsələləri üzrə köməkçi vardı–Perminov. Sosial məsələlər üzrə köməkçi Proxorenko idi. Heydər Əliyevin həkimi Borodkin indi də sağdır. Təəssüf ki, o kadrların çoxu dünyasını dəyişib. Soloduxin çıxışların hazırlanmasına yardım edirdi. O, Heydər Əliyevlə bir il işlədi, sonra onu Çernenkonun yanına dəvət etdilər.

H.Əliyevlə Soloduxin arasında çox yaxşı münasibət vardı. Savadlı, təmkinli adam idi. Onun indi 86 yaşı var. Bu yaxınlara qədər Federasiya Şurasında Matviyenkonun köməkçisi kimi çalışırdı. Soloduxin həm də yaxşı həmsöhbət idi. Bir gün mənə dedi ki, 1961-ci ildən ölkə rəhbərlərinin çıxışlarını hazırlayıram, ya da redaktə edirəm. Hətta Matviyenko tədbirlərdə çıxış edəndə Soloduxinin dəsti-xəttini hiss edirdim. Bir dəfə Matviyenko yazılı mətn olmadan canlı müsahibə verdi. Müşahidə qabiliyyəti güclü olanlar onun yazılı çıxışları ilə müsahibəsi arasındakı fərqi hiss etdilər. Soloduxinin yerinə Qavrilov gəldi.

**– İndi bu sahədən bir az uzaq sual verəcəyəm. Pyatibrat soyadı Sizə tanışdırmı?**

– Əlbəttə. Vasili Lukiç Pyatibrat Azərbaycanda tikinti sənayesi nazirinin müavini idi. Bu vəzifədə uzun müddət çalışdıqdan sonra Moskvaya gəldi,

**– Bəli. Azərbaycanda 18 il işləyib və Heydər Əliyevlə yaxın münasibətdə olub. Ulu öndər onu mütəxəssis kimi çox dəyərləndirirdi.**

– Sonra, deyəsən, Moskvanın meri Lujkovun müavini oldu.

**– Məncə, Moskva ətrafının inkişafı üzrə komitənin rəhbəri oldu. Vasili Lukiç indi 94 yaşındadır. Yeni Moskvada bizim yanımızda bağ evi var. Rastlaşanda və ya zəngləşəndə məni “Salam əleyküm” deyə salamlayır. Azərbaycan haqqında, Heydər Əliyev haqqında həmişə minnətdarlıqla danışır.**

– Bu yaxınlarda keçirilən tədbirlərdən birinə dəvət etdim. Mənim üçün belə tədbirlərə getmək çətindir, dedi. Amma dəvət üçün təşəkkürünü bildirdi.

**– Onun həyat yoldaşı Bakıda 6 nömrəli məktəbdə direktor işləyib. Camal müəllim, Heydər Əliyev kimi böyük şəxsiyyət haqqında danışdıqlarınız oxucular üçün maraqlı olacaq. Bunun üçün Sizə təşəkkür edirəm və bu mövzuda yenə görüşməyə ehtiyac olduğunu düşünürəm.**

– Sağ olun. Sonda onu da demək istəyirəm ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərin bu gün çox yüksək səviyyədə olması Heydər Əliyevin yaxın qonşu və strateji müttəfiqi kimi Rusiyaya həmişə uzaqgörənliklə verdiyi qiymətin nəticəsidir. Rusiya böyük dövlət olmaqla yanaşı, həm də bizim ən yaxın qonşumuzdur. Atalarımızın “yaxın qonşu uzaq qohumdan yaxşıdır” sözü əbəs yerə deyilməyib. Sevinirəm ki, həmin siyasəti Prezident İlham Əliyev bu gün uğurla davam etdirir.

***Söhbəti qələmə aldı:***
***Cəfər SADIQ***

**Moskva**

# Heydər Əliyev fenomeni dünyanı dolaşır

**Adını hər zaman sevgi və qürurla çəkdiyimiz, əziz xatirəsini ehtiramla andığımız ən böyük azərbaycanlı Heydər Əliyev Azərbaycanı dünyada tanıtdığı kimi, dünya da dahi şəxsiyyətin tarix və zaman qarşısında danılmaz xidmətlərindən xəbərdardır. Bu gün Azərbaycanda olduğu kimi, dünyanın bir çox ölkələrində müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimləri keçirilir. Vəfat etməsinin 21-ci ildönümü ilə bağlı təşkil edilən tədbirlərdə Heydər Əliyevin xalqının layiqli övladı olduğu qeyd olunur, onun millət və dövlət qarşısında ölçüyəgəlməz xidmətləri yada salınır, xatirəsi dərin hüzn və ehtiramla anılır.**

## Ankara



Türkiyənin paytaxtı Ankarada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsi ehtiamla anılıb. Bu barədə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov “X” sosial şəbəkəsindəki hesabında paylaşım edib. Qeyd olunur ki, səfirliyin əməkdaşları Heydər Əliyev Parkında Ulu öndərin abidəsi önünə gül dəstələri qoymuşlar. Onlara TANAP və “SOCAR Türkiye”nin əməkdaşları, Ankaradakı Heydər Əliyev adına orta məktəbin müəllim və şagirdləri, eləcə də Türkiyədə yaşayan azərbaycanlılar qoşulublar. Anım mərasimində çıxış edənlər Ümummilli liderin Türk dünyasının dahi şəxsiyyətlərindən biri olduğu, onun iki dövlətin və bir millətin yan-yana addımlaması üçün göstərdiyi xidmətləri yada salınmış, ruhuna dualar oxunmuşdur.

## İqdır




“Heydər Əliyev Türk dünyası tarixində ən görkəmli şəxsiyyətlərdən biridir. Azərbaycan xalqının dahi oğlu təkcə doğma Azərbaycanın deyil, dünyanın bir çox xalqlarının yaddaşında dərin iz qoyub. Mən fəxr edirəm ki, belə bir görkəmli şəxsiyyətlə şəxsən tanış olmuşam”. Bunu Türkiyə–Azərbaycan Dostluq Cəmiyyətləri Federasiyasının rəhbəri, İqdırdakı “Azərbaycan Evi”nin rəhbəri Serdar Ünsal bildirib. O, ümummilli lider Heydər Əliyevlə hələ ermənilərin Naxçıvana silahlı basqınlarının qarşısının alındığı dövrdə dəfələrlə görüşdüyünü qeyd edib. “Heydər Əliyev müasir Azərbaycanın sarsılmaz bünövrəsini yaradan liderdir. Onun siyasi kursu sayəsində Azərbaycan sabit və uğurla inkişaf edən dövlətə, regionun parlaq ulduzuna çevrilib”, – deyə federasiya rəhbəri vurğulayıb.

Serdar Ünsal çıxışında onu da nəzərə çatdırıb ki, Ulu öndərin siyasi kursu onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “Prezident İlham Əliyev Azərbaycan dövlətçiliyinin memarının ən böyük arzusunu həyata keçirib – Qarabağı Ermənistan işğalından azad edib. Dahi dövlət xadiminin vəfatının 21-ci ildönümündə Azərbaycan dövlətçiliyinin xilaskarının xatirəsini dərin ehtiram və məhəbbətlə yad edirəm” – deyə S.Ünsal bildirib.

## Təbriz



Azərbaycanın İranın Təbriz şəhərindəki Baş konsulluğunda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş mərasim keçirilib. Əvvəlcə tədbir iştirakçıları dünyamiqyaslı dahi siyasətçinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra çıxış edən baş konsul Əliyənnağı Hüseynov qeyd edib ki, Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Ulu öndər, görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsini daim əziz tuturlar. Çünki o, xalqın ən çətin günlərində qüdrətli lider olaraq ortaya çıxıb və özünün xilaskarlıq missiyası ilə insanları birləşdirdi. Azərbaycan xalqı məhz belə bir güclü şəxsiyyət, dahi siyasətçi və görkəmli dövlət xadimi olan Heydər Əliyevin ətrafında sıx birləşdi, mürəkkəb şəraitdə nicat yolunu tapa bildi.

Diplomat çıxışında onu da qeyd edib ki, Ulu öndərin müdrik siyasətini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycanla İran arasında həyata keçirilən kommunikasiya layihələri təkcə iki qonşu ölkənin deyil, bütün Avrasiya məkanının maraqlarına uyğundur. Mərasimin sonunda “Tarixin izi ilə” sənədli filmi nümayiş etdirilib və fotoşəkillərdən ibarət sərgi açılıb.

## Kiyev



Ukraynanın paytaxtı Kiyev şəhərində Heydər Əliyevin adını daşıyan parkda yerləşən abidənin önündə Azərbaycanın Ümummilli liderinin vəfatının 21-ci ildönümü münasibətilə anım mərasimi keçirilib. Mərasimdə Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, səfirliyin əməkdaşları, eləcə də Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilat (GUAM), “SOCAR Energy Ukraine” şirkətinin kollektivi, Türkiyənin Ukraynadakı səfirliyinin diplomatları iştirak ediblər.

Səfirliyin Heydər Əliyev zalında davam edən anım mərasimində səfir S.Mərdəliyev Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərindən danışıb.

Bildirib ki, Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi illər Azərbaycanın taleyinin və gələcəyinin təyin olunmasında olduqca önəmli və həlledici rol oynayıb. “Heydər Əliyevin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir. Məhz ona görə də, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu ərazilərimizi işğaldan azad edib”, – deyə S.Mərdəliyev vurğulayıb.

Mərasimdə çıxış edən GUAM-ın Baş katibi Altay Əfəndiyev, “SOCAR Energy Ukraine” şirkətinin baş direktoru Elçin Məmmədov Ulu öndərin Azərbaycan xalqı qarşısında xidmətlərindən, dövlətçilik ənənələrinin formalaşmasında rolundan danışıblar.

## Saloniki



Yunanıstanın Saloniki şəhərində Heydər Əliyevin xatirəsinə həsr olunmuş sərginin açılışı olub. Bu barədə Azərbaycanın Afinadakı səfirliyinin sosial şəbəkə hesabında bildirilib.

Məlumatda qeyd olunur ki, səfirlik Saloniki şəhərində “Qala” Yunanıstan – Azərbaycan Dostluq Cəmiyyəti ilə birgə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə ərsəyə gələn ümummilli lider Heydər Əliyevin anım mərasimini keçirib, Ulu öndərə həsr olunan fotosərginin açılışını edib”.

Açılışda itirak edənlər Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin Vətən və dövlət qarşısında xidmətlərindən danışıb, dahi şəxsiyyətin xatirəsinə ehtiramlarını ifadə ediblər.

## Zaqreb



Azərbaycanın Xorvatiyadakı səfirliyi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini yad etmək məqsədilə tədbir keçirib. Bu barədə səfir Anar İmanov sosial şəbəkədə bildirib. Onun sözlərinə görə, mərasim iştirakçılarına Azərbaycanın ümummilli lideri Heydər Əliyevin inkişaf edən, firavan və müstəqil Azərbaycanın yaradılmasında həlledici rolu barədə ətraflı məlumat verilib.

Səfir A.İmanov paylaşımında daha sonra qeyd edib ki, anım mərasimində istedadlı Azərbaycan musiqiçiləri Fərid Feyzullayev və Jalə Feyzullayevanın tanınmış Azərbaycan və xarici bəstəkarların əsərlərindən ibarət ifaları tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilib.

***Hazırladı:***
***İmran BƏDİRXANLI***
***XQ***

Sərgi

# Ulu öndərin həyat yolu kitablarda

**Milli Kitabxanada TÜRKSOY Beynəlxalq Mədəniyyət Təşkilatı, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Şimali Kipr Türk Respublikası və digər ölkələrin milli kitabxana direktorlarının iştirakı ilə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş kitab sərgisinin açılışı və elektron məlumat bazasının təqdimatı keçirilib.**



Əvvəlcə ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Milli Kitabxananın direktoru professor Kərim Tahirov tədbiri açaraq, vəfatından 21 il ötən unudulmaz dahi şəxsiyyətin Azərbaycana layiqincə rəhbərlik etməsindən və Vətən qarşısında xidmətlərindən iftixarla bəhs edib. Direktor konkret faktlara istinadla bildirib ki, Ulu öndər Azərbaycan mədəniyyətinin inkişafına və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına xüsusi diqqət və qayğı göstərib, 1995–1997-ci illərdə 4 dəfə Milli Kitabxanaya gələrək bilik məbədinin problemləri ilə maraqlanıb və böyük çətinliklər dövrünü yaşayan kitabxananın fondlarının zənginləşdirilməsi üçün tədbirlər görməyi tapşırıb.

İlk gəlişində Ümummilli liderin kitabxanaya öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitab hədiyyə etdiyini söyləyən direktor bildirib ki, bu gün həmin kitablar, habelə kitabxanada olarkən etdiyi çıxışların lent yazıları oxuculara təqdim olunur.

O vurğulayıb ki, Ulu öndərin müəyyən etdiyi siyasi xəttin layiqli davamçısı olan Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan bu gün regionda lider ölkəyə çevrilib. Kərim Tahirov müstəqil Azərbaycan dövləti durduqca, yaşadıqca Ulu öndərin əziz xatirəsi daim xatırlanacağını, heç vaxt unudulmayacağını bildirib.

Qazaxıstan Milli Kitabxanasının direktoru Bakitjamal Ospanova Ulu öndərin nəinki Azərbaycan xalqının, bütün Türk dünyasının ictimai-siyasi xadimi olduğunu, məhz onun uzaqgörən müdrik siyasəti nəticəsində müstəqil Azərbaycanın inkişaf etmiş dövlətlər birliyində öz layiqli yerini tutduğunu söyləyib. O, Qazaxıstan Milli Kitabxanasında zəngin Azərbaycan fondunun olduğunu və hər il Ulu öndərin doğum və xatirə gününə həsr edilmiş sərgilərin hazırlandığını diqqətə çatdırıb.

Özbəkistan Milli Kitabxanasının direktoru Umida Teşabayeva ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının xilaskar lideri olduğunu bildirib, bu sərgidə ona nümayiş etdirilən əksər kitabların Özbəkistan Milli Kitabxanasında da olduğunu deyib.

Qırğızıstan Milli Kitabxanasının direktoru Aynura Askarova, Şimali Kipr Türk Cümhuriyyəti Mədəniyyət Mərkəzinin direktoru Ceyhan Özyıldız, Qazaxıstan Akademik Milli Kitabxanasının direktoru Qaziza Nurqaliyeva, Türkiyə Milli Kitabxanasının şöbə müdiri Filiz Berna Gültəkin çıxış edərək ümummilli lider Heydər Əliyevin öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə müstəqil Azərbaycan dövlətini qurduğunu, bütün Türk dünyasında özünəməxsus yeri olan böyük rəhbər kimi ölməzlik qazandığını vurğulayıblar.

Mərasimin davamında “Ümummilli lider Heydər Əliyev” adlı elektron məlumat bazasının təqdimatı olub. Qeyd edək ki, “Ana səhifə”, “Rəsmi sənədlər”, “Heydər Əliyev – Əbədiyaşar şəxsiyyət”, “Haqqında nəşrlər”, “Heydər Əliyev Milli Kitabxanada”, “Heydər Əliyev dünya kitabxanalarında”, “Xatirəsinin əbədiləşdirilməsi”, “Fotoqalereya” və “Videoqalereya” adlı bölmələrdən ibarət olan elektron məlumat bazasında materiallar tam mətnləri ilə 3 dildə nümayiş olunur.

Daha sonra mərasim iştirakçıları təşkil olunmuş sərgiyə baxıblar. Sərgidə kitabxananın fondlarında qorunan dahi şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən kitablar, sənədlər, fotolar nümayiş olunur.

***Ə.ƏLİYEV***
***XQ***

# Xilaskar lider, qüdrətli şəxsiyyət

**Gəncə Dövlət Universitetində (GDU) ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilən tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Tədbiri giriş sözü ilə açan Gəncə Dövlət Universitetinin Humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva Ulu öndərin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən və böyük xilaskarlıq missiyasından danışıb. Prorektor bildirib ki, ümummilli lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.

GDU-nun Tədris məsələləri üzrə prorektoru Şahin Xurşudov çıxışında qeyd etdi ki, daim azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyevin ruhu bu gün şaddır. Çünki xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bərpa edilib, 30 il düşmən əsarətində olan Qarabağ əbədi azadlığına qovuşub.

Tədbirdə rektorun baş müşaviri Asif Cavadov Ümummilli liderin elm, təhsil, mədəniyyət sahələrinin inkişafına göstərdiyi əvəzolunmaz rolundan bəhs edib. GDU Azad Həmkarlar İttifaqı Komitəsinin sədri Afaq Qasımova çıxışında xalqımızın Heydər Əliyevin əziz xatirəsini daim ehtiram və minnətdarlıqla yad etdiyindən danışdı.



Daha sonra GDU-nun Sosial fənlər kafedrasının müdiri Cavid Bağırzadənin “Əbədiyaşar lider”, Ümumi tarix kafedrasının müdiri Etibar Musayevin “Azərbaycanı dünyaya tanıdan şəxsiyyət”, Fizika kafedrasının müdiri Yəhya Namazovun “Müasir Azərbaycan Heydər Əliyevin sənət əsəridir”, Azərbaycan tarixi kafedrasının baş müəllimi İlham Məmmədovun “Heydər Əliyev Azərbaycan dövlətçiliyinin memarı və qurucusudur”, Psixologiya kafedrasının baş müəllimi Sabirə Bayramovanın “Heydər Əliyev ideyaları əbədiyaşardır”, Fizika və texniki fənlər fakültəsinin I kurs tələbəsi Ülviyyə Məmmədlinin “Ulu öndər Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzularında məruzələri dinlənilib.

***XQ***

# Vətənə və xalqa xidmət nümunəsi

**Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında ümummilli lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib.**



Xalqımızın dahi oğlu Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra kitabxananın direktoru Tamella Əsgərova çıxış edib. O, bildirib ki, Heydər Əliyev müasir dünya tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyətlərdən, müdrik dövlət xadimlərindən biridir. “Heydər Əliyevin həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir” – deyən T.Əsgərova Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi illərin Azərbaycan tarixinə intibah, tərəqqi, milli oyanış, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olduğunu vurğuladı.

Anım mərasimində M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının elmi işlər üzrə direktor müavini Yeganə Səfərova “Heydər Əliyev – müasir Azərbaycan dövlətinin banisidir”, kitabxananın kütləvi iş şöbəsinin müdiri Turqay Orucov “Ulu öndərin ömür yolu vətənə və xalqa xidmət nümunəsidir” mövzularında çıxış etdilər. Onlar bildirdilər ki, Heydər Əliyevin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub.

Tədbirin sonunda Heydər Əliyevin siyasi fəaliyyətinə həsr edilmiş “Əbədiyyətin ilk əsri” adlı filmə və sərgiyə baxış olub.

***XQ***

# Suriya məsələsi – Türkiyə amili və Azərbaycan



(əvvəli 1-ci səhifədə)

İndilik Türkiyənin uğuru və bu uğurun Rusiya və İran tərəfindən qəbul olunması onu deməyə əsas verir ki, sonuncular Ankaranın verdiyi təminatlara arxayındırlar. Həm də ona görə arxayındırlar ki, Türkiyənin maraqlı olduğu Cənubi Qafqaz regionu var. Qərbin aktivləşməyə çalışdığı və Ermənistan vasitəsilə özünün qlobal maraqlarını gerçəkləşdirməyə çalışdığı region.

Bəli, Cənubi Qafqaz müstəvisində Bakı – Tehran – Ankara – Moskva oxu aktivdir və tərəflər məramlarını "3+3" regional məşvərət formatı çərçivəsində rəsmiləşdiriblər. Yeri gəlmişkən, sözügedən formatda Ermənistan da təmsil olunur. Ancaq bu təmsilçilik rəmzidir. Çünki rəsmi İrəvan, faktiki olaraq, "3+3"-ün "region regionu ölkələri üçündür" şüarının əleyhinədir və Qərbin patronajlığını həyata keçirir. Deməli, Suriyada yaşananların Cənubi Qafqaza təsirindən söz açırıqsa, Ermənistanın düşdüyü durum üzərində dayanmalıyıq və dayanacağıq.

*

Qərbpərəst Paşinyan administrasiyası Bəşər Əsəd rejimi ilə daimi kontaktda idi. Əslində, Suriya–Ermənistan əlaqələrindəki intensivlik xətti Paşinyana qədərki erməni iqtidarı üçün də prioritet sayılıb. Nikol hakimiyyətə gəldikdən sonra həmin xətti qorudu. Baxmayaraq ki, 2019-cu ildən başlayaraq, Qərb anti-Suriya cəbhəsini gücləndirmək qərarına gəlmişdi, bu, rəsmi İrəvanın xarici siyasət kursuna təsir göstərmədi. Səbəb çox sadə idi. Paşinyan hakimiyyəti Əsəd rejiminə erməni maraqlarının müdafiəçisi kimi yanaşırdı. Bununla bağlı müxtəlif faktlar var. Ermənistan hərbçiləri Hələbdə xidmət edirdilər. Minatəmizləmə kimi qələmə verilən bu xidmət, əslində, Əsəd rejiminə dəstək mahiyyəti daşıyır, Suriya ordusunun fəaliyyətini gücləndirmək məramına söykənirdi.

Bundan başqa, Paşinyan iqtidarı Ermənistanın terror xislətindən də əl çəkmədi. Nəzərə alaq ki, Suriyada erməni terror təşkilatları aktiv şəkildə işləyirdilər və onların Əsəd rejimi ilə sıx əlaqələrinin olması danılmaz faktdır. Ən maraqlısı isə budur ki, Suriyadakı Nubar Ozanyan adına erməni batalyonu Paşinyanın hakimiyyətə gəlməsindən sonra, yəni 2019-cu ildə yaradılmışdı. O batalyon ki, Suriyanın xüsusi xidmət orqanları ilə yaxından əməkdaşlıq etmişdir. Ermənistan-Suriya hərbi əməkdaşlığının 44 günlük müharibədəki "örnəkləri" də var. Savaşa Suriyadan erməni ordusunun tərkibində döyüşmək üçün çoxlu sayda muzdlular və terrorçular cəlb olunmuşdular.

Ümumən, Ermənistan hakimiyyəti Əsəd rejiminin anti-Azərbaycan ritorikasından hər zaman bəhrələnib. Bunu Suriyanın İslam Əməkdaşlıq Təşkilatında tutduğu mövqedən də görmək mümkündür. Belə ki, ölkə İƏT çərçivəsində Ermənistanla bağlı qətnamələrin çıxarılmasına maneçilik törətməyə çalışıb, habelə, qəbul olunan sənədlərə qoşulmayıb. Bütün bunlara görə də Suriyada Əsəd rejiminin çökməsini İrəvanın maraqlarına ciddi zərbə kimi qiymətləndirmək üçün yetərincə əsaslar var.

*

Qeyd etdiklərimiz Əsəd rejiminin çökməsi fonunda Ermənistanda yaranmış isterik durumun səbəblərinə aydınlıq gətirmək baxımından əhəmiyyətlidir. Mövcud xüsusda Türkiyənin mövqeyinin güclənməsi də İrəvanı təşvişə salır. Türkiyə amili Paşinyan hakimiyyətinin Suriya məsələsində aktivləşib, belə demək mümkünsə, yıxılanı baltalamasını əngəlləyir.

Əvvəldə Ankaranın aktivliyinə görə Qərbin Əsəd rejiminin devrilməsindən lazımi pay götürə bilmədiyini açıqlamışdıq. Məhz bu cəhət Ermənistanın manevr imkanlarını heçə endirir. Diqqətlər Cənubi Qafqaza yönəlir və mövcud platformada İrəvanın tam piyada mahiyyəti üzə çıxır. Həm Qərb Suriya üzrə istəyinə nail ola bilməyib, həm də Ermənistan özünün Suriya dayağından məhrum duruma düşüb.

*

Onu da vurğulayaq ki, Suriyadakı olayların Cənubi Qafqaza təsiri ritorikası Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla dekabrın 10-a rəallaşmış telefon danışığının məzmunundan da görünür. Nəzərə alaq ki, liderlər danışıq əsnasında Cənubi Qafqaz və Yaxın Şərq regionuna aid məsələlərə toxunub, xüsusilə Suriyada Əsəd rejiminin çökməsindən sonra yaranmış vəziyyət ətrafında müzakirə aparıblar. Dövlət başçıları Suriya xalqına təbriklərini, Suriya dövlətinin ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər. Prezident İlham Əliyev bundan sonra Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş Türkiyə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu qeyd edib. Prezident Ərdoğan isə öz növbəsində bütün sahələrdə olduğu kimi, Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyini məmnuniyyətlə qeyd edib.

*

Suriya mövzusu ilə bağlı Azərbaycan – Türkiyə həmrəyliyi ölkəmizin Xarici İşlər Nazirliyinin yaydığı bəyanatdan da aydın görünür. Sənəddə bildirilib ki, Azərbaycan Suriyada baş verənləri izləyir. Bu çərçivədə, eyni zamanda, qardaş Türkiyə ilə məsləhətləşmələr həyata keçirilir. Suriyada Bəşər Əsəd rejiminin çökməsindən sonra ölkədə sülhün və sabitliyin bərpa olunmasının, vətəndaş qarşıdurmasına son qoyulmasının mütləq dərəcədə vacibliyinin vurğulandığı bəyanatda, həmçinin rəsmi Bakının Suriyanın ərazi bütövlüyü və suverenliyinə dəstəyi bir daha ifadəsini tapıb. Eyni zamanda, Suriya xalqının iradəsinə uyğun şəkildə, habelə ölkədaxili siyasi dialoq vasitəsilə məsələlərin həllini tapacağına ümid bəslənildiyi açıqlanıb. Ən əsası isə: "Azərbaycan Respublikası qardaş Türkiyə Respublikası və digər həmfikir tərəfdaşlarla birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına töhfə verməyə hazırdır".

*

Bəli, Suriyada sabitlik, bütövlükdə, Yaxın Şərqdə, eyni zamanda, Cənubi Qafqazda sabitlik deməkdir. Qərbə, bu, lazım deyil. Suriyadakı məğlubiyyətlə özünün anti-İran fəaliyyəti üçün mühüm təsir dairəsini əldən vermiş Qərbin yaşadığımız regiona da təsiri azalmış durumdadır. Deməli, Ermənistan indidən öz hərəkət və davranışlarına düzən verməli, Azərbaycanla sülh məsələsində konstruktiv mövqe tutmalıdır.

İrəvanda nəzərə almalıdırlar ki, Bəşər Əsədin bütün oyunbazlıqlarına rəğmən Suriyanın müstəqil dövlət kimi qalması məqbul sayıldı. Ermənistan isə əndazədən çıxacağı, barış mühitinin formalaşmasına zidd addımlar atacağı təqdirdə, belə bir durum olmayacaq. Ya vəlvələdən, ya zəlzələdən meydana çıxmış erməni dövlətçiliyini isə Qərbin avantürizmi naminə qurban verməyə dəyməz.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Avropa İttifaqına üzvlük illüziyası

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, Qərbyönümlü qüvvələrin, konkret desək, baş nazir Nikol Paşinyanın "Vətəndaş sazişi" partiyasının təqdim etdiyi imza sayı 60 min idi. Yəni, onlardan 8 minə yaxını etibarsız sayılıb. Deməli, qanun layihəsi Ermənistan parlamentinin müvafiq komitəsinə təqdim edilə bilər. Əgər komitə sənədi plenar iclasa çıxarmağı məqsədəuyğun saysa, böyük ehtimalla qəbul ediləcək. Qəbul edilməsə isə layihə üçün əlavə imza sayı lazımdır ki, birbaşa referenduma çıxsın.

*

Əminliklə demək olar ki, "Vətəndaş sazişi"nin təşəbbüsü Ermənistanın özünü Avropa ailəsinə dürtmək cəhdidir. Gürcüstanda yaşanan gərginliklər və ölkənin Aİ-yə üzvlük prosesini təxirə salması fonunda Paşinyan və komandasının ortaya düşməsi adi məsələ sayıla bilməz. Nikol ölkəsini qlamur göstərməyə çalışır. Təxminən, ermənilərı gürcülərdən daha üstün təqdim etməyə girişib. Amma...

Digər tərəfdən, Ermənistanın "EuroVote" təşəbbüsü ölkənin Azərbaycanla sülhdən yayınması fonunda yaşanan prosesdir. Əlbəttə, bu yayınma Qərbin təhriki ilə gerçəkləşir. Çünki Qərb Bakı–İrəvan barış sazişini geosiyasi rəqabət kontekstində görür. Ona bu rəqabətin olmadığı sülh lazım deyil. Yəni, barış müqaviləsi Rusiyanı Cənubi Qafqazdan uzaqlaşdırmaq hədəfinə söykənməlidir.

Ssenariyə görə, Ermənistan sülh mühitindən mütləq uduşlu tərəf kimi çıxmalıdır. Elə bir tərəf ki, regional kommunikasiyalarda açar fiqur olsun. Əlbəttə, Azərbaycan bununla razılaşmır. Ona görə Naxçıvana yolun tam maneəsiz olmasını tələb edir və bu zaman 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı əsas götürür. O bəyanatı ki, orada Ermənistanın baş naziri Nikol Paşinyanın da imzası var.

Lakin Paşinyan üçtərəfli Bəyanatın Naxçıvana yolun maneəsizliyinə dair müddəasını danır. Buna görə Azərbaycan həmin yolun İrandan keçməsi üzərində dayanır. Qərbə xoş gəlməyən də elə budur. İrana qarşı ziddiyyətli mövqe tutan Qərb, nəyin bahasına olursa-olsun, Naxçıvana yolun, yəni Orta dəhlizin tərkib hissəsi sayılan ideyanın Ermənistan ərazisi vasitəsilə reallaşmasına fokuslanır. Hazırda belə təsəvvür var ki, əgər hadisələr Qərbin irəli sürdüyü şərtlər daxilində cərəyan etməsə, Ermənistan sülhlə razılaşmayacaq. Nəinki razılaşmayacaq, hətta Bakının alternativ variantına qarşı cəbhə açacaq, regionda qeyri-sabitlik yaradacaq. Ölkənin sürətli silahlanması da buna hesablanıb.

Diqqətə çatdırdığımıza görə deyə bilərik ki, Paşinyan iqtidarı üçün Aİ-yə qoşulmaq son dərəcə vacibdir. Vacib olan həm də ümumən, mövzunu gündəmdə saxlamaqdır. Bu, nə üçün lazımdır, məsələnin üzərində dayanıb ehtimallarımızı irəli sürəcəyik.

**Birincisi**, Aİ-yə üzvlük ritorikası, bütövlükdə, mövcud istiqamətdəki cəhdlər Paşinyan üçün Ermənistanı Cənubi Qafqazın "yeganə demokratik ölkəsi" kimi reklam etmək cəhdidir. Bu, müəyyən mənada mənəvi məsələdir. Elə bir məsələ ki, daim siyasiliklə assosiasiya təbiətini saxlayır.

**İkincisi**, Aİ müstəvisi Ermənistan üçün tipik erməni xəstəliyini, qonşulara qarşı ərazi iddialarını gündəmdə saxlamaq yolundakı vasitədir. Paşinyan bu yolda dünyanın daha ciddi dəstəyini qazanmaq istəyir.

**Üçüncüsü**, Ermənistan-Aİ münasibətlərinin hazırkı trayektoriyası dağıdıcılığa əsaslanır. Yuxarıda da bildirdiyimiz kimi, İrəvan Qərbin Cənubi Qafqazdakı siyasi oyunlarında əsas fiqurdur. Aİ isə ABŞ və Fransanın həmin oyunların gerçəkləşməsindəki başlıca alətidir. Hər halda, Paşinyan hansı təhlükədə olduğunun fərqindədir. O, hesab edə bilər ki, Aİ-də təmsilçilik ölkəsini risklərdən qoruyacaq. Bəri başdan deyək ki, bu, son dərəcə yanlış düşüncədir. Çünki regionunun ümumi axarını dəyişmək yönümlü cəhdlərə qarşı müqavimət, həmin cəhdləri göstərən tərəfin statusunu nəzərə almır. Yəni, Ermənistan Aİ-də təmsil olunmur, lap NATO-da yer alsın, heç bir xeyri olmayacaq.

**Dördüncüsü**, düşünmürük ki, hazırkı məqamda Ermənistanı Aİ ailəsində görmək istəyənlər var. Ölkə qurumun konseptual yanaşmasına, qətiyyən, uyğun gəlmir. Aİ qətiyyətli davransa idi, zamanında Gürcüstanın özünə qoşulmasına imkan yaradardı. Axı Gürcüstan Ermənistanla müqayisədə Avropa məkanına inteqrasiya baxımından daha çox məsafə qət edib.

*

Tbilisinin keçdiyi yol nəzərə alınmadı və ondan çox iş tələb edildi. Məsələn, anti-Rusiya ovqatını daha da gücləndirmək, ənənəvi dəyərlərdən uzaqlaşmaq və sair bu sayaq şərtlər irəli sürüldü ki, gürcü iqtidarı bunu yerinə yetirmədi. Çünki rəsmi Tbilisi 2008-ci ildə Qərbin Gürcüstanı Rusiya ilə qeyri-bərabər müharibəyə təhrik etməsini, özünün çəkilib kənarda durmasını yaxşı xatırlayır...

Əlqərəz, hazırda Ermənistanın Aİ-yə verəcəyi heç nə yoxdur. Yalnız rupor və forpost missiyasından başqa. Qərb İrəvanın həmin missiyanı nə dərəcədə həyasız formada yerinə yetirməsini izləyir. Heç şübhəsiz, bununla bağlı erməni iqtidarı qarşısında tələblər və standartlar var. Belə bir durumda Paşinyan bir qədər dərrakəli davransa, yaxşı anlayar ki, həmin tələb və standartlara əməl etmək cəhdi ölkəsi üçün, obrazlı desək, qəbir qazmaqdır. Müəyyən mənada qəbir qazılır da. Çünki Nikol ümumi kursu davam etdirməkdən çəkinmir.



Amma Ermənistana da ciddi təminat lazımdır. Təminat üçün isə şantaj yolu tutulmalıdır. Deməli, Paşinyanın partiyasının Aİ-yə üzvlük məsələsində referendum keçirmək təşəbbüsü həm də Aİ-ni şantaj cəhdidir. Bir halda ki, Qərbdə Ermənistanı qurumda görmək çağırışları yüksək səslənmir, Nikol ümumxalq səsverməsi ilə diqqəti özünə cəlb edəcək. Onun məqsədi sığortalanmaqdır.

Haşiyə çıxaq ki, N.Paşinyan ölkəsinin İctimai televiziyasına bir müddət əvvəlki müsahibəsində Aİ-yə qoşulmaqla əlaqədar ictimai reaksiyanın həvəsləndirici olduğunu vurğulamış, demişdi ki, Ermənistanda hakim çoxluğun liderinin, yəni özünün Avropa Parlamentinin tribunasında (Ermənistanın indiki qədər Aİ-yə yaxınlaşmağa hazır olmamasına dair) bəyanat verməsindən sonra Avropa və Ermənistan ictimaiyyəti nəyə görə Aİ-yə üzvlük prosesinə başlamaqdan imtina edildiyini və ya "EuroVote" layihəsinin əleyhinə səs verildiyini soruşa bilərlər. "Soruşa bilərlər: "Siz gəlib Avropa Parlamentində bunu dediniz. Camaatınız müsbət cavab verdi, indi buna qarşısınız? Bunun heç bir siyasi məntiqi yoxdur", – deyən Paşinyan haqqında söz açdığımız qanun layihəsinin qəbulundan sonra avropalı dostları ilə ünsiyyətdə, təxminən, belə dil-ləcək: erməni xalqı Aİ-yə qoşulmaq üçün iradəsini ortaya qoydu. Bu işi niyə gerçəkləşdirmirsiniz?

Nikolun Aİ-ni şantaj məntiqində ikinci vacib nüans da var. Nəzərə alsaq ki, qurumda Ermənistanı, tez bir zamanda, Aİ-də görmək istəmirlər, o zaman Paşinyan iqtidarı gələcəkdə manevr imkanı qazanır. Məsələn, Nikol və tərəfdarları deyə bilərlər ki, Aİ Ermənistanı öz tərkibində görmək istəmirsə, o zaman İrəvan gələcək kursunu özü müəyyənləşdirəcək. Axı hami axtarmaq erməni təfəkkür tərzinin, belə demək mümkünsə, ən parlaq göstəricisidir.

*

Bəli, tam mümkündür ki, Nikol Aİ-yə qoşulmaq müstəvisində "EuroVote" təşəbbüsünü və referendum məsələsini irəli sürərsə, gələcəkdə Ermənistanın təşkilata daxil edilməməsi ona manevr imkanları verəcək. O, çox asanlıqla belə deyə bilər: biz istəyirdik, qəbul etmədiniz, məcbur olub öz yolumuzu tutduq. Öz yolunu tutmağın Gürcüstan variantı isə hazırdır.

Bəs Ermənistanın Aİ-nin tamhüquqlu üzvü olması məsələsi nə dərəcədə realdır? Əlbəttə, vaxtilə Gürcüstanın Avropaya inteqrasiya kursunu bir kənara qoyub, nəzərə alsaq ki, hazırda Ukrayna Qərbə, belə demək mümkünsə, sədaqətini Rusiya ilə qanlı müharibə aparmaqla göstərir, ancaq ölkənin Aİ-yə və NATO-ya üzvlüyü xüsusunda qətiyyət yoxdur, o zaman tam əminliklə Ermənistanın heç bir şansının olmadığını vurğulaya bilərik.

Amma Qərbin Ukrayna cəbhəsindəki məğlubiyyətini və Suriyadakı "Pirr qələbəsi"ni (məğlubiyyətə bərabər qələbə) hesabdan silməyək. Deməli, Cənubi Qafqazın vacibliyi arta bilər. Üstəlik, Qərbin Gürcüstandakı məğlubiyyəti də əsas götürülməlidir. Deməli, Ermənistanın "demokratiya qalası" kimi ayaqda saxlanılması şərtdir. Bu mənada ölkənin Aİ-də təmsilçiliyi üçün şəraitin yetişməsi mümkündür. Əlbəttə, həmin vaxtadək Ermənistan müstəqil dövlət kimi ayaqda qala bilsə. Çünki hazırda Qərbin İrəvan üçün müəyyənləşdirdiyi fəaliyyət gündəmi ölkənin ərazi bütövlüyünü və suverenliyini riskə atır. Risk bu gündür, Aİ-yə üzvlük isə gələcəyin işidir. Özü də qeyri-müəyyən gələcəyin.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Həm sülhdən dəm vururlar

## həm də xaricdə məhkəmə qapılarında sülənirlər

**Nikol Paşinyan başda olmaqla Ermənistan hökumətinin xarici siyasətinə cavabdeh olan bütün rəsmi şəxsləri səfər etdikləri ölkələrdə keçirdikləri görüşlərdə, beynəlxalq platformalardakı çıxışlarında, müzakirələrdə, bir sözlə, əllərinə düşən hər fürsətdə Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulmasının vacibliyindən dəm vururlar. Onlar bununla özlərini dünya ictimaiyyətinin gözündə sülhpərvər kimi göstərmək istəyirlər.**




Sonuncu dəfə xarici işlər naziri Ararat Mirzoyan dekabrın 5-də ATƏT Xarici İşlər Nazirləri Şurasının 31-ci iclasındakı çıxışı zamanı ölkəsinin Azərbaycanla münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin delimitasiyası üzrə danışıqlarda konstruktiv iştirakını davam etdirdiyini bildirdi. Qeyd etdi iki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin imzalanması istiqamətində tərəqqi əldə olunub. Sənədin preambulası və 17 maddədən 15-i razılaşdırılıb. Mirzoyan, həmçinin Ermənistan və Türkiyə arasında diplomatik əlaqələrin qurulması və sərhədlərin açılması da daxil olmaqla münasibətlərin tam normallaşmasının regionun sülh və sabitliyinə mühüm töhfə verəcəyini vurğuladı.

Ancaq bu təmtəraqlı bəyanata baxmayaraq, Ermənistan bölgədə gerçək sülhün yaranmasına imkan verəcək addımları atmaqda maraqlı görünmür. Heç kəs üçün sirr deyil ki, Azərbaycanın etirazına səbəb olan əsas məsələ Ermənistan konstitusiyasına dəyişiklik edilməməsi ilə bağlıdır. Bundan əlavə, Ermənistan silah-sursat alışını artırır, ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə bağlı qurumun Vyanada yerləşən katibliyinə birgə müraciət ünvanlanması ilə bağlı Bakının təklifinə müsbət cavab vermir.

Ermənistan hökumətinin sülh istəyində səmimi olmadığını göstərən digər nüans ölkəmizə qarşı beynəlxalq məhkəmələrdə qaldırdığı iddiaları davam etdirməsidir. Haaqada yerləşən Beynəlxalq Ədalət Məhkəməsində hazırda Ermənistanın Azərbaycana qarşı qaldırdığı bir neçə iddia üzrə işlərə baxılır. Yəni, Ermənistan Azərbaycana qarşı ən azı hüquqi müstəvidə mübarizəsini davam etdirir. Bu mübarizə bir sıra ekspertlər tərəfindən doğru olaraq, “beynəlxalq hüquqi müharibə” adlandırılır. Məhkəmə iddiaları İkinci Qarabağ müharibəsindən sonra və xüsusilə 2023-cü ilin yazında – antiterror tədbirlərinə bir neçə ay qalmış qaldırılıb. İki ölkə arasında müharibə vəziyyətinin mövcud olduğu dövrdə bu iddiaların qaldırılmasını hardasa başa düşmək olardı. Amma indiki dövrdə iddialardan imtina edilməməsi İrəvanın əsl xislətini ortaya qoyur. Hərçənd ki, N.Paşinyan 2024-cü il noyabrın 22-də ölkəsinin ictimai televiziyasına verdiyi müsahibədə Ermənistan və Azərbaycanın beynəlxalq instansiyalardan hüquqi iddialarını qarşılıqlı şəkildə geri götürməsinin mümkünlüyünü bildirmişdi: “Əgər biz həqiqi sülhə can atırıqsa və sülh müqaviləsi imzalayırıqsa, belə bir razılaşmanın əldə olunması mümkündür. Bu o deməkdir ki, nə biz, nə də onlar keçmişdə baş vermiş hadisələrə görə bir-birimizə qarşı iddia qaldırmamalıyıq”.

Ancaq Ermənistanın beynəlxalq hüquqi məsələlər üzrə nümayəndəsi Yegişe Kirakosyan dekabrın 9-da jurnalistlərə açıqlamasında bildirib ki, hazırda İrəvanın beynəlxalq məhkəmələrdə Bakıya qarşı qaldırdığı iddiaları geri götürə biləcəyini göstərən heç bir əlamət yoxdur. O, əmin edib ki, məhkəmələrdə bütün müvafiq prosedurlar davam edir. Kirakosyan N.Paşinyanın tərəflərin sülh müqaviləsi bağlayarkən iddialardan qarşılıqlı imtinası ilə bağlı bəyanatlarına, eləcə də bu məsələdə baş nazirlə fikir ayrılığına dair yayılan məlumatlara münasibət bildirməkdən imtina edib: “Mən baş nazirin sözlərinə şərh verə bilmərəm, düşünürəm ki, bununla bağlı xarici işlər nazirliyi ilə danışmağınız düzgün olardı. Amma onu deyə bilərəm ki, biz indi iddialarımız üzərində işləməyi davam etdiririk. Nəzərdə tutulan prosedurlar həmişəki kimi davam edir. Yəni, iddialarımız və işlərə baxılması prosesi gedir. İddiaların geri götürülməsi məsələsi gündəmdə deyil, belə bir qərar yoxdur. İddialarımıza baxılmasını təmin etmək üçün zəruri olan prosessual addımlar atılır”.

Buna paralel olaraq Ermənistan Qarabağdakı keçmiş separatçı rejimin “qlavarlarının” qaytarılması məsələsindən də əl çəkmir. Düzdür, onlar bu məsələ ilə bağlı açıq çıxışlara cürət etmirlər. Amma hər halda boş oturduqlarını demək də doğru olmazdı. Məsələn, Y.Kirakosyan xatırladıb ki, İrəvan BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə “erməni əsirlərlə” bağlı müraciət edib, lakin hər iki instansiya bu məsələnin onların yurisdiksiyasından kənarda olduğunu bildirib. Onun fikrincə, problemin həlli siyasi müstəvidədir: “Bilirsiniz, biz məhbusların (?) qaytarılması məsələsini qaldırdıq, lakin bu, siyasi platformalarda daha çox müzakirə olunmalı məsələdir”.

Göründüyü kimi, rəsmi İrəvan hələ də öz iddiasında qalır. Güman etmək olar ki, Ermənistan gələcəkdə üçüncü ölkələri, eləcə də diasporu cəlb etməklə “beynəlxalq hüquqi müharibə”ni genişləndirmək istəyir. Onların hərəkətlərini başqa cür izah etmək mümkünsüzdür.



**Beynəlxalq Avrasiya Mətbuat Fondunun vitse-prezidenti, siyasi şərhçi Oğuz Mirzəyev** XQ-yə açıqlamasında bildirdi ki, Ermənistanın beynəlxalq məhkəmə instansiyalarında qaldırdığı iddialar bu ölkənin törətdiyi cinayətləri ört-basdır etmək və dünya ictimaiyyətini aldatmaq məqsədini daşıyır. Onun sözlərinə görə, 30 ilə yaxın həm ekoloji terror, həm iqtisadi cinayətlər törətmiş, həm də dini və etnik təmizləmə siyasəti həyata keçirmiş Ermənistan, indi öz əməllərini inkar edərək, məzlum görkəm alaraq, beynəlxalq məhkəmələrdən imdad diləyir. Bu isə yalnız ikili standartların və beynəlxalq hüququ manipulyasiya etmək cəhdlərinin bariz nümunəsidir: “Ermənistan işğal dövründə torpaqlarımızda misli görünməmiş ekoloji fəlakətlərə, necə deyərlər, imza atıb. Meşələrin qırılması, torpaq və su resurslarının çirkləndirilməsi, təbii sərvətlərin talan edilməsi bu siyasətin bir hissəsi idi. Qarabağ və Şərqi Zəngəzurda minlərlə hektar meşə sahəsi yandırılıb, su hövzələrinə zəhərli tullantılar axıdılıb, bütövlükdə, ekosistemə böyük zərər vurulub. Həmin ərazilərin mineral resursları istismar edilib, mədənlər qanunsuz işlədilib və hasilat xarici bazarlarda satılıb. Bununla yanaşı, Ermənistan işğal müddətində infrastrukturu tamamilə məhv edib, şəhər və kəndləri viran qoyub. Ağdam şəhəri beynəlxalq təşkilatlar tərəfindən “Qafqazın Hirosiması” adlandırılıb. Bu vəziyyət Ermənistanın iqtisadi terror siyasətinin əsl miqyasını göstərir”.

O.Mirzəyev qeyd etdi ki, işğal olunmuş ərazilərdə genişmiqyaslı dini və etnik təmizləmə siyasəti həyata keçirilib. Azərbaycanın mədəni və dini irsinə aid abidələr məhv edilib. Məscidlər dağıdılıb, bəziləri təhqiq olunaraq heyvan saxlanılması üçün istifadə edilib. Eyni zamanda, yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından qovulub və onların qayıdışına onilliklər ərzində imkan verilməyib. İkinci Qarabağ müharibəsindən və lokal xarakterli antiterror tədbirlərindən sonra isə Ermənistan özünü “zərərçəkmiş tərəf” kimi sırımağa çalışır. Bu isə sülh prosesinə ciddi zərbə vurur: “Məhkəmə qərarlarının məqsədyönlü şəkildə manipulyasiya edilməsi, beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdləri Ermənistanın əsl niyyətlərini bir daha ortaya qoyur”.

Müsahibimiz bildirdi ki, Ermənistanın dövlət büdcəsində hərbi xərclərin son illərdə əsaslı şəkildə artırılması, o cümlədən gələn ilin hərbi büdcəsinin bu ilə nisbətən 20 faiz artması təkcə təhlükəsizliyin təmin olunması məqsədi daşımadığını sübut edir: “İkili standartlarla hərəkət edən Ermənistan, silahlanmanı regionda təcavüzkarlıq siyasətini davam etdirmək üçün prioritet istiqamət seçib. Bu siyasətə Qərb dövlətlərindən verilən dəstək, xüsusilə də hərbi təlimlər və silah-sursatla təchizat gərginliyi daha da artırır. Ermənistan beynəlxalq platformalarda sülhdən danışarkən, şərti sərhəddə hərbi qüvvələrini artırır və yeni hücum ssenarilərini sınaqdan keçirir. Ancaq İrəvanın Qərb dövlətlərindən dəstək alaraq regionda təxribatçı siyasət yürütməsi onun öz gələcəyinə ciddi zərbə vurur. Regionun coğrafi və geosiyasi xüsusiyyətlərini nəzərə almayan Ermənistan dövləti Qərblə apardığı çirkin siyasətin, əslində, öz əleyhinə işlədiyinin fərqinə varmalıdır. Nəzərə almalıdır ki, Azərbaycanın ətrafında formalaşan iqtisadi və diplomatik alyanslar Ermənistanı daha da təcrid edir və onun regionda inteqrasiya imkanlarını məhdudlaşdırır”.

Siyasi şərhçinin sözlərinə görə, Ermənistan uzunmüddətli sülh və sabitliyin yalnız qonşu dövlətlərlə sağlam münasibətlərin qurulması yolu ilə mümkün olduğunu anlamalıdır. Ermənistan da regionun bir hissəsi olaraq, konstruktiv dialoqa və əməkdaşlığa yönəlməli, təxribat siyasətindən imtina etməlidir. Qərbdən aldığı dəstəklə həyata keçirdiyi təxribatlar nə onun təhlükəsizliyini təmin edir, nə də gələcəyinə zəmanət verir. Əksinə, bu siyasət Ermənistanı daha da zəiflədərək onu regional və beynəlxalq səhnədə daha etibarsız tərəfdaş kimi göstərir.

O.Mirzəyev dedi ki, bu gərginliklərə baxmayaraq, Azərbaycan hər zaman sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Ölkəmiz beynəlxalq hüquqa əsaslanaraq, Ermənistanın təxribatlarına cavab verir və özünün prinsipial mövqeyini qoruyub saxlayır. Azərbaycanın həm hərbi, həm iqtisadi, həm də diplomatik sahələrdə qazandığı uğurlar regionun inkişafına töhfə verir və sabitliyi təmin edir. Ermənistan rəhbərliyinin bu reallıqları qəbul etməsi və sülh təşəbbüslərinə qoşulması həm öz xalqı, həm də region üçün ən yaxşı seçimdir. Ermənistan yalnız Qərbin manipulyasiyalarına uymadan və təxribatçı siyasətdən əl çəkərək regionda təhlükəsizlik və rifaha töhfə verə bilər. Azərbaycanın dövlət–xalq birliyi ilə əldə etdiyi uğurlar Ermənistan üçün dərs olmalıdır. Təxribat və destruktiv siyasət yalnız qısamüddətli mənfəətlər gətirir, lakin uzunmüddətli sabitlik və inkişafı mümkünsüz edir. Ermənistan regionun bir hissəsi olaraq, konstruktiv yanaşma ilə gələcəyini daha möhkəm təməllər üzərində qurmalıdır.

*Səxavət NAZİMOĞLU*
*XQ*

# İstanbul missiyası hayları necə yerlərində oturdub?

## Yaxud 1918-ci ildə Ermənistanın sərhədləri genişləndirmək xəyalları

**Tarixdə baş verən elə olaylar var ki, onlar bu günümüzlə də səsləşir. Sanki, tarix təkrar olunur. İlk erməni dövlətinin ortaya çıxdığı dövrdə, yəni 1918-ci ildə Ermənistanın vəziyyəti indikindən az fərqlənirdi. Yenə başqalarının ərazisinə göz dikmək, imza atdığı anlaşmalardan kənara çıxmaq, qəbul edilən hüquqi normalara riayət etməmək, yaltaqlıq yolu ilə istəyinə nail olmaq kimi xüsusiyyətlər bu dövlətin xisləti olmuşdur.**




O dövrdə də, elə indi də ermənilərin bölgədə bir dövlət kimi mövcudluq imkanları Türkiyə və Azərbaycana bağlı olmuşdur. Ermənilərə bu şansı biz vermişik. Məhz bizim torpaqlarda, keçmiş İrəvan xanlığının ərazilərində Ermənistan Respublikası elan ediləndən və 4 iyun 1918-ci il Batum müqaviləsi ilə 9 min kvadrat/kilometr ərazidə tanınandan sonra Osmanlı dövlətinə erməni nümayəndə heyətinin səfəri oldu. Bu səfərin məqsədi nə idi? Ermənistan torpaqlarını genişləndirmək. Bəzi erməni siyasilər elan edilmiş bu ərazidə müstəqil dövlətin qurulmasını imkansız hesab edirdilər. Bu səbəbdən ərazilərin genişləndirilməsi məqsədilə “düşmən” hesab etdikləri Osmanlının böyükləri ilə “bəlkə nəsə qopardıq” ümidi ilə məsləhətləşməyə gedirdilər. Bu görüşlərdə iştirak edən Ermənistan rəhbərlərinin sonradan yazdıqları xatirələrdə onların ənənəvi erməni üsulları ilə davrandıqları ortaya çıxır.

1918-ci il iyunun 15-dən noyabradək İstanbulda olan erməni nümayəndə heyəti Batum müqaviləsini yumşaltmağa cəhd göstərirdi. Nümayəndə heyətinin başçısı Aharonyan, üzvləri Papacanyan, Hatisyan İstanbulda çoxsaylı görüşlər keçirdilər. Birinci Dünya müharibəsinin sonuna qədər Osmanlı imperiyası hələ də Ənvər Paşa, Tələt Paşa və Camal Paşanın əlində idi. Ən qəribəsi o idi ki, ermənilər sonralar qondarma “erməni soyqırımı”nda ittiham etdikləri şəxslərdən mədət ummağa getmişdilər. O zaman Osmanlı dövlətinin başında duran şəxslər Cənubi Qafqazda bir erməni dövlətinin ortaya çıxmasına mane olmamışdılar. Buna görə erməni heyətinin üzvləri Osmanlı dövlətinə minnətdarlıqlarını öz xatirələrində yaltaqcasına ifadə ediblər. Ermənilər aldıqlarının üstünə bir az da əlavə etmək üçün dəridən-qabıqdan çıxırdılar.

1918-ci il iyunun 25-də İstanbulda Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası və Bolqarıstanın iştirakı ilə konfrans başlanmalı idi. Cənubi Qafqaz respublikaları da bu konfransa dəvət olunmuşdular. Erməni tərəfində belə bir ümid vardı ki, Almaniya Brest-Litovsk müqaviləsinə uyğunlaşdırmaq üçün Batum müqaviləsinə yenidən baxmaq istəyir. İrəvandan İstanbula gələn nümayəndə heyətinə tapşırılmışdı ki, Ermənistan Respublikasının sərhədlərini genişləndirmək üçün hər cür səy göstərsin, həm də konfransda iştirak edən dövlətlərdən dəstək alsın. Onlar noyabrın 1-dək, dörd aydan çox İstanbulda qalıb, Xatisyanın sözlərinə görə, “qafqazlı qonşularımızın nəzarətə aldıqları Axalkalaki, Lori, Zəngəzur, Qarabağ, Naxçıvan üzərində erməni haqqına və hüquqlarına” diqqət çəkməyə çalışmışdılar. Erməni heyəti ümid edirdi ki, adıçəkilən ərazilər Ermənistana verilə bilər. Onlar bütün görüşlərdə bu məsələni qaldırırdılar.

Yeni yaranmış dövlətlərin həm də tanınmaq kimi problemləri vardı. Osmanlı hökuməti yeni elan olunmuş Cənubi Qafqaz dövlətlərinə müttəfiqləri Almaniya, Avstriya-Macarıstan və Bolqarıstanla anlaşmaqda kömək edəcəyinə söz vermişdi. Bundan başqa, Türkiyə müstəqilliklərini elan etmiş Gürcüstan, Azərbaycan və Ermənistan arasındakı problemləri həll etməyə çalışacaqdı. Osmanlı rəsmilərinin dilə gətirdikləri bu məram erməniləri ürəkləndirmişdi.

Xatisyan yazır: “Türklər bizim planlarımıza və istəklərimizə yaxşı bələd idilər. Lakin onlar ciddi erməni dövlətinin yaranmasını istəmirdilər. Bakıya gedən yolu açıq saxlamaq istədikləri üçün Qarabağın və Zəngəzurun Ermənistana birləşdirilməsinə qarşı çıxdılar. Qazax–Gəncə yolunu azad etmək istədikləri üçün Axalkalaki və Lorinin bizə verilməsinə müsbət baxmadılar. Biz sərhədləri çəkilmiş xəritəmizi türklərə təqdim edəndə gördük ki, ermənilər yaşayan bəzi əraziləri azərbaycanlılar və gürcülər artıq öz sərhədləri daxilində tanıtdırıblar. Buradan Ermənistan–Gürcüstan və Ermənistan–Azərbaycan münaqişələrinə səbəb olan təhlükəli daxili münaqişə ön plana çıxdı”.

Demək, hələ o zaman ermənilər Azərbaycana və Gürcüstana məxsus ərazilərə iddialarından əl çəkməmişdilər. Dörd aydan çox gözlədikdən sonra konfrans baş tutmadı. Bunun əsas səbəbi o günlərdə Almaniya–Osmanlı ordularının döyüş meydanında uğursuzluğa düçar olmaları idi. Ermənistan nümayəndə heyətinin İstanbuldakı diplomatik missiyası Türkiyə liderləri və xarici səfirlərlə görüşlərlə məhdudlaşmalı oldu.

Amerikalı erməni tarixçisi Riçard Hovannisyan yazır: “Xatisyanın missiya katibi Aharonyanın hesabatlarında Ənvər və Tələt Paşa ilə alçaldıcı görüşlər təsvir olunur. Dilənçilər (erməni nümayəndə heyəti) o qədər alçaldıldılar ki, Ermənistan Cümhuriyyətinin yaradılmasına icazə verdiyi üçün Osmanlı İmperiyasına təşəkkür edib geri döndülər”.

Bu müzakirələr zamanı Tələt Paşa ilk dəfə 1915-ci il olaylarından danışmış, erməni heyətinin dediyinə görə, bir çox ölümlərdə kürdlərin günahkar olduğunu bildirmiş, sadəcə olaraq, bəzi yerli hərbi məmurları məsuliyyətsizlikdə qınamışdı. O, açıq şəkildə erməniləri Osmanlı dövlətinə sədaqətsizlik və xəyanətlərinə görə ittiham etmişdi. Erməni nümayəndələr Tələt Paşanın bu fikirlərini də haqlı hesab etmişdilər.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# BP-nin xalqımızın mədəni irsinə önəmli töhfəsi

**Ölkəmizdə iri neft-qaz layihələrinin operatoru olan BP şirkəti bir sıra sosial təşəbbüslərlə də çıxış edir. Şirkətin sosial sərmayələri isə yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib.**



Bugünlərdə isə BP-Azərbaycan şirkəti xalqımızın müxtəlif nəsillərini təmsil edən incəsənət nümayəndələrini və onların 1960-cı illərdən bəri yaratdıqları seçilmiş sənət əsərlərindən ibarət kitab-albomu nəfis şəkildə çap etdirib.

Azərbaycan Milli İncəsənət Muzeyində həmin sənət incisinin və vebsaytın təqdimatına həsr olunmuş mərasimi giriş sözü ilə "BP-Azərbaycan"ın şirkətxarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlı açaraq layihənin təmsil etdiyi qurumun Azərbaycanın zəngin mədəni irsinin təbliğinə verdiyi davamlı dəstəyin bir hissəsi olduğunu bildirdi. Onun sözlərinə görə, kitabda Azərbaycanın ecazkar sənət aləminin parlaq, rəngarəng və çoxşaxəli özəlliklərini ən yaxşı təmsil edən sənətkarlar və onların yaradıcılığı əhatə olunub.

Qeyd olundu ki, Azərbaycan, ingilis və rus dillərində nəşrə hazırlanmış kitab-albomda təqdim olunan əsərlər Azərbaycan Dövlət Rəsm Qalereyasında sərgilənən rəngkarlıq, heykəltəraşlıq, qrafika, tətbiqi sənət və teatr dekorasiya sənətini əhatə edən 12 min əsərlik yaradıcılıq kolleksiyasından seçilib. Ümumilikdə, bu nəşr Azərbaycan milli rəssamlıq məktəbinin dünya şöhrətli korifeyləri ilə yeni, istedadlı gənc nəslini bir araya gətirmiş qiymətli sənət toplusudur.

BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxışında təmsil etdiyi şirkətin Azərbaycanın neft-qaz sektorunda uğurla fəaliyyət göstərməsi ilə yanaşı, sosial, təhsil, mədəniyyət, incəsənət və digər sahələrdə də mühüm layihələr həyata keçirdiyini diqqətə çatdırdı: "İlk dəfə olaraq Azərbaycanın möhtəşəm yaradıcılıq sənətinin böyük ustadları – Səttar Bəhlulzadə, Tahir Salahov, Toğrul Nərimanbəyov, Mikayıl Abdullayev, Mircavad Mircavadov, Əşrəf Murad, Rasim Babayev, Böyükağa Mirzəzadə, Ömər Eldarov, Lətif Kərimov, Vəcihə Səmədova, Maral Rəhmanzadə və digər görkəmli sənətkarlarla yüksələn gənc istedadları bir yerə toplamış bu unikal incəsənət kitabını təqdim etməkdən qürur duyuruq. Bu kitab bir daha "incəsənət" sözünün təcəssüm etdirdiyi yaradıcılıq, təxəyyül və ilhamın simvolik gücünü vurğulayır. BP şirkəti Azərbaycanın həm dünya şöhrətli, həm də inkişaf etməkdə olan yaradıcılıq sənətinin təbliğinə töhfə verməkdən qürur duyur."

Tədbirdə çıxış edən digər natiqlər unikal kitab-albomu incəsənətimizin təbliğinə, sənət fədailərimizin ölməz ruhlarına verilən yüksək qiymətin nəticəsi kimi dəyərləndirdilər. Qeyd olundu ki, bu sənət toplusu müvafiq incəsənət mərkəzlərinə, muzeylərə, qalereyalara və kitabxanalara, eləcə də bütün sənətsevərlərə BP-nin hədiyyəsidir.

Xatırladaq ki, Təşəbbüslər və Layihələr Mərkəzi tərəfindən icra olunan kitab-albomun nəşrini, eləcə də vebsaytın hazırlanmasını əhatə edən layihə 85 min 300 manata başa gəlib. Ümumilikdə isə, BP şirkəti ölkəmizdə fəaliyyət göstrədiyi 32 il ərzində özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından sosial sərmayə proqramına, təqribən, 111 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

# Qiymətli kağızlar bazarı ölkəyə 698 milyon dollar qazandırıb

**Mərkəzi Bankın Statistika departamentinin direktoru Samir Nəsirov 2024-cü ilin 3-cü rübü üzrə tədiyə balansının açıqlanmasına dair brifinqdə hesabat dövründə Azərbaycanın tədiyə balansının cari əməliyyatlar hesabının profisitinin 4 milyard dollar təşkil etdiyini bildirib. O, daha sonra cari əməliyyatlar hesabının ÜDM-də payının 7,2 faizə yüksəldiyini, neft-qaz sektorunda həmin göstəricinin 11,1 milyard dollara çatdığını, qeyri–neft sektorunda isə 7,1 milyard dollar kəsir yarandığını vurğulayıb.**




Samir Nəsirov, eyni zamanda, üçüncü rübdə Azərbaycana göndərilən pul baratları həcminin 848,5 milyon dollar təşkil etdiyini, bu sahədə ilk beş ölkənin Rusiya ( 411 milyon dollar), Türkiyə (130 milyon dollar), ABŞ (48 milyon dollar), Gürcüstan (27 milyon dollar) və BƏƏ (26 milyon dollar) olduğunu bildirib. Respublikamızdan xaricə isə 408 milyon dollar (Türkiyəyə 118 milyon dollar, ABŞ-yə 45 milyon dollar, Rusiyaya 41 milyon dollar, Gürcüstana 36 milyon dollar) məbləğində köçürmələr olub.

Brifinqdə yanvar–sentyabr aylarında idarə, müəssisə və təşkilatların qiymətli kağızlar bazarından 698 milyon dollar gəlir əldə etdiyi, bunun 207 milyon dollarının üçüncü rübün payına düşdüyü diqqətə çatdırılıb.

Cari ilin üçüncü rübündə Azərbaycanın neft–qaz və qeyri–neft–qaz sektoruna, ümumilikdə, 4,5 milyard dollar həcmində birbaşa xarici investisiya yatırılıb, ölkəmizdən kənara qoyulan birbaşa xarici sərmayələr isə 1,4 milyard dollara (2023-cü ilin eyni dövründə 998 milyon dollar) bərabər olub.

Azərbaycandan Birləşmiş Ərəb Əmirliklərinə birbaşa investisiyalar 431 milyon dollar, Türkiyəyə 175 milyon dollar, Gürcüstana 96 milyon dollar, Birləşmiş Krallığa 87 milyon dollar və Özbəkistana 78 milyon dollar təşkil edib.

# Orta illik inflyasiya 2 faizdir

**Cari ilin yanvar-noyabr aylarında Azərbaycanda istehlak qiymətləri indeksi ötən ilin eyni dövrü ilə müqayisədə 102 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 101 faiz, qeyri-qida məhsulları üzrə 101,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə 103,8 faiz təşkil edib.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin noyabr ayında istehlak qiymətləri indeksi ötən ilin eyni ayına nisbətən 104,4 faiz, o cümlədən, qida məhsulları, içkilər və tütün məmulatları üzrə 104,4 faiz, qeyri-qida məhsulları üzrə 102,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 106 faiz olub. Ötən ay istehlak qiymətləri indeksi oktyabr ayına nisbətən isə 100,7 faiz, o cümlədən, qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi 101,4 faiz təşkil edib.

Noyabrda ayrı-ayrı qida məhsullarından daha çox artım uzun düyünün, yulaf yarmasının, mal ətinin, balıq konservlərinin, qatığın, pendirin, kəsmiyin, yumurtanın, süfrə marqarininin, kərə, günəbaxan və qarğıdalı yağlarının, bananın, üzümün, qozun, fındığın, şabalıdın, ağ kələmin, göyərtinin, pomidorun, xiyarın, şirin bibərin, badımcanın, sarımsağın, soğanın, kartofun, qara və yaşıl çayın, azalma isə təzə balığın, limonun, portağalın, naringinin, almanın, heyvanın, narın, xurmanın, kivinin, süfrə çuğundurunun, yerkökünün qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Ötən ay qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,2 faiz olub. Bu növ məhsullara aid olan geyimlərin, inşaat materiallarının, mebellərin, zərgərlik məmulatlarının qiymətlərində artım, mobil telefon, noutbuk və məişət cihazlarının qiymətlərində isə əksinə, azalma qeydə alınıb. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Noyabrda əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi isə oktyabra nisbətən 100,2 faiz təşkil edib. Əhaliyə göstərilmiş ödənişli xidmətlərdən artım, əsasən, tibbi laboratoriya xidmətlərinin, stomatoloji, bərbərxana və kosmetoloji xidmətlərin, hava nəqliyyatı ilə xarici ölkələrə sərnişindaşıma xidmətlərinin müşahidə olunub. Bununla belə, MDB ölkələrinə hava nəqliyyatı ilə sərnişindaşıma xidmətlərinin qiymətlərində azalma baş verib. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər qeydə alınmayıb.

## Naxçıvan xəbərləri

# Tibbi sığorta daxilolmaları 17 faiz artıb



**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə cari ilin yanvar–noyabr aylarında Naxçıvan Muxtar Respublikasında işsizlikdən sığorta haqları üzrə daxilolmalar 2023-cü ilin eyni dövrü ilə müqayisədə 11 faiz artaraq 3,9 milyon manatdan çox olub.**

# Su anbarlarının ehtiyatı çoxalıb



**Muxtar Respublikada 2024-cü ilin noyabr ayı ərzində suvarma mövsümünü mütəşəkkil başa çatdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin tabe idarələrinə aid ərazilərdə kanal və arxlarında lildən təmizlənmə işləri davam etdirilib.**

Suvarılan sahələrdə qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülüb. Hidrotexniki qurğularda təmir işləri aparılıb, su anbarlarına suyun yığılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilib. Agentliyin mətbuat xidmətindən "XQ"yə verilən məlumata görə, 2024-cü ilin noyabr ayının sonunda su anbarlarında 145,32 milyon kubmetr su ehtiyatı mövcud olub. Su istifadəçilərinə ay ərzində 22,75 milyon kubmetr su verilib, bunun müqabilində 18 min 294 hektar torpaq sahəsi suvarılıb.

Torpaq sahələrinin su təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə Şərur rayonunun 27 hektar, Babəkin 10 hektar, Naxçıvan şəhər ərazisinin isə 15 hektar olmaqla, ümumilikdə, 52 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb.

2024-cü ilin noyabr ayında 4 kəhrizdə cari təmir işləri başa çatdırılıb, 1 kəhrizdə isə işlər davam etdirilib. Kəhrizlərdə 89 metr kürə təmizlənib, 6 metr saybənd hörülüb.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Naxçıvan**

# Ağdam ayaqqabıları Avropaya göndəriləcək

**Azərbaycanda ilk dəfə olaraq ayaqqabı istehsalçısı beynəlxalq standartlara uyğunluq sertifikatları alıb. EN ISO 20345:2022 və EN ISO 20347:2022 beynəlxalq standartlara uyğunluq sertifikata isə İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti "BAFCO İnvest" MMC layiq görülüb.**



Bununla da, Ağdam Sənaye Parkında istehsal olunan ayaqqabıların Avropa bazarına ixracına imkan yaranıb. Hazırda "BAFCO İnvest" MMC tərəfindən istehsal edilən məhsulların ixrac edilməsi məqsədilə MDB və Avropa ölkələri ilə danışıqlar aparılır.

Xatırladaq ki, Ağdam Sənaye Parkının 2,5 hektar ərazisində yerləşən və Almaniyanın tanınmış Desma markasının avadanlıqları ilə təchiz olunan fabrikin illik istehsal gücü 510 min cüt ayaqqabı təşkil edir.

# Qeyri-neft-qazdan vergi daxilolmaları 14 faiz artıb

**Dövlət Vergi Xidmətindən "XQ"yə verilən məlumata əsasən, cari ilin yanvar–noyabr ayları ərzində dövlət büdcəsinə 14 milyard 993 milyon manata yaxın vergi daxil olub, proqnoza 104,1 faiz əməl edilib.**




Bildirilib ki, ödənilən vergilərin 68,6 faizi qeyri-neft-qaz sektorunun, 31,4 faizi isə neft-qaz sektorunun payına düşüb.

Qeyri-neft-qaz sektorundan daxilolmalar 10 milyard 286,2 milyon manatdan artıq olub, dövlət büdcəsinə proqnozdan əlavə 292 milyon manatdan çox vəsait ödənilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 14,1 faiz artıb.

# Alma, armud, bir də heyva

## *Bu 3 meyvənin ixracı ölkəyə 60 milyon dollar qazandırıb*

**Azərbaycandan xarici ölkələrə meyvə ixracında artım davam edir. Kənd Təsərrüfatı Nazirliyindən XQ-yə verilən məlumata görə, bu ilin yanvar–noyabr aylarında ölkəmizdən xarici bazarlara 94 min 526,3 ton alma, armud və heyva ixrac olunub. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur.**



Hesabat dövründə ölkəmiz alma, armud və heyva ixracından 59 milyon 994 min 600 dollar qazanc əldə edib. Xatırladaq ki, bu meyvələrin ixracından əldə edilmiş gəlir əvvəlki ilin 11 ayı ilə müqayisədə 2,8 faiz çox olub.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Ermənistan Əsəd rejiminin devrilməsindən əndişələnir

**Başər Əsəd rejiminin devrilməsi Ermənistanda da ciddi müzakirə mövzusu olaraq qalır. Erməni ekspertlər "tarixi dost" hesab etdikləri Suriyada hakimiyyət dəyişikliyinin Ermənistana da təsir göstərəcəyini bildirirlər. Xüsusilə də Suriyada yaşayan erməni icmasının sonrakı taleyi İrəvanda narahatlıq doğurur. Ona görə ki, ermənilər rəsmi Dəməşqlə körpü rolunu oynayan diaspor rıçaqından məhrum olurlar və eyni zamanda, Başər Əsədin timsalında "erməni məsələsi"ni gündəmdə saxlayan rejimlə əlaqələrini itirirlər. Bəzi siyasi ekspertlər isə Suriya kartının vurulmasının Ermənistanın geosiyasi vəziyyətinin daha da pisləşməsinə yol açacağını düşünürlər.**



Suriyadakı erməni icması tarixi köklərə malikdir və uzun müddət ən böyük icmalardan biri hesab olunur. Hakimiyyət dəyişikliyi ilə əlaqədar olaraq bu ölkədə ermənilərin təhlükəsiz yaşaması Ermənistanda, eləcə də dünya erməni diasporunda ciddi narahatlıq doğurur. Dekabrın 5-nə qədər erməni icmasının silahlılar tərəfindən ələ keçirilən Hələb şəhərində qaldığı bildirilir. Ermənistan hakimiyyəti onların təxliyyəsinə kömək etməyə hazır olduqlarını bəyan etsə də, hələlik şəhərdən çıxışı təmin etmək və ya humanitar yardım çatdırmaq mümkün deyil. Dekabrın 8-də Ermənistan xarici işlər nazirliyi Dəməşqdəki səfirliyinin diplomatik heyətinin Beyrutdan işini müvəqqəti olaraq davam etdirdiyini və ermənilərin Suriyadan çıxarılmasının mümkünsüz olduğunu açıqlamışdı. Amma Suriyada hərbi əməliyyatların intensivləşməsi ilə əlaqədar Ermənistan bir qrup "minatəmizləmə mütəxəssisini" və "tibb işçilərini" ölkəyə qaytardığını bildirir. İrəvanın 83 nəfərlik "humanitar" kontingenti 2019-cu ilin fevralından Suriyada işləyirdi.

Əslində, Ermənistan və erməni diasporu Suriyadakı erməni icmasının ölkəni tərk etməsinin əleyhinədir. İstər Hələbdəki erməni icmasının rəhbərliyi, istərsə də İrəvandan səsləndirilən bəyanatlar belə deməyə əsas verir. Məsələn, erməni Patriarxlığı Suriyada yaşayan erməniləri ölkədəki mövcud dəyişikliklər dövründə təmkinli və ehtiyatlı olmağa, yalnız fövqəladə hallarda evlərini tərk etməyə çağırmışdı. Patriarxlıq qeyd etmişdi ki, Suriya erməniləri ölkədə qalaraq ölkənin bərpasında iştirak etməyə çalışmalıdırlar. Yəni erməni kilsəsi bununla "Suriyada qalın" mesajını çatdırmağa tələsmişdi.

Əlbəttə, erməni kilsəsinin və diasporun, eləcə də rəsmi İrəvanın əndişə keçirməsinin səbəbləri var. Ermənistan və Suriya arasında münasibətlərin formalaşmasında erməni icması böyük rol oynamışdı. SSRİ-nin dağılmasından sonra iki ölkə münasibətlərinin inkişafı üçün əsas rol oynayan amil də məhz erməni icması olmuşdu. Bununla belə, Ermənistan üçün həm Suriyanın, həm də Suriya üçün Ermənistanın heç vaxt əsas siyasi və iqtisadi tərəfdaş olmadıqları da məlumdur. Buna baxmayaraq, Suriya münaqişəsi kontekstində Ermənistan Başər Əsəd rejiminə yardım göstərmək üçün çox fəal addım atmağa başlamışdı və bu, Suriya dövləti tərəfindən yüksək qiymətləndirilmişdi. Rəsmi Dəməşqin ermənilərə minnətdarlığı Qarabağ münaqişəsi zamanı birtərəfli mövqe tutması olmuşdu.

Ermənistan ilə Suriya arasında rəsmi ikitərəfli münasibətlərin qurulması 1992-ci ilə təsadüf edir. Həmin ildə də Ermənistanın Dəməşqdə səfirliyi açılmışdı və beş il sonra, 1997-ci ildə İrəvanda Suriyanın səfirliyi fəaliyyətə başlamışdı. Eyni zamanda, Ermənistanın Suriyadakı diplomatik nümayəndəliyi Dəməşqdəki səfirliklə məhdudlaşmırdı: onunla yanaşı, Hələbdə Ermənistanın baş konsulluğu (1993-cü ildən) və Deyr əz-Əz-Zorda fəxri konsulluğu da (2010-cu ildən) fəaliyyət göstərirdi. Ermənistanın Hələbdə baş konsulluğunun açılması orada xeyli erməni əhalisinin olması ilə bağlı idi. İddialara görə, 1928-ci ildən bəri ermənilər Suriya qanunverici orqanında mütəmadi olaraq iştirak edir və yüksək rütbəli hərbçilər Suriya ordusunda qulluq göstərirdilər.

Bu da bir həqiqətdir ki, Ermənistanın Suriyada diplomatik nümayəndəliklərinin fəaliyyətə başlaması əsasən yerli erməni icmasının səyləri nəticəsində mümkün olmuşdu. Xüsusilə icma nümayəndələri Dəməşqdə səfirliyin açılışı zamanı maddi yardım göstərmiş, diplomatik missiyanın əməkdaşları ilə yerli hakimiyyət orqanları və cəmiyyət arasında əlaqələrin yaradılmasına hər cür töhfə vermişdilər. Suriyadakı münaqişədən sonra Ermənistan–Suriya münasibətləri yeni mərhələyə qədəm qoymuşdu. Hərbi əməliyyatların başlaması ilə Ermənistan bu ölkədə baş verən hadisələrdən kənarda qala bilmədi, münaqişə illərində Suriya hökuməti ilə rəsmi əlaqələri davam etdirdi. Bununla yanaşı, İrəvan Başər Əsəd rejiminə hərbi, tibbi yardım göstərməklə Suriya hökumətinin xalqına qarşı mübarizədə dəstəyini əsirgəmədi.

Münaqişənin ilkin mərhələlərində Ermənistan Suriya istiqamətində fəal siyasət yürütməsə də, zaman keçdikcə konkret addımlar atmağa başlamışdı. Belə ki, 2016-cı ilin oktyabr ayından başlayaraq Suriyaya humanitar yardım adı ilə Dəməşqə hərbi dəstək göstərmişdi. Bunun müqabilində Başər Əsəd rejimi 2020-ci ilin fevralında "erməni soyqırımı"nı tanıyan qətnaməni təsdiqləmişdi. Ermənilər də etiraf edirlər ki, qətnamənin ortaya çıxması Suriya–Ermənistan dostluq komitəsinin fəal işi və Suriyadakı erməni strukturlarının "soyqırımın" tanınması problemi ilə bağlı ictimai rəyin formalaşmasına yönəlmiş fəaliyyəti sayəsində mümkün olmuşdu.

Təbii ki, Suriya hər bir erməni üçün "doğma" yerdir. Çünki erməni separatizmini və terrorunu dəstəkləyən, "Böyük Ermənistan" xülyası uğrunda günahsız insanları öldürən bir çox cani və qatilin məhz Suriyada yaşayan erməni icmasından çıxması hamıya məlumdur. Məsələn, Ermənistanın "milli qəhrəman" saydığı Varujan Karapetyan terrorçudur. Ermənistan əsilli Suriya vətəndaşı olan Karapetyan erməni terror təşkilatı ASALA (Ermənistanın Azadlığı Naminə Erməni Gizli Ordusu) üzvü olmuşdu. 1983-cü il iyulun 15-də ASALA-nın Fransa bölməsinin o vaxtkı 20 yaşlı rəhbəri Karapetyan Parisin Orli hava limanının cənub terminalında Türk Hava Yollarının qeydiyyat məntəqəsində çamadanda bomba qoymuşdu. Bu, ASALA-nın "erməni soyqırımı"nın türklər tərəfindən tanınması üçün Türkiyə ilə mübarizə üzrə qlobal kampaniyasının bir hissəsi olmuşdu.

Qarabağ müharibəsində Azərbaycana qarşı savaşanda ermənilərin xarici ölkələrdən muzdlular cəlb etməsi barədə xəbərlər yeni deyil. Birinci və İkinci Qarabağ müharibələri zamanı erməni cəbhəsində dünyanın müxtəlif ölkələrindən, o cümlədən Suriyadan və Livandan olan yaraqlılar fəal şəkildə iştirak etmişdilər. ASALA terror təşkilatının üzvü Monte Melkonyan Qarabağ müharibəsində məhz xarici muzdlulardan təşkil olunmuş batalyonun komandiri olmuşdu. Qarabağ müharibəsində ən qəddar və amansız olanlar da məhz xarici muzdluların olduqları bildirildi. İndi Suriyadakı rejimin çökməsindən sonra İrəvanın, eləcə də erməni diasporunun yerli erməni aktivindən istifadə etmək imkanları tükəndi. Bu xarici aktivin itirilməsi indi ermənilər tərəfindən çox ağrılı qarşılanır və Əsəd rejiminin çökməsi Ermənistanın maraqlarına ciddi zərbə kimi qiymətləndirilir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

**Sumqayıt Dövlət Universitetində (SDU) doktorantların və gənc tədqiqatçıların XXVII Respublika elmi konfransı (NASCO XXVII) keçirilib. Tədbirdə Elm və Təhsil Nazirliyinin nümayəndələri, ölkəmizin tanınmış ali təhsil müəssisələrinin rektorları, alimlər, ictimai-siyasi xadimlər, elmi araşdırmalar sahəsində ilk addımlar atan perspektivli gənclər iştirak ediblər.**

# Gənc alimlərə "yaşıl işıq"






"Yaşıl dünya naminə həmrəylik ili"nə həsr edilmiş konfransın təşkilatçıları Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və SDU-dur. "SOCAR Polymer" MMC, BP və Nobel Energy şirkətlərinin sponsorluğu ilə gerçəkləşib. Universitetin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Elgün Rüstəmli "XQ"yə açıqlamasında dedi:

– Konfransın keçirilməsində əsas məqsəd doktorantura səviyyəsində təhsilalanların və gənc tədqiqatçıların elmi-tədqiqat fəaliyyətlərinin nəticələrinin ölkədəki elm adamları ilə müzakirəsini təşkil etmək, elmi-tədqiqat yaradıcılığı üçün daha geniş stimullaşdırıcı imkanlar yaratmaqdır. Respublikada və xaricdə ali təhsil müəssisələrində və elmi-tədqiqat institutlarında fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantlar və dissertantlar, bu mərhələlərdə təhsilini bitirmiş, müdafiə ərəfəsində olan şəxslər, həmçinin fəlsəfə doktoru elmi dərəcəsi almış 35 yaşa qədər gənc tədqiqatçılar qatılıblar.

Plenar iclasda SDU-nun rektoru, dosent Rüfət Əzizov doktorantların və gənc tədqiqatçıların növbəti elmi toplantısının Sumqayıtda keçirilməsindən məmnunluğunu bildirib. O, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi məqsədilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlardan danışıb və bu istiqamətdə Sumqayıt universitetində tətbiq edilən yeniliklərdən, tədris olunan ixtisaslardan, tələbə-məzunların əmək bazarındakı fəaliyyəti ilə əlaqədar görülən işlərdən söz açıb. Diqqətə çatdırıb ki, bu gün ölkəmizin sənaye mərkəzi hesab edilən Sumqayıt şəhərinin yeganə ali təhsil müəssisəsi olan Sumqayıt Dövlət Universiteti sənaye şəhərinin bilik və təcrübə mənbəyinə çevrilir.

Elm və təhsil naziri Emin Əmrullayev 27-ci dəfə təşkil olunan konfransın əhəmiyyətindən danışıb. Bu cür tədbirlərin elm sahəsində möhkəm və uğurlu bir ənənə formalaşdırdığını, gənc alimlərə böyük imkanlar yaratdığını qeyd edən nazir, ölkəmizdə elm və təhsilin inkişafı istiqamətində bir sıra mühüm və uğurlu addımlar atıldığını diqqətə çatdırıb. Bildirib ki, müasir təhsil infrastrukturunun yaradılması, universitetlərdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və elmi-tədqiqat fəaliyyətlərinin gücləndirilməsi bu sahədəki əsas prioritetlərdəndir.

Daha sonra Oksford Universitetinin tədqiqatçısı, Oxa şirkətinin baş mühəndisi, SDU Akademik Məşvərət Şurasının üzvü Tərlan Süleymanov "Sürücüsüz avtomobillər və onların tətbiqi", Cənubi Florida Universitetinin doktorantı Turan Əhmədova "Təhsil liderliyində davamlılıq: töhfələr, icra və qərar qəbulunun təsiri" mövzularında məruzə ilə çıxış ediblər.

Bədii hissə ilə bitən plenar iclasdan sonra Respublika konfransı işini bölmələr üzrə davam etdirib. Konfransa 287 tezis daxil olub, onlardan 251-i qəbul edilib. İki gün ərzində aparılan müzakirələr elmin bütün sahələrini əhatə edib. Texniki sahələr, Yaşıl enerji, yaşıl iqtisadiyyat, yaşıl bacarıqlar və yaşıl həyat mövzularındakı tezislərə üstünlük verilib. Konfransda çıxış edən bütün məruzəçilərə sertifikatlar təqdim edilib.

*Ə.ƏLİYEV*
*XQ*

**Avroliqa: 6-cı raund**

# "Qarabağ" yenidən Skandinaviyada

**UEFA Avropa Liqasının əsas turnirində mübarizə həlledici mərhələyə qədəm qoyub. Son üç turda xal ehtiyatlarını tələb olunan həddə çatdıra bilməyən klublar yarı yolda dayanıb, pley-off görüşlərini azarkeş kimi izləməli olacaqlar. Hələlik isə Liqa mərhələsini ən yaxşı 24 komanda sırasında başa vurmaq arzusu ilə yaşayan kollektivlər, o cümlədən, avrokuboklarda ardıcıl 11-ci mövsümünü keçirməsi ilə haqlı olaraq qürur duyan Azərbaycan çempionu Ağdamın "Qarabağ" komandası son addımlarda büdrəməyib, imkanlardan daha çox qazanc götürməyə çalışmalıdırlar. İrəli getmək, məqsədə çatmaq istəyirsənsə, başqa yol yoxdur.**




Təmsilçimiz bu gün Skandinaviyanın qonağıdır. İsveçin Boras şəhərində yerli "Elfsborq" komandası ilə oyun hər iki rəqib üçün prinsipial əhəmiyyət daşıyır. Bizim vaxtla gecəyarısı, 00:00-da başlayacaq görüş ərəfəsində 34 komandanın göstəricilərini əks etdirən turnir cədvəlində rəqiblər bir-birindən cəmi 1 xal ayırır. "Elfsborq" 4 xalla 28-ci mövqedə irəliləyir, hesabında 3 xal olan "Qarabağ" isə 32-ci pillədədir.

İki həftə əvvəl keçirilmiş 5-ci turda Azərbaycan çempionu kimi, İsveç klubu da meydançanı böyük hesablı məğlubiyyətlə tərk etmişdir. Fərq yalnız bundadır ki, "Elfsborq" futbolçuları "Atletik" Bilbaoya İspaniyada uduzmuş (0:3), bizim komanda isə "Lion"a öz meydanında məğlub olmuşdur (1:4).

Növbəti uğursuzluq bugünkü rəqiblərdən hər hansı birinin vəziyyətini daha da çətinləşdirər. Ona görə də güman etmək olar ki, hakimin start işarəsindən final fitinədək meydanda ölüm-dirim mübarizəsi gedəcək. Tərəflərdən hər hansı birinin qazanacağı qələbənin qiyməti çox yüksək, qızıla bərabər olacaq.

Əgər Qurban Qurbanovun futbolçuları bu axşam meydan sahiblərinin qapısı ağzında yaradacaqları qol epizodlarında ötən turlardakından fərqli olaraq, həlledici zərbələri mükəmməl yerinə yetirə bilsələr, "Qarabağ" son bir ayda ikinci dəfə Skandinaviyadan Azərbaycana qələbə ilə qayıdar. Noyabrda Norveçdə "Bodo Qlimt" ilə matçda qazanılmış uğur (2:1) hələlik yeganə qələbəmizdir.

Gələn il yanvarın üçüncü ongünlüyündə Bakıda Rumıniyanın FCSB və Yunanıstanda "Olimpiakos" ilə keçiriləcək görüşlərə daha yaxşı əhvalla hazırlaşmaq baxımından bugünkü oyunda qələbə "Qarabağ"a sanki ikinci nəfəs verər.

Hər şeyin yaxşı olacağı, Ağdam komandasının yenə Skandinaviyada uğurlu nəticəsinə sevinmək ümidi ilə.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

*Jira proqram təminatının və lisenziyaların satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Jira proqram təminatının və lisenziyaların satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 20 dekabr 2024-cü il saat 17.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs mütəxəssis – Arzu Qasımlı, arzu.qasimli@azal.az. Telefon – (+99412) 4972600 daxili 6989.

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

*Videodivar (Videowall) sisteminin satın alınması üçün açıq tender tarixini uzadır*

Nəzərinizə çatdırırıq ki, 2024-cü il dekabrın 4-də "Azərbaycan Hava Yolları" QSC tərəfindən elan edilmiş Videodivar ( Videowall) sisteminin satın alınması üçün açıq tender müsabiqəsinin tarixinin 2024-cü il dekabrın 19-na qədər uzadılması qərarı verilmişdir. Təkliflərin son təqdim edilməsi tarixi 2024-cü il dekabrın 19-u kimi nəzərə alınmalıdır.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 274 (30678) 12 dekabr 2024-cü il, cümə axşamı

İdman

# Kata üzrə ilk Azərbaycan çempionatı keçiriləcək

**Böyüklər və gənclər arasında ilk dəfə kata üzrə ölkə çempionatı və birinciliyi keçiriləcək.**



Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, böyüklərin yarışında 2009-cu il və ondan aşağı, gənclərin mübarizəsində isə 2005–2010-cu il təvəllüdlü idmançılar iştirak edəcəklər.

Dekabrın 23-də start götürəcək yarışdan öncə məşqçilər və cüdoçular üçün kata üzrə seminar təşkil olunacaq.

# Əfsanəvi Messi Bakıda

**Futbol əfsanəsi Lionel Messi və dünya ulduzları Luis Suares, Serxio Buskets və Xordi Alba Bakı Kristal Zalında fanatlarına unudulmaz anlar yaşadıb.**



Pərəstişkarların dünya futbolunun ulduzları ilə görüşündən əvvəl səhnədə “Natiq” ritm qrupunun çıxışı olub. Daha sonra dünyaşöhrətli bəstəkar və müğənni Villi Uilyam konsert proqramını təqdim edib.

Dünya çempionu, səkkiz dəfə “Qızıl top” mükafatına layiq görülən Lionel Messinin karyerasını əks etdirən filmin nümayişindən sonra isə ulduz futbolçu komanda yoldaşları – Luis Suares, Serxio Buskets və Xordi Alba ilə səhnəyə çıxıb.

Ölkəmizin uşaq futbol komandalarının təmsilçilərinə bir çox gəncin arzuladığı imkan da yaradılıb. Belə ki, gənc futbolçularımız dünyanın ən yaxşı oyunçusu Lionel Messi və komanda yoldaşlarına top ötürərək özlərini peşəkarlarla bir oyunun iştirakçıları kimi hiss ediblər. Daha sonra futbol ulduzları gənc həmkarları və sağlamlıq imkanları məhdud uşaqlarla xatirə şəkli çəkdiriblər.

Ulduz futbolçuların imzalı topları auditoriyaya dağıtması anları isə coşqu ilə qarşılanıb. Futbol həvəskarları üçün bu idman bayramı məşhur “Morandi” qrupunun çıxışı ilə davam edib. Minlərlə fanatın qatıldığı tədbirə Bakının uşaq evlərinin sakinləri, sağlamlıq imkanları məhdud uşaqlar və şəhid övladları da dəvət olunub.

Tədbirə bilet satışından əldə olunan vəsait isə xeyriyyə məqsədinə yönəldiləcək.

*FİDAN*
*XQ*


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.


8 NOYABR ZƏFƏR GÜNÜDÜR!
Xalq qəzeti
44 günlük Vətən müharibəsi 33 illik Qarabağ münaqişəsinə son qoydu
Qarabağ Zəfərinin dərsləri

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# “Google”nin ölkəmizdə yeni proqramı

**COP29 sammiti çərçivəsində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə “Google” şirkətinin Mərkəzi Asiya, Qafqaz nümayəndəliyi arasında keçirilən görüşdə Azərbaycan Süni İntellekt Laboratoriyası, Elm və Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin nümayəndələri də iştirak etmişdi.**



Görüş zamanı “Google”nin inkişaf etməkdə olan ölkələr üçün nəzərdə tutduğu qlobal “AI Sprinters Framework” proqramı əsasında Azərbaycanın Milli Süni İntellekt Strategiyasının inkişafı üzrə əməkdaşlıq perspektivləri müzakirə edilib.

Şirkət tələbə və mütəxəssislərə yeni proqramdan və digər süni intellekt texnologiyalarından necə istifadə edə biləcəkləri ilə bağlı məlumat verib. Bu təşəbbüslər vasitəsilə universitet və nəhəng texnologiya şirkətləri ilə sıx əlaqələrin qurulmasının mümkünlüyü qeyd olunub.

Bildirilib ki, bu əməkdaşlıq həm də Azərbaycanda rəqəmsal ekosistemin inkişafına mühüm töhfə verəcək. İnnovasiyaların sürətləndirilməsi və dayanıqlı inkişafı üçün süni intellektdən istifadənin optimallaşdırılması baxımından da yeni imkanlar yaranacaq.

*S.FİDAN*
*XQ*

# “Azərkosmos” Qırğızıstana təbii fəlakət barədə xəbərdarlıq edib

**“Azərkosmos”un Qırğızıstanın Fövqəladə Hallar Nazirliyi ilə əməkdaşlığı çərçivəsində hazırladığı rəqəmsal peyk həllərindən təbii fəlakət riskinin qiymətləndirilməsi və qarşısının alınmasında istifadə olunub.**

“Azərkosmos”un təqdim etdiyi yüksək dəqiqlikli rəqəmsal relyef modeli Qırğızıstanda potensial təbii fəlakətin qarşısını almaqda mühüm rol oynayıb və yüzlərlə insanın həyatını xilas etməyə kömək edib. Həmin model ərazinin yüksəklik məlumatlarını rəqəmsal formada təsvir edən coğrafi məlumat olub, relyefin quruluşunu və formasını dəqiq təsvir edir. Peyk təsvirlərinin təhlili və əlavə monitorinq məlumatları əsasında müəyyən edilib ki, İssık gölü ərazisində dağ göllərinin daşması ilə bağlı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi mümkün deyil. Ətraf kəndlər ciddi daşqın təhlükəsi ilə üzləşə bilər. Bu məlumatlar əsasında Qırğızıstanda aidiyyəti qurumlar dərhal tədbir görərək risk altındakı yaşayış məntəqələrindən insanların köçürülməsini təşkil edib. Təxliyyədən cəmi 4 gün sonra gözlənilən daşqın baş verib. Vaxtında görülən tədbirlər 500 nəfərin həyatını xilas edib.




“Azərkosmos”dan bildiriblər ki, Qırğızıstanda 2 mindən çox dağ gölü var. Onlardan 320-si potensial fövqəladə hallar üçün ciddi təhlükə yaradır. Yüksək dağlıq ərazilərdə yerləşən bu göllərin daşması Mərkəzi Asiya regionuna da genişmiqyaslı təsirlər göstərə bilər. Təbii fəlakətin baş verməsinin əsas səbəblərindən biri dağ göllərinin iqlim dəyişikliklərinə artan həssaslığıdır. Temperaturun yüksəlməsi buzlaqların əriməsini sürətləndirərək göllərin səviyyəsini kritik həddə gətirib çıxarır. Məsələn, riskli ərazilərdə daha detallı peyk monitorinqinin aparılması və bu göllərin təhlükəsizlik strukturunun gücləndirilməsi gələcəkdə bənzər fəlakətlərin qarşısını ala bilər. Rəqəmsal relyef modelləri və peyk məlumatları fəlakətlərin idarə olunmasında yüksək dəqiqlikli proqnozlar verir. Bu isə həm insan, həm də maliyyə resurslarına qənaət etməyə imkan yaradır.

*Qəzənfər QASIMOV*
*XQ*

# Tramp axtarışda liderlik qazanıb




**2024-cü ildə istifadəçilər “Google” axtarış sistemində ən çox ABŞ-nin seçilmiş Prezidenti Donald Tramp və Uels şahzadəsi Keyt Middlton haqqında məlumat axtarıblar.**

Bu barədə şirkətin dərc etdiyi hesabatda məlumat verilib. Ən çox maraq doğuran hadisə ABŞ-də noyabr ayında keçirilən prezident seçkisi olub. İstifadəçilər, eyni zamanda, təbii fəlakətlər, xüsusilə ABŞ-də baş verən “Milton” qasırğası və Yaponiyada tayfun haqqında məlumatları tez-tez axtarıblar. Üçüncü yerdə isə Parisdə keçirilən Yay Olimpiya Oyunları ilə bağlı axtarışlar qərarlaşıb. Bununla yanaşı, Ukrayna münaqişəsi ilin ən populyar 10 axtarış mövzusuna daxil olmayıb.

*XQ*

Sağlamlıq

# Bal və darçının “sirri”

**Qədim Yunanıstanda dərman kimi istifadə edilən bal və darçın qarışımının son araşdırmalarla immun sistemini gücləndirdiyi və digər faydaları müəyyən edilib. Xarici mətbuatın yazdığına görə, o, həm də təbii antibiotikdir. Tərkibində çoxlu vitamin və yüksək miqdarda dəmir olan cövhər orqanizmi bakteriya və viruslara qarşı qoruyur, sidik yolları infeksiyasını müalicə edərək mikrobları öldürür, bir sözlə, ömrü uzadır.**

Hindistan və Yaponiyada aparılan araşdırmalarla müəyyən edilib ki, bal və darçın qarışımı mədədəki qazı aradan qaldırır, turşuluğun qarşısını alır və ağır yeməklərin həzminə kömək edir.

Darçın tozu ilə balı qarışdırıb səhər yeməyində çörəklə yemək olar. Bu, pis xolesterolu azaldır və infarktın qarşısını alır. Darçınlı balın müntəzəm istifadəsi ürək döyüntüsünü nizama salır, ömrü 10 il uzadır. Yaşlandıqca arteriya və damarlar elastikliyini itirir və tıxanır. Darçınlı bal isə damarları bərpa edir. Həmçinin gecə yatmazdan əvvəl bu qarışımdan bir qaşıq qəbul edənlər, səhərlər daha rahat və yaxşı əhval ilə oyanırlar.



Xolesterol xəstəsinə 450 qram çaya iki xörək qaşığı bal və üç xörək qaşığı darçın tozu qatıb verildikdə iki saat ərzində qanda xolesterinin miqdarının 10 faiz azaldığı müşahidə edilib. Bu qarışım gündə üç dəfə qəbul edildikdə, xroniki xolesterolu da müalicə edə bilər.

*Z.HÜSEYNLİ*
*XQ*

Hava

# Abşeronda külək, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 12-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək.**

Lakin gecəyə doğru bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək, səhər arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 6-9°, gündüz 9-13° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-7°, gündüz 11-16° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.



*Q. QASIMOV*
*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

Süleyman İsmayılov Əsgər və Qüdrət Abdullayev qardaşlarına ataları

**HƏSƏN ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin biologiya və onun tədrisi texnologiyası kafedrasının əməkdaşları kafedranın dosenti Təranə Abdullayevaya bacısı

**NOVRUZƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Biləsuvar rayonundan Niftulla Əzizov ailəsi ilə birlikdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dosenti

**MAHMUD MAHMUDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2852
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00